RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 138 (10158) 5 avqust 2026-cı il ÇƏRŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



## 57 il əvvəl Azərbaycanın tarixində yeni dövr başladı

### 1969-cu ilin avqust plenumundakı məruzəsi ilə Heydər Əliyev respublikanın gələcək inkişaf yolunu müəyyən etdi

Müdriklərin söylədiyi kimi, ən böyük məsafələr bir addımdan başlanır. Bu, tarixdə də belədir. Xalqların həyatını dəyişmiş böyük proseslər bəzən öz başlanğıcını bir yenilikdən, təqvimdəki hansısa gündən götürür və o tarix sonralar həmin xalqların taleyinə çevrilir.

1969-cu il avqustun 5-də Bakıda Azərbaycan KP MK-nın növbəti plenumu keçirilir. Bu plenum respublikanın yeni rəhbərinin rəsmi dövlət siyasəti səviyyəsində ortaya çıxması, yeni strateji dövrdə Azərbaycanın qarşısında duran əsas hədəflərin müəyyənləşdirilməsi, onlara çatmaq üçün yerinə yetirilən vəzifələrin konkretləşdirilərək təqdim edilməsi idi. Tarixin ən qüdrətli Azərbaycanına doğru yol öz başlanğıcını o günlərdən götürür. Həmin siyasətin başlıca məramı güclü dövlət, güclü iqtisadiyyat yaratmaq, sağlam milli kadrlar yetişdirmək idi.

Ulu Öndər çıxışında çox açıq və sərt şəkildə kadrların seçilməsində ciddi qüsurlara yol verildiyini qeyd etdi, iqtisadiyyatda hərc-mərcliyin, özbaşınalığın hökm sürdüyünü bildirdi. Ümummilli Liderin plenumdakı nitqi kadr seçiminə necə böyük məsuliyyətlə yanaşdığını bir daha təsdiqlədi. "Biz ayrı-ayrı vəzifəli şəxslərin davranışında özünü büruzə verən nalayiq hallara, pozğunluq təzahürlərinə göz yuma bilmərik. Mənəviyyat, əxlaq bütün işimizə nüfuz etməlidir. Kadrları açıq-aşkar, kütlələrin gözü qabağında seçmək, onlar haqqında kollektivin, adamların, iş yoldaşlarının rəyini nəzərə almaq lazımdır.

9

## Xəzərdə qüdrətli dəniz qüvvələrindən sayılan Azərbaycan Hərbi Donanmasının qurucusu Ali Baş Komandan İlham Əliyevdir




# Mavi sərhədlərimizin ayıq-sayıq keşikçiləri

Müstəqilliyimizin bərpasından sonra - 1991-ci il oktyabrın 9-da qəbul olunmuş "Azərbaycan Respublikası Silahlı Qüvvələri haqqında" qanun Hərbi Dəniz Qüvvələrinin yenidən qurulmasının hüquqi özülünü qoydu. SSRİ-nin dağılması səbəbindən Xəzəryanı dövlətlər arasında əldə edilən razılığa əsasən, Azərbaycan sabiq Xəzər Hərbi Donanmasının bazalarının tamlığına və hərbi gəmilərin 25 faizinə sahib oldu. 1992-ci il iyulun 26-da "Bakılı" gözətçi gəmisində müstəqil Azərbaycanın dövlət bayrağının qaldırılması ilə Hərbi Dəniz Donanmasının praktiki formalaşması başlandı. İlk mərhələdə 5 divizion və sahil bölmələri yaradıldı, müşahidə postları və mayakların fəaliyyəti bərpa edildi.

Birinci Qarabağ müharibəsinin ağır illərində Hərbi Dəniz Donanmasının şəxsi heyətindən Dəniz Piyadası Taboru formalaşdırıldı. 1994-cü il aprelin 19-da cəbhəyə yollanan bu tabor Ağdam-Tərtər istiqamətində düşmən hücumlarının qarşısını cəsarətlə aldı. 1997-ci ildə "Hərbi Dəniz Bayraqları haqqında" qanunun qəbulu və 2000-ci il avqustun 7-də bütün gəmilərdə Hərbi Dəniz Qüvvələrinin bayrağının qaldırılması ilə hərbi dənizçiliyin rəmzləri tam bərqərar oldu.

Azərbaycan Hərbi Dəniz Donanmasının modernləşdirilməsi və Xəzərdə hərbi-dəniz gücü kimi tanınması Prezident İlham Əliyevin adı ilə bağlıdır. Dövlətimizin başçısının yürütdüyü siyasət, sadəcə, hərbi gəmilərin alınması ilə məhdudlaşmır, ölkəmizin daxilində müasir gəmiqayırma sənayesinin qurulmasını, yerli istehsal potensialının maksimuma çatdırılmasını və dəniz infrastrukturunun köklü şəkildə yenilənməsini əhatə edir.

Bakı Gəmiqayırma Zavodunun fəaliyyətə başlaması və Dövlət Sərhəd Xidmətinin Sahil Mühafizəsinin Gəmi İnşası və Təmiri Mərkəzinin qurulması Azərbaycanı Xəzər hövzəsində öz gəmilərini sıfırdan inşa edən lider dövlətə çevirib. Prezident İlham Əliyevin diqqəti sayəsində inşa edilən yerli gəmilər yüksək manevr qabiliyyəti, müasir radar və raket sistemləri ilə təchiz olunaraq Hərbi Dəniz Donanması və Sahil Mühafizəsinin arsenalını xeyli zənginləşdirib.

2015-ci ildə Qaradağ rayonunda Ali Baş Komandanın iştirakı ilə istifadəyə verilən yeni Hərbi Dəniz Bazası Hərbi Dəniz Qüvvələrinin müasir infrastruktura olan bütün ehtiyaclarını qarşılayır. Müasir qərargah binası, hərbi şəhərcik, sosial obyektlər və ən əsası, ən müasir standartlara cavab verən yanaşma körpüləri Hərbi Dəniz Donanmasının döyüşə hazırlıq səviyyəsini dəfələrlə artırıb.

9



## Çolpon-Ata Bəyannaməsi strateji tərəfdaşlığı gücləndirən mühüm yol xəritəsidir

Çolpon-Ata Bəyannaməsində Azərbaycan-Mərkəzi Asiya dövlətləri arasında humanitar əməkdaşlığın inkişafına dair müddəalar da yer alır. Sənəddə təhsil, elm, mədəniyyət, gənclər siyasəti və turizm sahələrində əlaqələrin genişləndirilməsinin vacibliyi vurğulanır. Bu istiqamətlər üzrə əməkdaşlıq təkcə dövlətlərarası münasibətləri deyil, xalqlar arasında qarşılıqlı anlaşmanı, dostluğu və etimadı da gücləndirir. Eyni zamanda universitetlər, elmi-tədqiqat institutları və analitik mərkəzlər arasında əlaqələrin genişlənməsi birgə elmi layihələrin həyata keçirilməsinə, təcrübə mübadiləsinə və yüksəkixtisaslı kadrların hazırlanmasına yeni imkanlar açır.

Bəyannamədə mədəni irsin, tarixi ənənələrin və milli-mənəvi dəyərlərin qorunmasına xüsusi önəm verilməsi də diqqətçəkən məqamlardandır. Bu onu göstərir ki, tərəflər milli kimliklərini qoruyaraq, əməkdaşlıq qurmaq, əlaqələrini inkişaf etdirmək istəyirlər. Bu həm də xalqlar arasında qarşılıqlı hörmətin, tolerantlığın və uzunmüddətli tərəfdaşlığın daha da möhkəmlənməsinə xidmət edir.

10

## Burada günəşin istisi "yaşıl enerji"yə çevriləcək

### Cənubi Qafqazda ən böyük olacaq Biləsuvar Günəş-Elektrik Stansiyasının tikintisi sürətlə davam edir

Ölkəmizdə neft və qaz ehtiyatlarının kifayət qədər olmasına baxmayaraq, qarşıya günəş enerjisindən maksimum istifadə etmək vəzifəsi qoyulub. Bu da təsadüfi deyil. Ekoloji cəhətdən təmiz olduğu üçün "yaşıl enerji" sayılan günəş, eləcə də külək, su, bioloji enerji bu gün bəşəriyyətin təbii fəlakətlərdən xilas yollarından biri hesab edilir.

Ələt-Astara magistral şose yolunun Biləsuvar rayonu ərazisinə keçidinin şimalında, təxminən bir kilometr kənarda külli miqdarda ağır texnikaların hərəkəti müşahidə olunur. Bura Biləsuvar Günəş-Elektrik Stansiyasının tikintisinin getdiyi ərazidir.

11






## Mərkəzi Asiya və Azərbaycan vahid geosiyasi və geoiqtisadi məkana çevrilib

Son illərdə Azərbaycanın Mərkəzi Asiya istiqamətində yürütdüyü xarici siyasət, sadəcə, ikitərəfli görüşlərlə məhdudlaşmayıb, regional siyasətin sistemli və təsisatlaşmış əsasını qoyub. Dövlət başçıları səviyyəsində aparılan intensiv diplomatiya bu prosesin əsas mühərrikidir. Təkcə 2023-cü ildən etibarən Prezident İlham Əliyevin Mərkəzi Asiyanın qardaş ölkələrinə 16 dəfə səfər etməsi, region liderlərinin isə Azərbaycana 26 dəfə gəlməsi bu təmasların nə dərəcədə yüksək dinamikaya malik olduğunu nümayiş etdirir. Bu göstərici, sadəcə, quru statistika deyil, Cənubi Qafqaz və Mərkəzi Asiyanın artıq vahid geosiyasi və geoiqtisadi arena kimi hərəkət etdiyinin aydın sübutudur.

10

## Rəqəmsal platforma xəbərləri necə idarə edir?

### Alqoritmlər insanın bir xəbərə ayırdığı diqqəti son 10 ildə 12 saniyədən 8 saniyəyə endirib

Rəqəmsal şəbəkələrin xəbər gündəmini diktə etmə sisteminin mərkəzində alqoritmlər durur. Alqoritm kompüterə müəyyən bir məqsədə çatması üçün verilən addım-addım təlimatlar toplusudur. Sosial şəbəkə platformalarında bu sistemlər istifadəçilərin klikləmə, bəyənmə, şərh yazma və videolara baxma müddəti kimi rəqəmsal izlərini daim görür. Toplanan məlumatlar əsasında mürəkkəb istifadəçi profilləri formalaşdırılır. Nəticədə alqoritm hər bir şəxs üçün xüsusi xəbər lenti qurur və hansı xəbərin önə çıxacağını, hansının isə kölgədə qalacağını təkbaşına müəyyən edir.

Ənənəvi redaksiya mühitində xəbərin dəyəri onun ictimai əhəmiyyəti, dəqiqliyi və obyektivliyi ilə ölçülürdü. Alqoritmik redaktədə isə əsas meyar "cəlbetmə" göstəricisidir. Sosial media platformalarının biznes modeli istifadəçini mümkün qədər uzun müddət ekrana kilidləmək üzərində qurulub. Bu səbəbdən alqoritmlər çox vaxt emosional, sensasiyalı, mübahisəli və qütbləşdirici xəbərləri daha sürətlə ön plana çıxarır.

12



# Azərbaycan Respublikasının Gömrük Məcəlləsində dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 25-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının Gömrük Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 9, maddə 787 (Cild I); 2024, № 7, maddə 747; 2025, № 6, maddə 524, № 7, maddə 627; 2026, № 3, maddələr 202, 210) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1-ci maddənin mətni, 2.1-ci və 2.2-ci maddələr aşağıdakı redaksiyada verilsin:

"1.1. Bu Məcəllənin məqsədləri üçün aşağıdakı əsas anlayışlardan istifadə olunur:

1.1.1. **adi işləmə formaları** - malların qorunması, qablaşdırılması, markalanması, habelə xarici görünüşünün və keyfiyyətinin yaxşılaşdırılması, satış və daşınma üçün hazırlanması məqsədilə onların yenidən qablaşdırılması, qablaşdırma yerlərinin qruplaşdırılması və çeşidlənməsi;

1.1.2. **bəyanetmə** - Azərbaycan Respublikasının gömrük sərhədindən (bundan sonra - gömrük sərhədi) keçirilən, gömrük nəzarəti altında yerləşdirilən mallar və nəqliyyat vasitələri barədə məlumatların gömrük orqanına şifahi və ya yazılı, o cümlədən elektron formada bəyan edilməsi;

1.1.3. **bəyannaməçi** - gömrük bəyannaməsini, müvəqqəti saxlanc və ya qısa idxal (ixrac) bəyannaməsini, sadələşdirilmiş, əlavə, dövri və ya natamam bəyannamələri, yaxud təkrar ixrac bildirişini təqdim edən və ya adından həmin gömrük sənədləri təqdim edilən şəxs;

1.1.4. **daşıyıcı** - malları gömrük sərhədindən faktiki keçirən və (və ya) malları gömrük nəzarəti altında daşıyan, yaxud nəqliyyat vasitələrindən istifadəyə görə məsul olan şəxs;

1.1.5. **daxili mallar** - Azərbaycan Respublikasında tamamilə istehsal olunmuş, yaxud emala məruz qalma meyarlarına uyğun olaraq kifayət qədər emal edilmiş və ya sərbəst dövriyyə üçün buraxılmış mallar;

1.1.6. **emal əməliyyatları** - malların emalı, təkrar emalı, təmiri, quraşdırılması, yığılması, başqa mallara uyğunlaşdırılması, hazırlanması, bərpa olunması, qaydaya salınması da daxil olmaqla emal prosesinə xidmət edən və ya bunu asanlaşdıran bəzi mallardan tamamilə və ya qismən istifadə edilməsi;

1.1.7. **emal məhsulları** - emal xüsusi gömrük prosedurları altında yerləşdirilərək emal əməliyyatlarından keçmiş mallar;

1.1.8. **fors-major hallar** - baş verməsi əvvəlcədən ehtimal edilməyən və müvafiq şəraitdə qarşısının alınmasının mümkün olmaması nəticəsində şəxslərin öz öhdəliklərini yerinə yetirməsinə maneçilik törədən, ləngidən fövqəladə hallar, təbii fəlakətlər, yaxud ictimai-siyasi hadisələr;

1.1.9. **göndərən gömrük orqanı** - tranzit xüsusi gömrük prosedurunun başlandığı gömrük orqanı;

1.1.10. **gömrük bəyannaməsi** - malların müvafiq gömrük proseduru altında yerləşdirilməsi üçün bəyannaməçilər tərəfindən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi formada gömrük orqanına təqdim olunan gömrük sənədi;

1.1.11. **gömrük əməliyyatları** - malların və nəqliyyat vasitələrinin gömrük orqanlarına təqdim olunması, bəyan edilməsi, malların boşaldılması, yüklənməsi, çeşidlənməsi, sayılması, çəkilməsi, ölçülməsi, eyniləşdirilməsi, adi işləmə formalarına məruz qalması, gömrük ekspertizasının aparılması, gömrük ödənişlərinin hesablanması və ödənilməsi, malların buraxılışının həyata keçirilməsi, gömrük müşayiəti, habelə gömrük nəzarəti və gömrük rəsmiləşdirilməsi zamanı gömrük orqanları və şəxslər tərəfindən həyata keçirilən gömrük qanunvericiliyi və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə (bundan sonra - beynəlxalq müqavilə) nəzərdə tutulmuş digər hərəkətlər;

1.1.12. **gömrük müşayiəti** - gömrük orqanları tərəfindən gömrük nəzarəti altında olan malların gömrük ərazisində daşınmasının təmin olunması ilə əlaqədar həyata keçirilən gömrük əməliyyatı;

1.1.13. **gömrük nəzarəti** - gömrük qanunvericiliyinə riayət olunmasını təmin etmək məqsədilə gömrük orqanlarının həyata keçirdiyi tədbirlər;

1.1.14. **gömrük nəzarəti altında olan mallar** - bu Məcəllənin 83-cü maddəsinin tələblərinə uyğun olaraq üzərində gömrük nəzarəti başa çatmamış mallar;

1.1.15. **gömrük nəzarəti zonası** - bu Məcəllənin 93.1-ci maddəsində nəzərdə tutulmuş yerlərdə yaradılan gömrük ərazisinin gömrük orqanları tərəfindən xüsusi ayrılmış və nişanlanmış hissəsi;

1.1.16. **gömrük orqanı** - gömrük nəzarəti və gömrük rəsmiləşdirilməsini tam və ya qismən həyata keçirmək səlahiyyəti verilmiş və gömrük xidmətinin vahid sisteminə daxil olan struktur bölməsi;

1.1.17. **gömrük proseduru** - malların və nəqliyyat vasitələrinin bu Məcəllənin müddəalarına uyğun olaraq gömrük ərazisində və ya gömrük ərazisindən kənarda istifadəsinin qayda və şərtlərini müəyyən edən normaların məcmusu;

1.1.18. **gömrük rəsmiləşdirilməsi** - bu Məcəllənin tələblərinə uyğun olaraq malların və nəqliyyat vasitələrinin müvafiq gömrük proseduru altında yerləşdirilməsi və bu prosedurun başa çatdırılması üzrə şəxslər və gömrük orqanları tərəfindən həyata keçirilən gömrük əməliyyatları;

1.1.19. **gömrük sahəsi** - gömrük nəzarəti və (və ya) gömrük rəsmiləşdirilməsi həyata keçirilən, bu Məcəllə ilə və ya müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən ərazi və obyektlər;

1.1.20. **gömrük sənədləri** - gömrük nəzarəti və gömrük rəsmiləşdirilməsi, o cümlədən gömrük əməliyyatları zamanı istifadə olunan gömrük bəyannaməsi, müvəqqəti saxlanc və qısa idxal (ixrac) bəyannaməsi, sadələşdirilmiş, əlavə, dövri və natamam bəyannamələr, təkrar ixrac bildirişi, həmçinin gömrük qanunvericiliyinə uyğun olaraq gömrük orqanlarına təqdim olunması nəzərdə tutulan nəqliyyat və kommersiya sənədləri;

1.1.21. **gömrük sərhədindən keçirmə** - malların və nəqliyyat vasitələrinin Azərbaycan Respublikasının normativ hüquqi aktları ilə müəyyən edilmiş üsullarla, o cümlədən beynəlxalq poçt göndərişləri, boru kəmərləri və elektrikötürücü xətlər vasitəsilə, malların sürətli (ekspres) daşınması yolu ilə gömrük ərazisinə gətirilməsi, bu ərazidən aparılması və ya tranziti üzrə hərəkətlər;

1.1.22. **gömrük təminatı** - gömrük nəzarəti və gömrük rəsmiləşdirilməsinin nəticələrini əks etdirmək üçün gömrük sərhədindən keçirilən mallara və nəqliyyat vasitələrinə gömrük orqanları tərəfindən vurulan plomblar, möhürlər və digər eyniləşdirmə vasitələri;

1.1.23. **gömrük xidməti** - gömrük qanunvericiliyinin tətbiqi, gömrük nəzarəti və gömrük rəsmiləşdirilməsi, habelə gömrük ödənişlərinin hesablanması və tutulmasını həyata keçirən müvafiq icra hakimiyyəti orqanı;

1.1.24. **gömrük ödənişləri** - bu Məcəllənin 224.1-ci maddəsində nəzərdə tutulan və gömrük orqanları tərəfindən alınan ödənişlər;

1.1.25. **hasilat norması** - emal xüsusi gömrük proseduru altında yerləşdirilmiş malların emalı nəticəsində alınan məhsulların müəyyən miqdarı və ya faizi;

1.1.26. **xarici mallar** - bu Məcəllənin 1.1.5-ci maddəsində göstərilənlərdən başqa digər mallar, həmçinin daxili mal statusunu itirmiş mallar;

1.1.27. **xüsusi gömrük proseduru** - malların və nəqliyyat vasitələrinin bu Məcəllənin müddəalarına uyğun olaraq gömrük rüsumlarından və vergilərdən tam, yaxud qismən azad olunmaqla, habelə ticarət siyasəti tədbirləri tətbiq edilmədən gömrük ərazisinə gətirilməsi, bu ərazidən aparılması və ya tranzitini nəzərdə tutan normaların məcmusu;

1.1.28. **idxalatçı** - malları idxal edən şəxs;

1.1.29. **ixracatçı** - malları ixrac edən şəxs;

1.1.30. **kommersiya sənədləri** - xarici ticarət fəaliyyəti və malların gömrük sərhədindən keçirilməsi ilə əlaqədar gömrük əməliyyatlarının aparılması zamanı istifadə olunan sənədlər (hesab-faktura (invoys), spesifikasiya (malların xüsusiyyətlərinə dair cədvəl), yükləmə-boşaltma sənədləri və müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən digər sənədlər);

1.1.31. **qeyri-rezidentlər** - bu Məcəllənin 1.1.47-ci maddəsinin şamil edilmədiyi şəxslər;

1.1.32. **qısa idxal bəyannaməsi** - mallar və nəqliyyat vasitələri gömrük ərazisinə gətirilməzdən əvvəl bəyannaməçilər tərəfindən gömrük orqanına təqdim edilən gömrük ərazisinə gətirilməsi nəzərdə tutulan mallar və nəqliyyat vasitələri barədə gömrük məqsədləri üçün tələb olunan məlumatların əks olunduğu gömrük sənədi;

1.1.33. **qısa ixrac bəyannaməsi** - malların və nəqliyyat vasitələrinin gömrük ərazisindən aparılmasından (göndərilməsindən) əvvəl bəyannaməçilər tərəfindən gömrük orqanına təqdim edilən, gömrük ərazisindən aparılması (göndərilməsi) nəzərdə tutulan mallar və nəqliyyat vasitələri barədə gömrük məqsədləri üçün tələb olunan məlumatların əks olunduğu gömrük sənədi;

1.1.34. **mal partiyası** - bir nəqliyyat sənədi üzrə bir və ya bir neçə nəqliyyat vasitəsində eyni vaxtda bir idxalatçının (ixracatçının) ünvanına daşınan mallar;

1.1.35. **mal sahibi** - mallar barəsində öz adından sərəncam vermək səlahiyyəti olan şəxs;

1.1.36. **malın mənşə ölkəsi** - gömrük tarifinin, miqdar məhdudiyyətlərinin, yaxud ticarətə aid başqa tədbirlərin tətbiqi üçün nəzərdə tutulmuş, habelə malın tamamilə istehsal və ya müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş meyarlara uyğun olaraq kifayət qədər emal edildiyi ölkə;

1.1.37. **mallar** - gömrük sərhədindən keçirilən istənilən daşınar əmlak, o cümlədən milli valyuta, milli valyutada qiymətli kağızlar və valyuta sərvətləri, təbii qaz, neft, elektrik enerjisi, bu Məcəllənin 1.1.45-ci maddəsində göstərilən nəqliyyat vasitələri istisna olmaqla, nəqliyyat vasitələri;

1.1.38. **malların buraxılışı** - malların yerləşdirildiyi gömrük proseduru nəzərə alınmaqla, onların gömrük orqanları tərəfindən şəxsin istifadəsinə və ya sərəncamına verilməsi;

1.1.39. **malların gömrük statusu** - malların daxili, yaxud xarici mallara aid edilməsi;

1.1.40. **malların sürətli (ekspres) daşınması** - beynəlxalq poçt göndərişləri ilə göndərilən mallar istisna olmaqla, daşınması və alıcıya çatdırılması satıcı və alıcı tərəfindən elektron formada izlənilən malların müvafiq qaimə əsasında istənilən nəqliyyat vasitəsilə sürətli (ekspres) daşınaraq ən qısa və ya əvvəlcədən müəyyən edilmiş müddətdə alıcıya çatdırılması;

1.1.41. **müşayiət olunan baqaj** - gömrük sərhədindən sərnişinlərin özləri tərəfindən keçirilən mallar;

1.1.42. **müşayiət olunmayan baqaj** - şəxslərə məxsus olan, beynəlxalq daşıma müqavilələrinə uyğun olaraq müvafiq qaimə əsasında daşıyıcılar tərəfindən, yaxud beynəlxalq poçt göndərişləri vasitəsilə gömrük sərhədindən keçirilən mallar;

1.1.43. **müvəqqəti saxlanc bəyannaməsi** - malların müvəqqəti saxlancda yerləşdirilməsi üçün bəyannaməçilər tərəfindən gömrük orqanına təqdim olunan gömrük sənədi;

1.1.44. **nəqliyyat sənədləri** - malların və nəqliyyat vasitələrinin daşınması zamanı normativ hüquqi aktlarda və beynəlxalq müqavilələrdə nəzərdə tutulmuş beynəlxalq avtomobil qaiməsi, dəmiryol qaiməsi, baqaj cədvəli, baqaj qəbzi, hava nəqliyyatında yük qaiməsi, konosament, habelə malların nəqlində istifadə olunan müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən digər müşayiət sənədləri;

1.1.45. **nəqliyyat vasitələri** - beynəlxalq sərnişin və yük daşıması üçün istifadə olunan hava, dəmiryol, dəniz, daxili su, avtomobil nəqliyyatı vasitələri, o cümlədən konteynerlər və Azərbaycan Respublikasının ərazisində yerləşən magistral boru kəmərləri;

1.1.46. **prosedur sahibi** - bəyannaməçi, yaxud onun gömrük prosedurları ilə bağlı hüquq və öhdəliklərinin ötürüldüyü şəxs;

1.1.47. **rezidentlər** - qanunvericiliyə uyğun olaraq yaradılmış və Azərbaycan Respublikasında yerləşən hüquqi şəxslər, digər idarə, müəssisə və təşkilatlar, Azərbaycan Respublikasının vergi orqanlarında vergi ödəyicisi kimi uçota alınmış hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər, Azərbaycan Respublikasının vətəndaşları və Azərbaycan Respublikasında daimi yaşayan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər;

1.1.48. **risk** - gömrük qanunvericiliyinin tələblərinin yerinə yetirilməməsi ehtimalı;

1.1.49. **səlahiyyətli iqtisadi operator** - Ümumdünya Gömrük Təşkilatının normaları və standartlarına uyğun olaraq gömrük nəzarətinin sadələşdirilmiş forma və üsullarından istifadə edilməsinə bu Məcəlləyə əsasən səlahiyyət verilmiş hüquqi şəxs və ya hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxs;

1.1.50. **səlahiyyətli mal alan** - malların təyinat gömrük orqanına təqdim edilmədən, birbaşa öz ünvanında qəbul edilməsinə gömrük orqanları tərəfindən səlahiyyət verilmiş şəxs;

1.1.51. **səlahiyyətli mal göndərən** - göndərən gömrük orqanına təqdim edilmədən, malların birbaşa öz ünvanından yola salınmasına gömrük orqanları tərəfindən səlahiyyət verilmiş şəxs;

1.1.52. **sərbəst zona** - gömrük ərazisinin gətirilən mallara gömrük rüsumlarının və vergilərin, habelə ticarət siyasəti tədbirlərinin tətbiq olunmayan hissəsi;

1.1.53. **sərnişinlər** - nəqliyyat vasitələrinin heyəti istisna olmaqla, gömrük sərhədindən keçən fiziki şəxslər;

1.1.54. **şəxsi əşyalar** - fiziki şəxsin şəxsi istifadəsi üçün zəruri olan əşyalar;

1.1.55. **şərti buraxılış** - mallardan və nəqliyyat vasitələrindən istifadəyə və onlar barəsində sərəncam verilməsinə dair məhdudiyyətlərə, tələblərə və şərtlərə riayət edəcəyi haqqında şəxsin öhdəlikləri ilə müşayiət olunan sərbəst dövriyyəyə buraxılış;

1.1.56. **Ticarətin Asanlaşdırılması Mərkəzi** - asanlaşdırılmış gömrük rəsmiləşdirilməsi, logistika və digər dövlət xidmətlərinin vahid məkanda əlaqələndirilmiş şəkildə həyata keçirilməsi üçün müəyyən olunmuş gömrük nəzarəti zonası;

1.1.57. **təkrar ixrac bildirişi** - xarici mallar sərbəst zonadan və ya müvəqqəti saxlanc yerlərindən birbaşa təkrar ixrac olunarkən bəyannaməçilər tərəfindən gömrük orqanlarına təqdim olunan gömrük sənədi;

1.1.58. **ticarət siyasəti tədbirləri** - Azərbaycan Respublikasında iqtisadi maraqların müdafiəsi məqsədilə tətbiq olunan antidempinq, kompensasiya və mühafizə tədbirləri;

1.1.59. **təyinat gömrük orqanı** - tranzit xüsusi gömrük prosedurunun başa çatdığı gömrük orqanı.

1.2. Bu Məcəllədə istifadə olunan digər anlayışlar Azərbaycan Respublikasının normativ hüquqi aktlarında müəyyən olunmuş mənaları ifadə edir.";

"2.1. Gömrük işi - malların gömrük sərhədindən keçirilməsi, gömrük prosedurlarının tətbiqi, gömrük nəzarəti və gömrük rəsmiləşdirilməsi, gömrük ödənişlərinin hesablanması və ödənilməsi, habelə ticarət siyasəti tədbirlərinin icrası ilə bağlı hüquqi, təşkilati və prosedur tədbirlərinin sistemidir.

2.2. Gömrük tənzimlənməsi - gömrük işi sahəsində qaydaların müəyyən edilməsi, tətbiqi, icrasına nəzarət və inzibati mexanizmlərin həyata keçirilməsidir.";

1.2. 3.3-cü maddəyə "Məcəllədə" sözündən sonra "və Azərbaycan Respublikasının digər qanunlarında" sözləri əlavə edilsin;

1.3. 4-cü maddə üzrə:

1.3.1. 4.2.6-cı maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 4.2.7-ci maddə əlavə edilsin:

"4.2.7. səyyar gömrük auditinə münasibətdə "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulan müddəalar.";

1.3.2. 4.3-cü maddənin birinci cümləsinə "gündən" sözündən sonra "azı" sözü əlavə edilsin;

1.4. 5.1-ci maddə aşağıdakı redaksiyada verilsin:

"5.1. Müvafiq icra hakimiyyəti orqanı "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununa uyğun olaraq normativ hüquqi aktlar qəbul edir.";

1.5. 6.2-ci maddədə "Gömrük xidmətinin inzibati bölməsi olan və vahid sistem təşkil edən" sözləri "Müvafiq icra hakimiyyəti orqanının vahid sisteminə daxil olan" sözləri ilə əvəz edilsin;

1.6. 7-ci maddə üzrə:

1.6.1. 7.1-ci maddə aşağıdakı redaksiyada verilsin:

"7.1. Müvafiq icra hakimiyyəti orqanının vahid sistemini onun Aparatı, strukturuna daxil olan gömrük orqanları və tabeliyində olan qurumlar təşkil edir.";

1.6.2. 7.3-cü maddəyə "orqanları" sözündən sonra "və tabeliyində olan qurumlar" sözləri, "əsasnamələrə" sözündən sonra "və ya nizamnamələrə" sözləri əlavə edilsin;

1.6.3. 7.4-cü maddəyə "orqanlarının" sözündən sonra "və tabeliyində olan qurumların" sözləri əlavə edilsin;

1.7. 8-ci maddə üzrə:

1.7.1. aşağıdakı məzmunda 8.0.7-1-ci maddə əlavə edilsin:

"8.0.7-1. xarici ticarət iştirakçısının ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılmasına səbəb olmuş əsasların aradan qalxdığı müəyyən edildikdən sonra dərhal həmin məhdudlaşdırmanın götürülməsi barədə qərar qəbul etmək;";

1.7.2. 8.0.18-ci maddədə "və xarici valyutanın, digər" sözləri "valyutanın, milli valyutada qiymətli kağızların və" sözləri ilə əvəz edilsin;

1.7.3. aşağıdakı məzmunda 8.0.21-1-ci maddə əlavə edilsin:

"8.0.21-1. Azərbaycan Respublikası ilə xarici ölkələr arasında avtomobil nəqliyyatı ilə daşımaları yerinə yetirmək üçün operatorlara verilən avtonəqliyyat vasitələrinin beynəlxalq daşımalara buraxılış kartlarının, xarici ölkə daşıyıcılarına verilən "İcazə blankları"nın (jurnallarının), habelə ümumi istifadədə olan avtomobil yolları ilə iriqabaritli və (və ya) ağırçəkili nəqliyyat vasitələrinə dair icazələrin, müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunmuş hallarda dövlət sərhədindən buraxılış məntəqələrində qəbul edilən məlumatların və sənədlərin mövcudluğunu yoxlamaq;";

1.7.4. 8.0.29-cu maddədə "və ixracı" sözləri ", ixracı və tranziti" sözləri ilə əvəz edilsin;

1.7.5. aşağıdakı məzmunda 8.0.31-1-ci maddə əlavə edilsin:

"8.0.31-1. səyyar gömrük auditinin nəticələri üzrə tərtib edilən aktın nüsxəsini və səyyar gömrük auditinin materiallarına baxılmanın nəticələri üzrə qəbul edilən qərarın surətini müvafiq olaraq akt tərtib edildiyi və qərar qəbul edildiyi tarixdən 3 (üç) iş günü ərzində barəsində gömrük auditi aparılan şəxsə (onun nümayəndəsinə) yazılı, o cümlədən elektron formada təqdim etmək;";

1.8. 9-cu maddə üzrə:

1.8.1. 9.0.5-ci maddədə "sərhədinin" sözü "sərhədindən" sözü ilə əvəz edilsin;

1.8.2. 9.0.6-cı maddə aşağıdakı redaksiyada verilsin:

"9.0.6. gömrük prosedurlarına nəzarəti həyata keçirmək, malların və nəqliyyat vasitələrinin buraxılışından sonra şəxslərin onlar barəsində sərəncam verilməsinə dair məhdudiyyətlərə, tələblərə və şərtlərə riayət etmək öhdəliklərini yerinə yetirməsini yoxlamaq, gömrük ərazisində yerləşən iki gömrük orqanı arasında daşınan malların və nəqliyyat vasitələrinin müəyyən olunmuş marşrut və müddətlərdə gömrük müşayiəti altında təyinatı üzrə çatdırılmasını təmin etmək, hüquqpozmaların operativ surətdə qarşısını almaq, bu Məcəllənin 19.2-ci maddəsi ilə müəyyən edilmiş qaydada əməliyyat-axtarış fəaliyyətini həyata keçirmək və digər məqsədlər üçün gömrük orqanlarında mobil gömrük bölmələri təşkil etmək;";

1.8.3. 9.0.10-cu maddədə "diplomatik, konsulluq və başqa nümayəndəliklərinə, beynəlxalq təşkilatlara" sözləri "Azərbaycan Respublikasındakı diplomatik nümayəndəliklərinə və konsulluqlarına, həmçinin beynəlxalq təşkilatlara və onların nümayəndəliklərinə" sözləri ilə əvəz edilsin;

1.8.4. aşağıdakı məzmunda 9.0.15-1-ci və 9.0.16-1-ci maddələr əlavə edilsin:

"9.0.15-1. xarici ticarət iştirakçısı gömrük borcunu ödəmək öhdəliyini bu Məcəllə ilə müəyyən edilmiş müddətdə yerinə yetirmədikdə hesablanmış gömrük ödənişləri, dəbbə pulu və faizlər üzrə gömrük borcunun ödənilməsinin təmin edilməsi məqsədilə xarici ticarət iştirakçısının ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması üçün məhkəməyə müraciət etmək;";

"9.0.16-1. bu Məcəllə ilə müəyyən edilmiş hallarda və qaydada mütəxəssisləri, ekspertləri, tərcüməçiləri və müşahidəçiləri müstəqillik və maraqların toqquşmasının qarşısının alınması tələbləri gözlənilməklə öz fəaliyyətinə cəlb etmək;";

1.9. 10.3-cü maddə aşağıdakı redaksiyada verilsin:

"10.3. Müvafiq icra hakimiyyəti orqanının Aparatının, onun strukturuna daxil olan gömrük orqanlarının və tabeliyində olan qurumların əmlakı dövlət mülkiyyətidir.";

1.10. 13.1-ci maddədə "sərhədinin" sözü "sərhədindən" sözü ilə əvəz edilsin;

1.11. 15.1-ci, 22-ci və 23-cü maddələr aşağıdakı redaksiyada verilsin:

"15.1. Gömrük nəzarətinin və rəsmiləşdirilməsinin öz ərazilərində və ya binalarında keçirilməsində maraqlı olan şəxslər həmin fəaliyyətin həyata keçirilməsi üçün lazımi xidmət və məişət otaqlarını, avadanlıq və rabitə vasitələrini gömrük orqanlarının müvəqqəti istifadəsinə verirlər.";

"Maddə 22. **Dolayı gömrük təmsilçiliyi**

22.1. Malların və nəqliyyat vasitələrinin gömrük ərazisinə gətirilməsi, bu ərazidən aparılması, yaxud tranziti ilə əlaqədar dolayı gömrük təmsilçiliyi hüquqi şəxslər tərəfindən həyata keçirilir.

22.2. Dolayı gömrük təmsilçiliyini həyata keçirən hüquqi şəxslə təmsil etdiyi şəxs arasında münasibətlər Azərbaycan Respublikasının mülki qanunvericiliyinə uyğun olaraq tərəflər arasında bağlanılmış müqavilə ilə tənzimlənir.

22.3. Gömrük nəzarəti və gömrük rəsmiləşdirilməsi həyata keçirilərkən, dolayı gömrük təmsilçisi malları gömrük sərhədindən müstəqil keçirən şəxsin bütün vəzifələrini yerinə yetirir və onun kimi məsuliyyət daşıyır.

22.4. Gömrük nəzarəti və gömrük rəsmiləşdirilməsi zamanı gömrük bəyannaməsi və digər gömrük sənədləri bəyannaməçi qismində dolayı gömrük təmsilçiliyini həyata keçirən hüquqi şəxs tərəfindən gömrük orqanına elektron formada təqdim olunur.

22.5. Müvafiq icra hakimiyyəti orqanı dolayı gömrük təmsilçiliyini həyata keçirən hüquqi şəxslərin reyestrini aparır, onların siyahısını nəşr edir, rəsmi internet informasiya ehtiyatında yerləşdirir və məlumatların daimi yenilənməsini təmin edir. Reyestrin aparılması üçün dolayı gömrük təmsilçisi tərəfindən hər hansı məlumatların təqdim edilməsi tələb olunmur.

22.6. Şəxs dolayı gömrük təmsilçisinin xidmətlərindən imtina edə bilər. Bu halda gömrük orqanının vəzifəli şəxsləri bəyannaməçiyə, mallar barədə səlahiyyəti olan digər şəxslərə gömrük bəyannaməsinin bu Məcəllənin 151-ci maddəsinə uyğun olaraq tərtib edilməsində, ona müvafiq düzəlişlər edilməsində və malların gömrük rəsmiləşdirilməsi üzrə digər əməliyyatların həyata keçirilməsində xidmət göstərməlidirlər.

Maddə 23. **Birbaşa gömrük təmsilçiliyi**

23.1. Gömrük orqanları ilə münasibətlərdə birbaşa gömrük təmsilçiliyi təmsil edilən şəxsin verdiyi etibarnamə əsasında fiziki şəxslər tərəfindən həyata keçirilir.

23.2. Etibarnamə hüquqi şəxs birbaşa təmsil edildikdə onun rəhbərinin və ya nizamnaməsi ilə buna vəkil edilmiş digər şəxsin imzası və həmin hüquqi şəxsin möhürü ilə, fiziki şəxs birbaşa təmsil edildikdə isə notariat qaydasında təsdiq edilir.

23.3. Gömrük nəzarəti və gömrük rəsmiləşdirilməsi zamanı birbaşa gömrük təmsilçisi malları gömrük sərhədindən müstəqil keçirən şəxsin bütün vəzifələrini yerinə yetirir və onun kimi məsuliyyət daşıyır.

23.4. Gömrük nəzarəti və gömrük rəsmiləşdirilməsi zamanı gömrük bəyannaməsi və digər gömrük sənədləri gömrük təmsilçiliyini birbaşa həyata keçirən şəxs tərəfindən təmsil edilən şəxsin adından gömrük orqanına elektron formada təqdim olunur.";

1.12. 24-cü maddə ləğv edilsin;

1.13. 25-ci maddə üzrə:

1.13.1. 25.1-ci maddədə "gömrük brokeri" sözləri "dolayı gömrük təmsilçiliyini həyata keçirən hüquqi şəxsin" sözləri ilə əvəz edilsin;

1.13.2. 25.2-ci maddədə "gömrük brokerinin adından yerinə yetirdikdə, onlar gömrük brokerini" sözləri "dolayı gömrük təmsilçiliyini həyata keçirən hüquqi şəxsin adından yerinə yetirdikdə, onu" sözləri ilə əvəz edilsin;

1.13.3. 25.3-cü maddədə "Gömrük brokeri" sözləri "Dolayı gömrük təmsilçiliyini həyata keçirən hüquqi şəxs" sözləri ilə əvəz edilsin;

1.13.4. aşağıdakı məzmunda 25.5-ci maddə əlavə edilsin:

"25.5. Müvafiq icra hakimiyyəti orqanı gömrük rəsmiləşdirilməsi üzrə mütəxəssislərin fəaliyyətini müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydalara uyğun olaraq qiymətləndirir və qiymətləndirmənin nəticələrinə əsasən ixtisas attestatının qüvvədəolma müddətini dayandırır, yaxud onu ləğv edir.";

1.14. 27-ci maddə aşağıdakı redaksiyada verilsin:

"Maddə 27. **İxtisas attestatının verilməsinə görə gömrük yığımı**

Gömrük rəsmiləşdirilməsi üzrə mütəxəssislərə ixtisas attestatının verilməsinə görə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi məbləğdə gömrük yığımı alınır.";

1.15. 28-ci maddə üzrə:

1.15.1. 28.1-ci maddə aşağıdakı redaksiyada verilsin:

"28.1. Malların və nəqliyyat vasitələrinin gömrük nəzarəti altında daşınmasını həyata keçirən hüquqi şəxslər və ya hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər gömrük daşıyıcısı ola bilərlər.";

1.15.2. aşağıdakı məzmunda 28.4-cü maddə əlavə edilsin:

"28.4. Müvafiq icra hakimiyyəti orqanı gömrük daşıyıcılarının siyahısını nəşr edir, rəsmi internet informasiya ehtiyatında yerləşdirir və məlumatların daimi yenilənməsini təmin edir.";

1.16. 29-cu və 30-cu maddələr ləğv edilsin;

1.17. 31-ci maddənin mətni aşağıdakı redaksiyada verilsin:

"31.1. Səlahiyyətli iqtisadi operator statusu malların təyinat yerinə təhlükəsiz qaydada çatdırılması və xarici ticarətin asanlaşdırılması məqsədilə gömrük nəzarətinin sadələşdirilmiş forma və üsullarından istifadə edilməsi üçün verilir.

31.2. Səlahiyyətli iqtisadi operator statusunun verilməsi haqqında qərarın qəbul edilməsi, yenidən rəsmiləşdirilməsi, dayandırılması, bərpası və ləğv edilməsi "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçirilir.

31.3. Müvafiq icra hakimiyyəti orqanı səlahiyyətli iqtisadi operatorların reyestrini aparır, onların siyahısını nəşr edir, rəsmi internet informasiya ehtiyatında yerləşdirir və məlumatların daimi yenilənməsini təmin edir.

31.4. Digər ölkələrin gömrük orqanları tərəfindən verilmiş səlahiyyətli iqtisadi operator statusu gömrük nəzarətinə xələl gətirməmək şərtilə beynəlxalq müqavilə əsasında tanınır.

31.5. Səlahiyyətli iqtisadi operator statusu almış şəxs fəaliyyəti dövründə bununla bağlı müəyyən edilmiş şərtlərə əməl olunmasına mane olan və fəaliyyətinə mənfi təsir göstərən amillər barədə gömrük orqanlarına məlumat verməlidir.

31.6. Səlahiyyətli iqtisadi operator statusunun verilməsinə dair şərtləri, onun fəaliyyətinin yoxlanılması və qiymətləndirilməsi qaydasını müvafiq icra hakimiyyəti orqanı müəyyən edir.";

1.18. 32-ci maddə ləğv edilsin;

1.19. 36.2-ci maddədən ", ondan istifadə və informasiyanın sənədləşdirilməsi" sözləri çıxarılsın;

1.20. aşağıdakı məzmunda 41.9-cu maddə əlavə edilsin:

"41.9. Fərdi məlumatların toplanılması, işlənilməsi və mühafizəsi ilə bağlı münasibətlər, milli informasiya məkanının fərdi məlumatlar bölümünün formalaşdırılması, habelə fərdi məlumatların transsərhəd ötürülməsi ilə əlaqədar məsələlər "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikasının Qanununa və beynəlxalq müqavilələrə uyğun olaraq tənzimlənir.";

1.21. 48-ci maddə üzrə:

1.21.1. 48.5-ci maddədə "şəxs (şəxslər) onu aldığı gündən" sözləri "ünvanlandığı və ya maraqlarına toxunduğu şəxsə yazılı, o cümlədən elektron formada rəsmi bildiriş göndərildiyi andan və yaxud bu barədə həmin şəxslərə məlum olduğu andan hüquqi" sözləri ilə əvəz edilsin;

1.21.2. 48.6-cı maddəyə "yazılı" sözündən sonra ", o cümlədən elektron" sözləri əlavə edilsin;

1.22. 52-ci maddə üzrə:

1.22.1. 52.2-ci maddə aşağıdakı redaksiyada verilsin:

"52.2. İnzibati şikayətlərin verilməsi, onlara baxılması qaydası və müddəti "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir.";

1.22.2. 52.3-cü və 52.5-ci maddələr ləğv edilsin;

1.22.3. 52.4-cü maddəyə "yazılı" sözündən sonra ", o cümlədən elektron" sözləri əlavə edilsin;

1.22.4. 52.6-cı maddədə "52.3-cü" sözləri "52.2-ci" sözləri ilə əvəz edilsin;

1.23. 53-cü maddə üzrə:

1.23.1. 53.2-ci maddəyə "ilk dəfə" sözlərindən sonra "xüsusi rütbə nəzərdə tutulan" sözləri əlavə edilsin;

1.23.2. 53.6-cı maddədə "strukturuna daxil olan digər" sözləri "tabeliyində olan" sözləri ilə əvəz edilsin;

1.24. 54.2-ci maddəyə aşağıdakı məzmunda ikinci və üçüncü cümlələr əlavə edilsin:

"Gömrük orqanlarının vəzifəli şəxslərinin əməyinin ödənilməsi, dövlət və sosial müdafiəsi müvafiq normativ hüquqi aktlarla tənzimlənir. Gömrük orqanlarının vəzifəli şəxslərinin maddi və sosial təminatı ilə bağlı əlavə haqların, kompensasiyaların, müavinətlərin və başqa ödənişlərin məbləğini və təyin edilmə qaydasını müvafiq icra hakimiyyəti orqanı müəyyən edir.";

1.25. 58.1.1-ci maddədə "qanunvericiliklə qadağan edilmiş" sözləri "normativ hüquqi aktlarla qadağan edilmiş, yaxud məhdudlaşdırılmış" sözləri ilə əvəz edilsin;

1.26. 63-cü maddə üzrə:

1.26.1. adında ", şəxslərin" sözü "şəxslərin və onlara məxsus baqajın" sözləri ilə əvəz edilsin;

1.26.2. 63.1-ci maddədə "şəxsin üzərində" sözləri "şəxslərin üzərində və onlara məxsus baqajda" sözləri ilə əvəz edilsin;

1.26.3. 63.2-ci maddədə "aparılan yoxlamadır" sözləri "aparılır" sözü ilə əvəz edilsin;

1.27. 64-cü maddə üzrə:

1.27.1. 64.3-cü maddədə "bədənində" sözü "daxili bədən boşluğunda" sözləri ilə əvəz edilsin;

1.27.2. 64.4-cü maddədə "bədən üzvləri" sözləri "daxili bədən boşluqları" sözləri ilə əvəz edilsin;

1.27.3. 64.8-ci maddədə "protokol" sözü "akt" sözü ilə əvəz edilsin;

1.27.4. 64.9-cu maddədə "Protokol" sözü "Akt" sözü ilə, "bədən üzvləri" sözləri "daxili bədən boşluqları" sözləri ilə əvəz edilsin;

1.28. 67-ci, 75-ci və 76-cı maddələr ləğv edilsin;

1.29. 82-ci maddə üzrə:

1.29.1. 82.5-ci maddənin birinci cümləsindən "(xüsusi razılıq)" sözləri çıxarılsın;

1.29.2. 82.6-cı maddədə "protokolun" sözü "aktın" sözü ilə əvəz edilsin;

1.30. 83-cü maddə üzrə:

1.30.1. 83.1.5-ci maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 83.1.6-cı maddə əlavə edilsin:

"83.1.6. gömrük ödənişləri üzrə güzəştlər verilərək şərti buraxılmış mallar bu Məcəllənin 163.4-cü maddəsində nəzərdə tutulmuş müddət başa çatanadək.";

1.30.2. aşağıdakı məzmunda 83.6-cı maddə əlavə edilsin:

"83.6. Aşağıdakı hallarda mallar daxili mal statusunu itirir:

83.6.1. daxili tranzit xüsusi gömrük proseduru altında yerləşdirilmədən gömrük ərazisindən aparıldıqda;

83.6.2. son istifadə xüsusi gömrük proseduru altında yerləşdirilmiş mallardan dövlət xeyrinə imtina edildikdə və ya həmin malların məhv edilməsi zamanı tullantılar və ya qalıqlar yarandıqda;

83.6.3. buraxılışdan sonra malların sərbəst dövriyyə üçün buraxılış gömrük proseduru altında yerləşdirilməsinə dair gömrük bəyannaməsi ləğv edildikdə.";

1.31. 84-cü maddə üzrə:

1.31.1. 84.3-cü maddəyə "keçən" sözündən sonra "Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin və vitse-prezidentlərinin," sözləri əlavə edilsin;

1.31.2. aşağıdakı məzmunda 84.3-1-ci maddə əlavə edilsin:

"84.3-1. Xarici dövlətlərin diplomatik nümayəndəliklərinin başçılarının, diplomatik heyətinin üzvlərinin və onlarla birlikdə yaşayan ailə üzvlərinin şəxsi baqajları gömrük baxışından azaddır.";

1.32. 90.2-ci maddə aşağıdakı redaksiyada verilsin:

"90.2. Gömrük orqanları və onların vəzifəli şəxsləri öz qanunsuz hərəkətləri (hərəkətsizliyi), habelə normativ hüquqi aktlara uyğun olmayan qərarın qəbul edilməsi nəticəsində fiziki və ya hüquqi şəxsə zərər vurduqda normativ hüquqi aktlarla müəyyən edilmiş qaydada vurulmuş zərərin əvəzinin ödənilməsini təmin etməlidirlər.";

1.33. 91-ci maddə üzrə:

1.33.1. 91.3.2-ci maddəyə "milli" sözündən sonra ", o cümlədən iqtisadi" sözləri əlavə edilsin;

1.33.2. 91.3.4-cü maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 91.3.5-ci maddə əlavə edilsin:

"91.3.5. mallar sürətli (ekspres) daşınma yolu ilə gömrük sərhədindən keçirildikdə.";

*Ardı 3-cü səh.*

# Azərbaycan Respublikasının Gömrük Məcəlləsində dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

*Əvvəli 2-ci səh.*

1.33.3. 91.4-cü maddəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Yoxlamanın nəticəsi barədə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi formada 2 (iki) nüsxədə akt tərtib olunur və aktın 1 (bir) nüsxəsi 2 (iki) iş günü ərzində bəyannaməçiyə, mal sahibinə, mallar və nəqliyyat vasitələri barəsində səlahiyyəti olan digər şəxslərə və ya onların nümayəndələrinə yazılı, o cümlədən elektron qaydada göndərilir (təqdim edilir).";

1.34. 92-ci maddə üzrə:

1.34.1. 92.1-ci və 92.2.1-ci maddələr aşağıdakı redaksiyada verilsin:

"92.1. Malların və nəqliyyat vasitələrinin gömrük ərazisinə daxil olması, bu ərazidən çıxması, tranziti, daşınması, emalı, saxlanılması və son istifadəsi zamanı gömrük orqanları müasir texnologiya və avadanlıqdan istifadə etməklə gömrük nəzarətini həyata keçirirlər.";

"92.2.1. gömrük yoxlaması;";

1.34.2. 92.2.3-cü maddədə "Azərbaycan Respublikasının dövlət sərhədinin" sözləri "dövlət sərhədindən" sözləri ilə əvəz edilsin;

1.34.3. aşağıdakı məzmunda 92.7-ci və 92.8-ci maddələr əlavə edilsin:

"92.7. Bu Məcəllənin 92.2-ci maddəsində nəzərdə tutulan gömrük nəzarətinin formaları Azərbaycan Respublikasının dövlət dilini bilməyən şəxslər barəsində tətbiq edildikdə gömrük orqanları həmin şəxslərin tərcüməçinin köməyindən istifadə etməsini, bu mümkün olmadıqda isə onlara ana dilində və ya bildikləri başqa dildə hüquq və vəzifələrinə dair müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş formada bildirişin təqdim olunmasını təmin edirlər.

92.8. Gömrük nəzarəti formalarının həyata keçirilməsi qaydasını müvafiq icra hakimiyyəti orqanı müəyyən edir. Bu qayda mütənasiblik, əsaslandırma, sənədləşdirmə, videoçəkiliş və şikayət təminatlarını nəzərdə tutmalıdır.";

1.35. aşağıdakı məzmunda 92-1-ci və 92-2-ci maddələr əlavə edilsin:

"Maddə 92-1. **Gömrük baxışı**

92-1.1. Gömrük baxışı nəqliyyat vasitəsinin və ya onun yük hissəsinin açılmadan, habeləmalların qablaşdırılması pozulmadan malların və nəqliyyat vasitələrinin, plomb və digər eyniləşdirmə vasitələrinin, fiziki şəxslərə məxsus malların aşağıdakı məqsədlərlə gömrük orqanının vəzifəli şəxsi tərəfindən xarici vizual müayinəsininhəyata keçirilməsindən ibarət gömrük nəzarəti formasıdır:

92-1.1.1. gömrük ərazisinə gətirilməsi və ya bu ərazidən aparılması qanunla qadağan edilmiş və ya məhdudlaşdırılmış mallara dair məlumatların yoxlanılması;

92-1.1.2. gömrük işinə dair normativ hüquqi aktların tələblərinin pozulması hallarının qarşısının alınması.

92-1.2. Gömrük baxışı gömrük nəzarəti zonalarında, malların və nəqliyyat vasitələrinin yerləşdiyi ərazi və binalarda keçirilir.

92-1.3. Gömrük baxışının səmərəliliyinin artırılması və həyata keçirilmə müddətinin azaldılması, gömrük sənədlərində göstərilən məlumatların eyniləşdirilməsi, nəqliyyat vasitələrində gizli saxlanc yerlərinin müəyyənləşdirilməsi və gömrük işi sahəsində hüquqpozmaların aşkarlanması məqsədilə texniki nəzarət vasitələrindən istifadə edilir.

Maddə 92-2. **Gömrük yoxlaması**

92-2.1. Gömrük yoxlaması nəqliyyat vasitəsinin və ya onun yük hissəsinin açılması, mallara, nəqliyyat vasitələrinə, müşayiət olunan və olunmayan baqajlara vurulmuş plomb və digər eyniləşdirmə vasitələrinin məhv edilməsi, müayinə olunan obyektlərin sökülməsi, hissələrə ayrılması və onların bütövlüyünün pozulması yolu ilə gömrük orqanının vəzifəli şəxsləri tərəfindən həyata keçirilən gömrük nəzarəti formasıdır.

92-2.2.Gömrük yoxlaması mallar və nəqliyyat vasitələri haqqında gömrük orqanı tərəfindən aşağıdakı məlumatların eyniləşdirilməsi məqsədilə həyata keçirilir:

92-2.2.1. risklərin idarə edilməsi sistemi vasitəsilə əldə edilmiş;

92-2.2.2. gömrük baxışı və ya gömrük əməliyyatlarının həyata keçirilməsi zamanı aşkarlanmış;

92-2.2.3. gömrük işi sahəsində hüquqpozmalar, həmçinin icrasına nəzarət gömrük orqanlarına həvalə edilmiş qanunvericiliyin və beynəlxalq müqavilələrin tələblərinin pozulması haqqında daxil olmuş.

92-2.3. Gömrük yoxlaması zamanı malların çəkisinin müəyyənləşdirilməsi, ölçülməsi, sayılması, nümunələrin götürülməsi, həmçinin gömrük ekspertizasının aparılması gömrük orqanlarının vəzifəli şəxsləri tərəfindən təmin edilir.

92-2.4. Poçt göndərişləri üzərində gömrük yoxlaması həyata keçirilərkən yazışmanın və poçt vasitəsilə ötürülən məlumatların məxfiliyi və tamlığı gömrük orqanlarının vəzifəli şəxsləri tərəfindən qorunur.

92-2.5. Dövlət sərhədindən buraxılış məntəqələrində gömrük yoxlaması şəxslər tərəfindən malların və nəqliyyat vasitələrinin gömrük sərhədindən keçirilməsi barədə gömrük orqanlarına məlumat verildikdən sonra həyata keçirilir.

92-2.6. Gömrük orqanlarının vəzifəli şəxsləri gömrük yoxlamasının aparılması üçün mümkün olan ən yaxın yeri təyin etmək və şəxslərdən malların və nəqliyyat vasitələrinin həmin yerə gətirilməsini tələb etmək hüququna malikdirlər.Belə hallarda yaranan bütün xərclər mal və nəqliyyat vasitəsinin sahibi, bəyannaməçi, mallar barəsində səlahiyyəti olan digər şəxslər və ya onların nümayəndələri tərəfindən ödənilir.

92-2.7. Gömrük yoxlaması zamanı müayinə olunan obyektlərin sökülməsi, hissələrə ayrılması və onların bütövlüyünün pozulması həmin obyektlərə ziyan vurmamaq şərtiləgömrük nəzarətinin üsul və vasitələrindən istifadə olunmaqla həyata keçirilir.

92-2.8. Normativ hüquqi aktların tələblərinin pozulduğu və ya pozula biləcəyi barədə əsaslar yarandıqda, gömrük orqanının vəzifəli şəxsləri tərəfindən təkrar gömrük yoxlaması yalnız ilkin yoxlamanın nəticələrinə dair əsaslı şübhələr olduqda və gömrük orqanının rəhbərinin əsaslandırılmış qərarı ilə həyata keçirilə bilər. Bu zaman təqdim olunmuş gömrük sənədlərində göstərilən məlumatlarla mallar və nəqliyyat vasitələri eyniləşdirilir.";

1.36. 93.1-ci maddə aşağıdakı redaksiyada verilsin:

"93.1. Gömrük sahələrində (dövlət sərhədindən buraxılış məntəqələrinə münasibətdə sərhədkeçmə rejiminə uyğun olaraq), gömrük rəsmiləşdirilməsi yerlərində, gömrük postlarında, sərbəst zonalarda, müvəqqəti saxlanc və gömrük anbarlarında, digər saxlanc və malların yükləmə-boşaltma yerlərində, gömrük orqanlarının müəyyən etdiyi malların daşınmasını həyata keçirən nəqliyyat vasitələrinin dayanacağında, gömrük orqanlarının olduğu digər yerlərdə və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi digər yerlərdə müvafiq icra hakimiyyəti orqanı tərəfindən gömrük nəzarəti zonaları yaradılır və rejim müəyyən edilir.";

1.37. 94.3-cü maddədə "gömrük brokerlərinin" sözləri "dolayı gömrük təmsilçilərinin" sözləri ilə əvəz edilsin;

1.38. 95.4-cü maddədə "Məlumatlar" sözü "Sənəd və məlumatlar" sözləri ilə əvəz edilsin;

1.39. 97-ci maddə üzrə:

1.39.1. adına "üçün" sözündən sonra "tərcüməçilərin," sözü əlavə edilsin;

1.39.2. 97.1-ci maddəyə "şəxslərin" sözündən sonra "tərcüməçilərin," sözü əlavə edilsin;

1.39.3. 97.4-cü maddəyə "edilən" sözündən sonra "tərcüməçilər," sözü əlavə edilsin;

1.40. 98-ci maddənin mətni aşağıdakı redaksiyada verilsin:

"98.1. Gömrük auditi gömrük orqanları tərəfindən malların və nəqliyyat vasitələrinin buraxılışından, o cümlədən şərti buraxılışından sonra gömrük bəyannamələrində göstərilən məlumatların düzgünlüyünə əmin olmaq, eləcə də şəxsin mallar və nəqliyyat vasitələri barəsində sərəncam verilməsinə dair məhdudiyyətlərə, tələblərə və şərtlərə riayət etmək öhdəliklərini yerinə yetirməsinin vəziyyətini müəyyənləşdirmək məqsədilə həyata keçirilən gömrük nəzarəti formasıdır. Bunun üçün gömrük orqanları idxalatçının, ixracatçının, mal sahibinin, bəyannaməçinin, mallar barəsində səlahiyyəti olan digər şəxslərin və ya onların nümayəndələrinin həmin mallar və nəqliyyat vasitələri ilə əlaqədar gömrük əməliyyatlarına və beynəlxalq ticarət sövdələşmələrinə dair gömrük sənədlərini və məlumatları yoxlayırlar.

98.2. Gömrük auditi kameral və səyyar qaydada həyata keçirilir. Gömrük auditinin aparılması qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir. Səyyar gömrük auditi sahibkarlıq sahəsində aparılan yoxlamaların vahid məlumat reyestrində qeydiyyata alındıqdan sonra aparılır.

98.3. Gömrük və vergi orqanları əldə etdikləri məlumatları normativ hüquqi aktlarla müəyyən edilmiş qaydada mübadilə edə, müştərək formada səyyar gömrük auditi (yoxlama) apara bilərlər. Səyyar gömrük auditinin keçirilməsinə yalnız gömrük orqanlarının əsaslandırılmış rəyi əlavə olunmaqla müvafiq sorğusu əsasında vergi orqanları tərəfindən müştərək səyyar auditin (yoxlamanın) keçirilməsindən imtina edildikdə yol verilir. Vergi orqanı həmin sorğuya ən geci15 (on beş) iş günü ərzində münasibət bildirməlidir.";

1.41. aşağıdakı məzmunda 98-1 - 98-7-ci maddələr əlavə edilsin:

"Maddə 98-1. **Kameral gömrük auditi**

98-1.1. Kameral gömrük auditi gömrük bəyannamələrində mövcud olan məlumatların xarici ticarət fəaliyyəti ilə bağlı kommersiya, maliyyə və nəqliyyat sənədləri və əldə olunmuş digər sənədlər əsasında araşdırılması və təhlili yolu ilə aparılır.

98-1.2. Kameral gömrük auditi bu barədə qərar qəbul edilmədən və barəsində kameral gömrük auditi aparılan şəxsə məxsus yerlərə getmədən malların buraxılışından sonrakı 60 (altmış) iş günündən artıq olmayan müddətdə aparılır. Eyni gömrük bəyannaməsi üzrə kameral gömrük auditi yenidən aparıla bilməz.

98-1.3. Kameral gömrük auditinin müddəti gömrük orqanı tərəfindən zəruri sənədlərin və məlumatların əldə olunması məqsədilə göndərilən beynəlxalq sorğulara bağlı 30 (otuz) iş gününədək uzadıla bilər.

98-1.4. Kameral gömrük auditi başa çatdıqdan sonra gömrük orqanı gömrük bəyannaməsində və ona əlavə edilmiş sənədlərdə təhrif olunmuş, düzgün olmayan və ya natamam məlumat aşkar edildikdə, xarici ticarət iştirakçısına əlavə məlumat, sənəd və izahat təqdim edilməsi barədə 5 (beş) iş günü müddətində bildiriş göndərir. Tələb olunan əlavə məlumat, sənəd və izahatlar 10 (on) iş günü müddətində gömrük orqanına təqdim edilməlidir.

98-1.5. Təqdim olunmuş əlavə sənəd və məlumatlara gömrük orqanı tərəfindən 10 (on) iş günü müddətində baxılır və gömrük bəyannaməsində uyğunsuzluq aşkar edildikdə 5 (beş) iş günü müddətində bu barədə xarici ticarət iştirakçısına qərar göndərilir. Tələb olunan sənəd və məlumatlar üzrlü səbəblər olmadan təqdim edilmədikdə əlaqəli məlumatlara əsasən gömrük orqanları bu Məcəllənin və gömrük işi üzrə digər normativ hüquqi aktlarda nəzərdə tutulmuş qaydada gömrük ödənişlərini hesablamaq və şəxsə bu barədə qərar göndərmək hüququna malikdir. Gömrük orqanının qərarında [illegible] və barəsində kameral gömrük auditi aparılan şəxsin şikayət etmək hüququ göstərilməlidir.

98-1.6. Kameral gömrük auditinin nəticələrindən asılı olaraq plandankənar (növbədənkənar) səyyar gömrük auditi həyata keçirilə bilər.

Maddə 98-2. **Səyyar gömrük auditi**

98-2.1. Səyyar gömrük auditi planlı (növbəti) və plandankənar (növbədənkənar) olmaqla gömrük orqanının qərarı əsasında idxalatçının, ixracatçının, mal sahibinin, bəyannaməçinin, mallar barəsində səlahiyyəti olan digər şəxslərin və ya onların nümayəndələrinin müvafiq tikililərində, ərazilərində, binalarında və onların istifadəsində olan digər yerlərdə həyata keçirilir.

98-2.2. Səyyar gömrük auditi gömrük bəyannaməsində qeyd olunan mallar gömrük nəzarəti altında olarkən və ya gömrük nəzarəti altında olan mallar statusunu itirməsindən sonrakı 3 (üç) il ərzində gömrük orqanının qərarı əsasında həyata keçirilir.

98-2.3. Gömrük orqanının səyyar gömrük auditinin aparılması barədə qərarının surəti, auditin sahibkarlıq sahəsində aparılan yoxlamaların vahid məlumat reyestrində qeydiyyata alınması barədə çıxarış və auditi aparan vəzifəli şəxsin xidməti vəsiqəsi audit keçirilməmişdən əvvəl barəsində səyyar gömrük auditi aparılacaq şəxsə təqdim olunmalıdır.

98-2.4. Səyyar gömrük auditi 20 (iyirmi) iş günü müddətində aparılır. Əlavə araşdırma tələb olunduqda gömrük orqanının əsaslandırılmış qərarı ilə səyyar gömrük auditinin aparılması müddəti 30 (otuz) iş gününədək artırıla bilər.

98-2.5. Planlı (növbəti) səyyar gömrük auditi bir şəxs barədə təqvim ili ərzində bir dəfədən çox olmayaraq keçirilir. Planlı (növbəti) səyyar gömrük auditinin başlanmasına azı 15 (on beş) iş günü qalmış yazılı bildiriş barəsində gömrük auditi aparılan şəxsə göndərilir. Bildirişdə səyyar gömrük auditinin əsası, tarixi, yoxlama suallarının siyahısı, şəxsin və gömrük orqanlarının hüquq və vəzifələri göstərilməlidir.

98-2.6. Plandankənar (növbədənkənar) səyyar gömrük auditi aşağıdakı hallarda keçirilir:

98-2.6.1. risklərin idarə edilməsi sistemi tərəfindən seçilmiş nəzarət forması tələb etdikdə;

98-2.6.2. gömrük orqanının əldə etdiyi əlaqəli məlumatlarda şəxs tərəfindən malların gömrük dəyərinin azaldılması, xarici iqtisadi fəaliyyətin mal nomenklaturası üzrə kodunun düzgün bəyan olunmaması və (və ya) müvafiq gömrük prosedurunun tələblərinin pozulması müəyyən edildikdə;

98-2.6.3. cinayət prosessual qanunvericiliyinə uyğun olaraq məhkəmənin və ya hüquq-mühafizə orqanlarının səyyar gömrük auditinin aparılması barədə müvafiq qərarı olduqda;

98-2.6.4. barəsində səyyar gömrük auditi aparılan şəxs səyyar gömrük auditinin nəticələri ilə razılaşmayaraq plandankənar səyyar gömrük auditinin aparılmasını yazılı şəkildə tələb etdikdə (bu halda plandankənar səyyar gömrük auditi gömrük orqanının əvvəlki yoxlamanı aparmış vəzifəli şəxsləri tərəfindən aparıla bilməz);

98-2.6.5. bu Məcəllənin 98-1.6-cı maddəsində nəzərdə tutulmuş halda.

98-2.7. Səyyar gömrük auditi iş günü və barəsində gömrük auditi aparılan şəxsin iş vaxtı ərzində aparılır.

98-2.8. Səyyar gömrük auditi aparılarkən cinayət və ya inzibati hüquqpozma əlamətləri aşkar olunarsa, həmin auditin nəticəsinə dair akt tərtib olunduqdan sonra hüquqpozma əlaməti barədə məlumatlar müvafiq tədbirlər görülməsi üçün aidiyyəti üzrə göndərilir və gömrük orqanları tərəfindən inzibati, yaxud cinayət-prosessual qanunvericiliyə uyğun olaraq müvafiq tədbirlər həyata keçirilir.

98-2.9. Planlı (növbəti) və ya plandankənar (növbədənkənar) səyyar gömrük auditi gömrük orqanının qərarına əsasən aşağıda göstərilən hallarda və müddətlərdə, lakin 4 (dörd) aydan çox olmamaqla dayandırılır (təxirə salınır):

98-2.9.1. aparılan səyyar gömrük auditi zamanı şəxs qeydiyyatda olduğu ünvanlarda olmadıqda və ya şəxsin olduğu yerin müəyyən edilməsi və digər səbəblərdən tapılması mümkün olmadıqda - həmin şəxsin olduğu yer müəyyən olunana qədər;

98-2.9.2. aparılan səyyar gömrük auditi zamanı şəxs onun sərəncamında və istifadəsində olan ərazi və ya binalara gömrük orqanının vəzifəli şəxslərinin daxil olmasına icazə vermədikdə - bu Məcəllənin 98-3.1-ci maddəsinə əsasən məhkəmə qərarı alınanadək;

98-2.9.3. səyyar gömrük auditi aparılan hüquqi şəxsin rəhbəri (onu əvəz edən şəxs və ya gömrük və (və ya) maliyyə məsələləri üzrə məsul şəxs) və ya hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxs müvəqqəti olaraq əmək qabiliyyətini itirdikdə - əmək qabiliyyəti bərpa olunanadək;

98-2.9.4. gömrük orqanının təşəbbüsü ilə mütəxəssis dəvət edildikdə və ya malların ekspertizası aparıldıqda mütəxəssisin və ya ekspertin rəyi təqdim edilənədək;

98-2.9.5. səyyar gömrük auditi üçün zəruri olan sənədlər və məlumatlarla əlaqədar - gömrük orqanı tərəfindən göndərilən sorğulara cavab alınanadək.

Maddə 98-3. **Səyyar gömrük auditinin keçirilməsi zamanı şəxsin sərəncamında və istifadəsində olan ərazi və ya binalara gömrük orqanlarının vəzifəli şəxslərinin daxil olması**

98-3.1. Səyyar gömrük auditi zamanı gömrük orqanının vəzifəli şəxsləri, barəsində gömrük auditi aparılan şəxsin sərəncamında və istifadəsində olan ərazi və ya binalara (yaşayış binaları (sahələri) istisna olmaqla) gömrük orqanının səyyar gömrük auditinin keçirilməsi haqqında qərarın surətini, sahibkarlıq sahəsində aparılan yoxlamaların vahid məlumat reyestrində qeydiyyata alınması barədə çıxarışı və auditi aparan vəzifəli şəxsin xidməti vəsiqəsini, bu Məcəllənin 98-2.9.2-ci maddəsində nəzərdə tutulmuş halda həmçinin məhkəmə qərarının surətini təqdim etdikdən sonra daxil ola, həmin yerlərdə şəxsin xarici ticarət fəaliyyəti ilə bağlı mövcud olan mallara və sənədlərə baxış keçirə bilərlər. Baxışın keçirilməsi barəsində 2 (iki) nüsxədə akt tərtib edilir.

98-3.2. Barəsində gömrük auditi aparılan şəxs sərəncamında və istifadəsində olan ərazi və ya binalara gömrük orqanının vəzifəli şəxslərinin daxil olmasına icazə vermədikdə 2 (iki) nüsxədə akt tərtib edilir. Həmin akt gömrük orqanının gömrük auditini aparan vəzifəli şəxsləri və barəsində gömrük auditi aparılan hüquqi şəxsin rəhbəri (onu əvəz edən şəxs) və ya hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxs tərəfindən imzalanır. Şəxs aktı imzalamaqdan imtina etdikdə, bu barədə aktda müvafiq qeyd aparılır və aktın bir nüsxəsi şəxsə (onun səlahiyyətli nümayəndəsinə) təqdim edilir.

98-3.3. Səyyar gömrük auditi zamanı gömrük orqanının vəzifəli şəxslərinin, barəsində gömrük auditi aparılan şəxsin sərəncamında və istifadəsində olan ərazi və ya binalara (yaşayış binaları (sahələri) istisna olmaqla) daxil olmasına icazə verilməməsi gömrük qanunvericiliyinin pozulması hesab olunur və qanunla müəyyən edilmiş qaydada məsuliyyətə səbəb olur.

Maddə 98-4. **Səyyar gömrük auditi zamanı sənədlərin tələb edilməsi**

98-4.1. Gömrük orqanının vəzifəli şəxsləri, barəsində səyyar gömrük auditi aparılan şəxsdən bildirişlə birlikdə gömrük auditi üçün zəruri olan auditin predmetinə və yoxlama dövrünə aid sənədləri (məlumatları), o cümlədən elektron sənədləri tələb edə bilərlər. Sənədlərin (məlumatların), o cümlədən elektron sənədlərin verilməsi barəsində tələb yönəldilən şəxs həmin sənədləri 15 (on beş) iş günü ərzində gömrük orqanına təqdim etməlidir. Üzrlü səbəblər olduqda şəxsin əsaslandırılmış müraciəti ilə bu müddət 10 (on) iş günündək uzadıla bilər.

98-4.2. Tələb olunan sənədlər (məlumatlar), o cümlədən elektron sənədlər bu Məcəllənin 98-4.1-ci maddəsində nəzərdə tutulmuş müddətdə təqdim edilmədikdə, yaxud şəxs həmin sənədlərin (məlumatların), o cümlədən elektron sənədlərin onda olmadığını bildirdikdə, gömrük orqanının gömrük auditini aparan vəzifəli şəxsi tərəfindən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi formada 2 (iki) nüsxədə akt tərtib edilir və tərtib edildiyi gün bir nüsxəsi şəxsə verilir (və ya elektron qaydada göndərilir). Akt gömrük orqanının gömrük auditini aparan vəzifəli şəxsləri və barəsində gömrük auditi aparılan hüquqi şəxsin rəhbəri (onu əvəz edən şəxs) və ya hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxs tərəfindən imzalanır. Barəsində gömrük auditi aparılan şəxs aktı imzalamaqdan imtina etdikdə bu barədə aktda müvafiq qeydlər aparılır. Gömrük orqanı tələb edilən sənədləri (məlumatları), o cümlədən elektron sənədləri normativ hüquqi aktlarla yol verilən mənbələrdən əldə edə bilmədikdə gömrük ödənişlərinin məbləği mötəbər və yoxlanıla bilən məlumatlara əsasən, tətbiq olunan metod və hesablamanın əsaslandırılması göstərilməklə müəyyən edilir.

98-4.3. Gömrük auditi üçün zəruri olan sənədlərin (məlumatların) və ya onların təsdiq olunmuş surətinin, o cümlədən elektron sənədlərin gömrük orqanına verilməsindən imtina edilməsi və ya bu Məcəllənin 98-4.1-ci maddəsində nəzərdə tutulmuş müddətdə təqdim edilməməsi qanunla müəyyən edilmiş qaydada məsuliyyətə səbəb olur.

98-4.4. Tələb olunan sənədlərin (məlumatların) və ya onların təsdiq olunmuş surətinin, o cümlədən elektron sənədlərin təqdim edilməsindən imtina edildikdə onların, habelə mal nümunələrinin götürülməsi yalnız bu Məcəllənin 98-5-ci maddəsində nəzərdə tutulan prosedur və təminatlar əsasında həyata keçirilə bilər.

Maddə 98-5. **Səyyar gömrük auditi zamanı sənədlərin və mal nümunələrinin götürülməsi**

98-5.1. Səyyar gömrük auditinin predmetinə aid olan və gömrük ödənişlərinin hesablanması üçün şəxs tərəfindən təqdim edilən sənədlərin və malların öyrənilməsinə əlavə vaxt tələb olunduqda, həmçinin sənədlərdə bu Məcəllənin və gömrük işi üzrə digər normativ hüquqi aktların pozulması halları müəyyən edildikdə gömrük orqanının gömrük auditini həyata keçirən vəzifəli şəxsi həmin sənədləri (onların təsdiq olunmuş surətini) və nümunə kimi malları şəxsin və ya onun nümayəndəsinin iştirakı ilə iş vaxtı ərzində və gömrük auditinin həyata keçirildiyi müddətə götürə bilər. Gömrük orqanının gömrük auditini bilavasitə həyata keçirən vəzifəli şəxsi tərəfindən sənədlərin və nümunə kimi malların götürülməsi gömrük orqanının rəhbərinin əsaslandırılmış qərarı ilə həyata keçirilir.

98-5.2. Səyyar gömrük auditi zamanı zəruri olan sənədlər və mal nümunələri gömrük orqanının əsaslandırılmış qərarı ilə bu Məcəllənin 98-2.4-cü və 98-2.9-cu maddələrində göstərilən hallar istisna olmaqla 20 (iyirmi) iş günündən artıq olmayan müddətə aşağıdakı məqsədlər üçün götürülür:

98-5.2.1. malların tərkibinin və texniki göstəricilərinin, xarici iqtisadi fəaliyyətin mal nomenklaturası üzrə kodunun, növünün, mənşəyinin və digər göstəricilərinin yoxlanılması;

98-5.2.2. malların alış və ya satış qiymətlərinin müəyyənləşdirilməsi;

98-5.2.3. gömrük qanunvericiliyinin pozulması hallarının sübut edilməsi məqsədilə zəruri olan digər halların müəyyən edilməsi.

98-5.3. Səyyar gömrük auditi zamanı götürülən mal nümunələri xüsusiyyətlərindən asılı olaraq qablaşdırılır və gömrük auditini aparan şəxs tərəfindən həmin qablaşdırma möhürlənir. Onların saxlanılması, qorunması və tədqiq edilməsi gömrük orqanının hesabına həyata keçirilir. Malların məhkəmənin qanuni qüvvəyə minmiş qərarına əsasən müsadirə ediləcəyi, gömrük ödənişlərinin həmin mallara yönəldiləcəyi, yaxud sənədlərin və malların maddi sübut olması halları istisna olmaqla, götürülmüş sənədlər və mal nümunələri gömrük auditinin başa çatdığı gündən gec olmayaraq, istifadəyə yararlı vəziyyətdə və tam şəkildə sahibinə qaytarılır.

98-5.4. Sənədlərin və ya onların təsdiq olunmuş surətinin və mal nümunələrinin götürülməsi barədə 2 (iki) nüsxədə müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş formada akt tərtib olunur və onun 1 (bir) nüsxəsi şəxsə təqdim edilir. Həmin akt gömrük auditinin aparılmasında iştirak edən şəxslər və barəsində gömrük auditi aparılan hüquqi şəxsin rəhbəri (onu əvəz edən şəxs) və ya hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxs tərəfindən imzalanır. Barəsində gömrük auditi aparılan şəxs aktı imzalamaqdan imtina etdikdə, bu barədə aktda müvafiq qeydlər aparılır.

98-5.5. Səyyar gömrük auditi zamanı şəxs sənədləri və ya onların təsdiq olunmuş surətini və mal nümunələrini verməkdən imtina etdikdə müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş formada 2 (iki) nüsxədə imtina aktı tərtib olunur və onun 1 (bir) nüsxəsi şəxsə təqdim edilir. Həmin akt gömrük auditinin aparılmasında iştirak edən şəxslər və barəsində gömrük auditi aparılan hüquqi şəxsin rəhbəri (onu əvəz edən şəxs) və ya hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər tərəfindən imzalanır. Barəsində gömrük auditi aparılan şəxs aktı imzalamaqdan imtina etdikdə bu barədə aktda müvafiq qeydlər aparılır. Bu halda həmin sənədlərin və mal nümunələrinin götürülməsi gömrük orqanının əsaslandırılmış müraciətinə əsasən məhkəmənin qərarı ilə həyata keçirilir.

Maddə 98-6. **Səyyar gömrük auditinin nəticələrinin rəsmiləşdirilməsi**

98-6.1. Səyyar gömrük auditinin nəticələrinə dair 2 (iki) nüsxədə akt tərtib edilir. Həmin akt gömrük orqanının gömrük auditini aparan vəzifəli şəxsləri və barəsində gömrük auditi aparılan hüquqi şəxsin rəhbəri (onu əvəz edən şəxs) və ya hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxs tərəfindən imzalanır. Şəxs aktı imzalamaqdan imtina etdikdə, bu barədə aktda müvafiq qeyd aparılır. Aktın bir nüsxəsi tərtib edildiyi tarixdən 3 (üç) iş günü müddətində şəxsə (onun səlahiyyətli nümayəndəsinə) verilir və ya göndərilir.

98-6.2. Aktın nüsxəsinin verildiyi (göndərildiyi) vaxtdan 30 (otuz) gün müddətində şəxs aktı imzalamamasının səbəblərini gömrük orqanına izah edə, yaxud akta və ya onun ayrı-ayrı hissələrinə öz etirazını yazılı şəkildə bildirə bilər.

98-6.3. Bu Məcəllənin 98-6.2-ci maddəsində müəyyən edilən müddət bitdikdən sonra 10 (on) gündən çox olmayan müddətdə gömrük orqanı, barəsində səyyar gömrük auditi aparılan şəxsdən bu Məcəllə ilə müəyyən edilmiş qaydada götürülmüş, həmin şəxs tərəfindən təqdim edilmiş sənədlərə və səyyar gömrük auditinin nəticələrinə dair akta, gömrük qanunvericiliyinin pozulması hallarına və onların aradan qaldırılması məsələsinə baxır.

98-6.4. Barəsində səyyar gömrük auditi aparılan şəxs tərəfindən səyyar gömrük auditinin nəticələrinə dair akt üzrə yazılı izahat və ya etiraz təqdim edildikdə materiallara hüquqi şəxsin rəhbəri və ya hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxsin və (və ya) onların nümayəndələrinin iştirakı ilə baxılır. Gömrük orqanı səyyar gömrük auditinin nəticələrinə dair materiallara baxılmasının yeri və vaxtı barəsində əvvəlcədən məlumat verir. Şəxs ona əvvəlcədən məlumat verilməsinə baxmayaraq üzrlü səbəb olmadan iştirak etmədikdə, səyyar gömrük auditinin nəticələrinə dair materiallara, habelə təqdim etdiyi izahatlara, etirazlara və digər sənədlərə onun iştirakı olmadan baxılır.

Maddə 98-7. **Səyyar gömrük auditinin nəticələri üzrə qərarın çıxarılması**

98-7.1. Səyyar gömrük auditinin nəticələrinə dair materiallara 10 (on) gün müddətində baxılaraq aşağıdakı qərarlardan biri qəbul edilir:

98-7.1.1. şəxsin gömrük qanunvericiliyinin pozulmasına görə məsuliyyətə cəlb edilməsi;

98.7.1.2. şəxsin gömrük qanunvericiliyinin pozulmasına görə məsuliyyətə cəlb edilməsindən imtina olunması;

98-7.1.3. səyyar gömrük auditi üzrə əlavə tədbirlərin keçirilməsi;

98-7.1.4. əvvəlki səyyar gömrük auditinin nəticəsi üzrə qəbul edilmiş qərarın qüvvədə saxlanılması;

98-7.1.5. əvvəlki səyyar gömrük auditinin nəticəsi üzrə qəbul edilmiş qərarın tam və ya qismən ləğv edilməsi və ya qərara dəyişiklik edilməsi;

98-7.1.6. yeni qərarın qəbul edilməsi.

98-7.2. Şəxsin gömrük qanunvericiliyinin pozulmasına görə məsuliyyətə cəlb edilməsi haqqında qəbul edilmiş qərarda səyyar gömrük auditi zamanı aşkarlanmış pozuntular, bu faktı təsdiq edən sənəd və məlumatlar, şəxsin özünün müdafiəsi üçün gətirdiyi dəlillər və bu dəlillərin yoxlanılmasının nəticələri, məsuliyyət tədbirlərini nəzərdə tutan normativ hüquqi aktın adı və müvafiq struktur elementləri göstərilməlidir.

98-7.3. Səyyar gömrük auditinin nəticələrindən asılı olaraq çıxarılmış qərar əsasında 10 (on) gündən gec olmayaraq aşkar edilmiş pozuntuların aradan qaldırılması barədə müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş formada tələbnamə göndərilir.

98-7.4. Səyyar gömrük auditinin nəticələrinə dair qəbul edilmiş qərarın surəti və tələbnamə şəxsə və ya onun nümayəndəsinə "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq təqdim edilir.

98-7.5. Gömrük orqanının vəzifəli şəxsləri tərəfindən bu maddənin tələblərinin pozulması gömrük orqanının qərarının inzibati və məhkəmə qaydasında ləğv edilməsi üçün əsasdır.";

1.42. 99-cu maddə üzrə:

1.42.1. adında "protokola" sözü "akta" sözü ilə əvəz edilsin;

1.42.2. 99.1-ci maddə üzrə:

1.42.2.1. birinci cümlədə "protokollar" sözü "aktlar" sözü ilə əvəz edilsin;

1.42.2.2. ikinci cümlədə "Protokollar" sözü "Aktlar" sözü ilə əvəz edilsin;

1.42.2.3. üçüncü cümlədə "Protokolların" sözü "Aktların" sözü ilə əvəz edilsin;

1.42.3. 99.2-ci maddə üzrə:

1.42.3.1. birinci abzasda "Protokolda" sözü "Aktda" sözü ilə əvəz edilsin;

1.42.3.2. 99.2.1-ci maddədə "protokolun" sözü "aktın" sözü ilə əvəz edilsin;

1.42.3.3. 99.2.4-cü maddədə "protokolu" sözü "aktı" sözü ilə əvəz edilsin;

1.42.4. 99.3-cü maddənin birinci abzasında və 99.4-cü maddənin dördüncü cümləsində "protokolda" sözü "aktda" sözü ilə əvəz edilsin;

1.42.5. 99.5-ci maddədə "protokola" sözü "akta" sözü ilə əvəz edilsin;

1.42.6. 99.6-cı maddə üzrə:

1.42.6.1. birinci və ikinci cümlələrdə "Protokol" sözü "Akt" sözü ilə əvəz edilsin;

1.42.6.2. üçüncü cümlədə "protokolu" sözü "aktı" sözü ilə, "protokolda" sözü "aktda" sözü ilə əvəz edilsin;

1.42.7. 99.7-ci maddə üzrə:

1.42.7.1. birinci cümlədə "protokolun" sözü "aktın" sözü ilə, "protokolu" sözü "aktı" sözü ilə əvəz edilsin;

1.42.7.2. ikinci cümlədə "protokola" sözü "akta" sözü ilə əvəz edilsin;

1.42.8. 99.8-ci maddədə "protokolun" sözü "aktın" sözü ilə əvəz edilsin;

1.43. 101.4-cü maddə üzrə:

1.43.1. birinci cümlədə "məqsədi ilə gömrük orqanları arasında risklərin idarə edilməsi üzrə razılaşma sistemi yaradılır" sözləri "məqsədilə risklərin idarəedilməsi sistemi yaradılır və avtomatlaşdırılır" sözləri ilə əvəz edilsin;

1.43.2. ikinci cümlədə "razılaşma sistemi" sözləri "sistem" sözü ilə əvəz edilsin;

1.44. 106.1-ci maddə aşağıdakı redaksiyada verilsin:

"106.1. Gömrük rəsmiləşdirilməsi bu Məcəllənin 106.4-cü maddəsinin tələbləri nəzərə alınmaqla idxalatçı və ya ixracatçının, yaxud onların struktur bölmələrinin yerləşdiyi ərazi üzrə gömrük orqanlarının fəaliyyət zonasında, yaxud bəyannaməçinin seçimi və gömrük orqanlarının razılığı ilə digər yerlərdə aparılır.";

1.45. 108-ci maddənin adında və 108.3-cü maddədə "əməliyyatlar" sözü "gömrük əməliyyatları" sözləri ilə əvəz edilsin;

1.46. 111-ci maddə aşağıdakı redaksiyada verilsin:

"Maddə 111. **Gömrük nəzarəti və gömrük rəsmiləşdirilməsinin güzəştli və sadələşdirilmiş qaydası**

111.1. Gömrük nəzarəti zamanı gömrük orqanları aşağıdakı sadələşdirilmiş gömrük əməliyyatlarını tətbiq edirlər:

111.1.1. mallar və nəqliyyat vasitələri üzərində gömrük nəzarətinin formalarının növbədənkənar aparılması;

111.1.2. xarici ticarət iştirakçılarının nəqliyyat vasitələrinə tətbiq etdiyi eyniləşdirmə vasitələrinin gömrük orqanları tərəfindən tanınması;

111.1.3. gömrük orqanlarının tətbiq etdiyi eyniləşdirmə vasitələrinin gömrük orqanlarının vəzifəli şəxslərinin iştirakı olmadan xarici ticarət iştirakçıları tərəfindən götürülməsi;

111.1.4. gömrük nəzarəti altında olan malların gömrük orqanlarının vəzifəli şəxslərinin iştirakı olmadan nəqliyyat vasitələrindən boşaldılması və nəqliyyat vasitələrinə yüklənməsi;

111.1.5. gömrük nəzarəti altında olan malların daşınması üçün gömrük orqanları tərəfindən marşrutun müəyyən edilməməsi;

111.1.6. malların və nəqliyyat vasitələrinin müvəqqəti saxlancının onların sahibinin istifadəsində olan anbarlarda həyata keçirilməsi;

111.1.7. idxal olunan malların birbaşa şəxsin istifadəsində olan anbara aparılması;

111.1.8. ixrac olunan mallara və nəqliyyat vasitələrinə dair gömrük bəyannaməsini elektron qaydada gömrük orqanlarına təqdim etməklə, malların bəyan edildiyi dövlət sərhədindən buraxılış məntəqəsinə birbaşa göndərilməsi.

111.2. Gömrük rəsmiləşdirilməsi zamanı gömrük orqanları aşağıdakı sadələşdirilmiş gömrük əməliyyatlarını tətbiq edirlər:

111.2.1. gömrük ərazisinə gətirilən və ya bu ərazidən aparılan malların buraxılışının növbədənkənar və dərhal təmin edilməsi;

111.2.2. gömrük borcunun ödənilməsinin təmin edilməsi üçün bu Məcəllənin 258.1-ci maddəsində nəzərdə tutulmuş təminat üsullarının gömrük orqanları tərəfindən tələb olunmaması;

111.2.3. gömrük ərazisinə gətirilmiş malların qısa idxal bəyannaməsi əsasında buraxılışına icazə verilməsi;

111.2.4. gömrük rəsmiləşdirilməsinə dair bütün gömrük əməliyyatlarının Ticarətin Asanlaşdırılması Mərkəzlərində prioritet qaydada həyata keçirilməsi;

111.2.5. malların sadələşdirilmiş bəyannamə əsasında bəyan olunması.

111.3. Döyüş təyinatlı hərbi silah-sursatın, müdafiə və milli təhlükəsizlik ehtiyacları üçün satın alınan malların, canlı heyvanların, tez xarab olan malların, radioaktiv maddələrin, media (audiovizual, çap, onlayn media, informasiya agentlikləri) məqsədləri üçün materialların, Azərbaycan Respublikasının qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının, Azərbaycan Respublikası Mərkəzi Bankının ünvanlarına göndərilən və bu qəbildən olan başqa malların gömrük rəsmiləşdirilməsi sadələşdirilmiş qaydada, pandemiya, yoluxucu xəstəliklər, təbii fəlakətlər, digər fövqəladə hallar və sosial xarakterli fövqəladə mühit zamanı zəruri olan malların və nəqliyyat vasitələrinin gömrük rəsmiləşdirilməsi isə güzəştli və sadələşdirilmiş qaydada həyata keçirilir.

*Ardı 4-cü səh.*

# Azərbaycan Respublikasının Gömrük Məcəlləsində dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

*Əvvəli 3-cü səh.*

111.4. Bu Məcəllənin 111.3-cü maddəsində nəzərdə tutulmuş malların gömrük nəzarəti və gömrük rəsmiləşdirilməsinin güzəştli və sadələşdirilmiş qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunur.";

1.47. 112.3-cü maddədə ", qadağa və məhdudiyyətlər, həmçinin" sözləri "və" sözü ilə əvəz edilsin;

1.48. 114.3-cü maddədə "malları gömrük ərazisinə gətirən və ya daşınmasına cavabdeh olan şəxslər, onların nümayəndələri" sözləri "daşıyıcı" sözü ilə əvəz edilsin;

1.49. 115-ci maddə üzrə:

1.49.1. adına "edilməsi" sözündən sonra "və onun ləğvi" sözləri əlavə edilsin;

1.49.2. aşağıdakı məzmunda 115.3-cü maddə əlavə edilsin:

"115.3. Qısa idxal bəyannaməsi bəyannaməçinin müraciəti olduqda, habelə bəyan edilmiş mallar 200 (iki yüz) gün ərzində gömrük ərazisinə gətirilmədikdə gömrük orqanı tərəfindən ləğv edilir.";

1.50. 116-cı maddə üzrə:

1.50.1. adına "bəyannaməsi" sözündən sonra "və ilkin məlumatlar" sözləri əlavə edilsin;

1.50.2. aşağıdakı məzmunda 116.3-cü maddə əlavə edilsin:

"116.3. Beynəlxalq müqavilələr çərçivəsində həyata keçirilən beynəlxalq daşımalar zamanı elektron informasiya sistemləri vasitəsilə mallar və nəqliyyat vasitələri barədə əvvəlcədən təqdim edilən ilkin məlumatlar, həmin məlumatların tamlığından asılı olaraq qısa idxal bəyannaməsi kimi qəbul edilir.";

1.51. 118-ci maddə üzrə:

1.51.1. 118.3.2-ci maddə aşağıdakı redaksiyada verilsin:

"118.3.2. Azərbaycan Respublikası Silahlı Qüvvələrində və hərbi xidmət nəzərdə tutulmuş digər dövlət orqanlarının (onların strukturuna daxil olan qurumların) hərbi qulluqçularının və mülki işçilərinin, hərbi yüklərin daşınması üçün istifadə edilən hərbi hava gəmiləri və digər hərbi nəqliyyat vasitələri;";

1.51.2. 118.3.4-cü maddədə "ölkələrin Azərbaycan Respublikasındakı diplomatik və konsulluq" sözləri "dövlətlərin Azərbaycan Respublikasındakı diplomatik nümayəndəliklərinə və konsulluqlarına, həmçinin beynəlxalq təşkilatlara və onların" sözləri ilə əvəz edilsin;

1.52. 119.1-ci maddə aşağıdakı redaksiyada verilsin:

"119.1. Gömrük ərazisinə gətirilən malların daşınmasına cavabdeh olan şəxs həmin malları gömrük orqanının müəyyən etdiyi marşrutla və müddətdə təyinat və ya gömrük rəsmiləşdirilməsinin həyata keçiriləcəyi gömrük orqanına, yaxud gömrük orqanları ilə razılaşdırılmış digər yerə çatdırır.";

1.53. 121-ci maddənin mətni və 124-cü maddə aşağıdakı redaksiyada verilsin:

"121.1. Mallar gömrük ərazisinə, gömrük orqanları ilə razılaşdırılmış digər yerə gətirildikdən dərhal sonra aşağıdakı şəxslərdən biri tərəfindən gömrük orqanlarına məlumat verilir:

121.1.1. malları gömrük ərazisinə gətirmiş şəxs;

121.1.2. malları gömrük ərazisinə gətirmiş şəxsin adından çıxış edən şəxs;

121.1.3. mallar gömrük ərazisinə gətirildikdən sonra onların daşınmasına görə məsul olan şəxs;

121.1.4. malları dərhal müvafiq gömrük proseduru altında yerləşdirən şəxs;

121.1.5. saxlanc yerlərinin sahibi və ya sərbəst zonada fəaliyyət göstərən şəxs.

121.2. Gömrük ərazisinə gətirilmiş mallar barədə gömrük orqanlarına məlumat verildiyi andan etibarən həmin mallar 1 (bir) saatdan gec olmayaraq, gömrük orqanının iş vaxtından kənar vaxtda gətirildikdə isə iş vaxtı başlandıqdan sonra 1 (bir) saatdan gec olmayaraq gömrük orqanlarına təqdim edilir.

121.3. Malları gömrük orqanlarına təqdim edən şəxs həmin mallara dair bu Məcəllənin 113.1-ci maddəsində nəzərdə tutulan qısa idxal bəyannaməsinə, 116-cı maddəsində nəzərdə tutulan gömrük bəyannaməsinə və ya ilkin məlumatlara istinad edir.

121.4. Mallar gömrük orqanına təqdim edildikdən sonra mallar barəsində səlahiyyəti olan şəxslər və ya onların nümayəndələri malları müvafiq gömrük proseduru altında yerləşdirmək üçün gömrük orqanlarının icazəsi və iştirakı ilə onlardan prob və nümunələr götürmək hüququna malikdirlər.

121.5. Mallar təyinat yerinə gömrük orqanının iş vaxtından kənar vaxtda gətirildikdə onlar gömrük nəzarəti zonasında saxlanılır.

121.6. Bu Məcəllədə nəzərdə tutulan hallar istisna olmaqla, gömrük nəzarəti zonasında saxlanılan malların ilkin yerlərinin dəyişdirilməsi, nəqliyyat vasitələrindən boşaldılması, yaxud onlara yenidən yüklənməsi, qablaşdırmaların açılması və yenidən qablaşdırılması, eyniləşdirmə vasitələrinin (əlamətlərinin, nişanlarının) götürülməsi, dəyişdirilməsi, sərnişinlərin düşürülməsi kimi gömrük əməliyyatları yalnız gömrük orqanlarının icazəsi və iştirakı ilə aparılır.

121.7. Bu Məcəllənin 108.3-cü maddəsi nəzərə alınmaqla şəxsin əvvəlcədən edilmiş müraciəti və gömrük orqanlarının icazəsi ilə mallar gömrük yoxlamasına həmin şəxsin məqsədəmüvafiq hesab etdiyi digər yerlərdə də təqdim olunur.

121.8. Hava və ya dəniz gəmisinin kapitanı və ya onu əvəz edən şəxs gömrük ərazisinə daxil olduğu zaman gömrük orqanına məlumat verir və gömrük sənədlərini təqdim edir.

121.9. Gömrük orqanlarına təqdim olunan mallar gömrük orqanlarının icazəsi olmadan təqdim edildiyi yerdən çıxarıla bilməz.

121.10. Malların gömrük orqanlarına təqdim edilməsi ilə əlaqədar daşıyıcının çəkdiyi xərclər gömrük orqanları tərəfindən ödənilmir.";

"Maddə 124. **Malların müvəqqəti saxlanca yerləşdirilməsi**

124.1. Gömrük ərazisinə gətirilmiş mallar dərhal digər gömrük proseduru altında yerləşdirilmədikdə, gömrük orqanlarına təqdim edildiyi andan müvəqqəti saxlanca yerləşdirilmiş hesab edilir.

124.2. Malların müvəqqəti saxlanca yerləşdirilməsi qaydalarını müvafiq icra hakimiyyəti orqanı müəyyən edir.";

1.54. aşağıdakı məzmunda 124-1 - 124-3-cü maddələr əlavə edilsin:

"Maddə 124-1. **Müvəqqəti saxlanc bəyannaməsi**

124-1.1. Gömrük orqanlarına təqdim olunan xarici mallar müvəqqəti saxlanca müvəqqəti saxlanc bəyannaməsi əsasında yerləşdirilir.

124-1.2. Siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş sənədlər müvəqqəti saxlanc bəyannaməsi ilə birgə təqdim edilir.

124-1.3. Müvəqqəti saxlanc bəyannaməsi bu Məcəllənin 121.1-ci maddəsində nəzərdə tutulan şəxslərdən biri tərəfindən mallarla birlikdə gömrük orqanına təqdim edilir.

124-1.4. Müvəqqəti saxlancın tətbiqi üçünzəruri olan məlumatları özündə əks etdirən qısa idxal bəyannaməsi və ya onu əvəz edən nəqliyyat sənədləri, həmin məlumatların tamlığından asılı olaraq müvəqqəti saxlanc bəyannaməsi kimi qəbul edilir.

124-1.5. Bu Məcəllənin 157 - 161-ci maddələri müvəqqəti saxlanc bəyannaməsinə tətbiq edilir.

124-1.6. Müvəqqəti saxlanc bəyannaməsindən aşağıdakı hallarda istifadə edilir:

124-1.6.1. barəsində məcburi qərar qəbul edilmiş malların gömrük ərazisinə gətirilməsinin təsdiq edilməsi zamanı;

124-1.6.2. bu Məcəllənin 121-ci maddəsinə uyğun olaraq malların gömrük orqanlarına təqdim edilməsi zamanı;

124-1.6.3. müvəqqəti saxlancda yerləşdirilmiş malların digər gömrük proseduru altında yerləşdirilməsi və ya bu Məcəllənin 128-ci maddəsinə uyğun olaraq təkrar ixrac edilməsi zamanı.

124-1.7. Tranzit xüsusi gömrük proseduru altında daşınan xarici malların müvəqqəti saxlancda yerləşdirilməsi üçün gömrük orqanları tərəfindən müvəqqəti saxlanc bəyannaməsi kimi tranzit sənədi qəbul edilir. Tranzit xüsusi gömrük proseduru başa çatdıqdan sonra müvəqqəti saxlanc bəyannaməsi verilir.

124-1.8. Bu Məcəllənin 124-1.9-cu maddəsində nəzərdə tutulmuş hallar istisna olmaqla, bəyannaməçinin müraciəti əsasında gömrük orqanlarına təqdim edilmiş müvəqqəti saxlanc bəyannaməsində düzəlişlər edilməsinə icazə verilir. Müvəqqəti saxlanc bəyannaməsində edilən düzəlişlər əvvəlcədən onun əhatə etmədiyi mallara tətbiq oluna bilməz.

124-1.9. Aşağıdakı hallarda gömrük orqanlarına təqdim olunmuş müvəqqəti saxlanc bəyannaməsində düzəlişlər edilməsinə icazə verilmir:

124-1.9.1. gömrük orqanları bəyannaməçiyə malları yoxlamaq niyyətində olduğunu bildirdikdən sonra;

124-1.9.2. gömrük orqanları müvəqqəti saxlanc bəyannaməsindəki məlumatların düzgün olmadığını müəyyənləşdirdikdən sonra.

124-1.10. Müvəqqəti saxlanc bəyannaməsi bəyannaməçinin müraciəti olduqda, habelə bəyan edilmiş mallar 1 (bir) ay ərzində gömrük orqanlarına təqdim edilmədikdə gömrük orqanı tərəfindən ləğv edilir.

Maddə 124-2. **Malların müvəqqəti saxlanca yerləşdirilməsinə dair şərtlər və öhdəliklər**

124-2.1. Xarici malların müvəqqəti saxlancı idxal gömrük rüsumları, idxal üzrə əlavə dəyər vergisi və aksizlər alınmadan, ticarət siyasəti tədbirləri tətbiq olunmadan bu Məcəllənin 124-2.9-cu maddəsinə uyğun olaraq müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi tələblərə cavab verən müvəqqəti saxlanc anbarlarında, habelə gömrük orqanları ilə razılaşdırılmış digər saxlanc yerlərində və gömrük nəzarəti altında həyata keçirilir. Gömrük orqanları ilə razılaşdırılmış digər saxlanc yerləri saxlanc anbarlarına dair tələblərə cavab verməlidir.

124-2.2. Gömrük orqanları mal sahibindən yarana biləcək gömrük borcuna görə təminat tələb etmək hüququna malikdirlər.

124-2.3. Müvəqqəti saxlancda yerləşdirilən malların mövcud vəziyyətdə qalmasını təmin etmək üçün onlar adi işləmə formalarına məruz qala bilərlər. Belə hallarda malların xarici görünüşünün və texniki göstəricilərinindəyişdirilməsinə yol verilmir.

124-2.4. Müvəqqəti saxlanc anbarlarının və saxlanc yerlərinin sahibi aşağıdakılara görə cavabdehdir:

124-2.4.1. müvəqqəti saxlancda yerləşdirilmiş malların gömrük nəzarətindən yayındırılmasına;

124-2.4.2. malların saxlancından irəli gələn öhdəliklərinin yerinə yetirilməsinə.

124-2.5. Malları müvəqqəti saxlanc anbarında saxlamaq mümkün olmadıqda, müvəqqəti saxlancda qalma müddəti başa çatanadək başqa gömrük proseduru altında yerləşdirilmək üçün bəyan edilmədikdə və ya təkrar ixrac olunmadıqda həmin mallar barəsində bu Məcəllənin 57-ci fəslində müəyyən edilmiş qaydada sərəncam verilir.

124-2.6. Gömrük orqanları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada daxili mallarınmüvəqqəti saxlanc anbarında saxlanılmasına icazə verir.

124-2.7. Gömrük orqanlarının razılığı ilə müvəqqəti saxlancda olan mallar gömrük nəzarəti altında müxtəlif müvəqqəti saxlanc anbarları arasında daşınır.

124-2.8. Müvafiq icra hakimiyyəti orqanı müvəqqəti saxlanc anbarlarının, o cümlədən gömrük orqanları ilə razılaşdırılmış digər saxlanc yerlərinin siyahısını nəşr edir, rəsmi internet informasiya ehtiyatında yerləşdirir və məlumatların daimi yenilənməsini təmin edir.

124-2.9. Müvəqqəti saxlanc anbarlarının tiplərinə, quruluşuna, təchizatına, orada yerləşdirilən mallarla əlaqədar əməliyyatlara, uçot və hesabatın aparılmasına, gömrük nəzarətinin həyata keçirilməsinə, anbar sahibinə dair tələbləri müvafiq icra hakimiyyəti orqanı müəyyən edir.

Maddə 124-3. **Malların müvəqqəti saxlancda qalma müddəti**

124-3.1. Müvafiq icra hakimiyyəti orqanı tərəfindən ayrı-ayrı malların xassələrindən və xüsusiyyətlərindən asılı olaraq daha qısa müddət müəyyən edildiyi hallar istisna olmaqla, malların müvəqqəti saxlancda qalma müddəti 4 (dörd) aydan çox olmamalıdır.

124-3.2. Malların müvəqqəti saxlancda qalma müddəti onların və istifadə olunan nəqliyyat vasitəsinin xüsusiyyətləri və gömrük bəyannaməsinin təqdim olunması üçün lazım olan vaxt nəzərə alınmaqla gömrük orqanı tərəfindən müəyyən edilir. Müvəqqəti saxlanc bəyannaməsini təqdim etmiş şəxsin əsaslandırılmış müraciəti olduqda, gömrük orqanı həmin müddəti bu Məcəllənin 124-3.1-ci maddəsində göstərilən müddət çərçivəsində uzadır.

124-3.3. Mallar müvəqqəti saxlancda qalma müddəti başa çatanadək başqa gömrük proseduru altında yerləşdirilmək üçün bəyan edilməli və ya təkrar ixrac olunmalıdır.";

1.55. 125.5-ci maddədə ikinci halda "və ya" sözləri ", o cümlədən" sözləri ilə əvəz edilsin;

1.56. 128-ci maddə üzrə:

1.56.1. 128.1-ci maddə aşağıdakı redaksiyada verilsin:

"128.1. Təkrar ixrac olunan xarici mallar gömrük ərazisindən aparıldıqda, malların ixrac rəsmiləşdirilməsini həyata keçirmək üçün şəxs tərəfindən səlahiyyətli gömrük orqanına gömrük bəyannaməsi verilir.";

1.56.2. 128.2.3-cü maddədən ", müvəqqəti saxlanc xüsusi gömrük proseduru altında yerləşdirilmiş" sözləri çıxarılsın;

1.57. 129-cu maddə üzrə:

1.57.1. adında "bəyannaməsi və ona düzəlişlərin edilməsi" sözləri "bəyannaməsinin təqdim edilməsi, ona düzəlişlərin edilməsi və ləğvi" sözləri ilə əvəz edilsin;

1.57.2. aşağıdakı məzmunda 129.8-ci maddə əlavə edilsin:

"129.8. Qısa ixrac bəyannaməsi bəyannaməçinin müraciətinə əsasən, habelə bəyan edilmiş mallar 150 (yüz əlli) gün ərzində gömrük ərazisindən aparılmadıqda gömrük orqanı tərəfindən ləğv edilir.";

1.58. aşağıdakı məzmunda 129-1-ci maddə əlavə edilsin:

"Maddə 129-1. **Təkrar ixrac bildirişi**

129-1.1. Bu Məcəllənin 128.2.2-ci və 128.2.3-cü maddələrində göstərilən xarici mallar gömrük ərazisindən aparılarkən gömrük orqanlarına elektron formada təkrar ixrac bildirişi təqdim edilir.

129-1.2. Təkrar ixrac bildirişi sərbəst zona xüsusi gömrük prosedurunu və ya müvəqqəti saxlancı başa çatdırmaq üçün zəruri olan məlumatları özündə əks etdirir.

129-1.3. Təkrar ixrac bildirişi aşağıdakı şəxslərdən biri tərəfindən gömrük orqanına təqdim edilir:

129-1.3.1. malları gömrük ərazisindən aparan və ya onun daşınmasına görə cavabdeh olan şəxs;

129-1.3.2. malları təkrar ixrac edən və ya göndərən, yaxud bu Məcəllənin 129-1.3.1-ci maddəsində qeyd olunan şəxsin adından çıxış edən digər şəxs;

129-1.3.3. malları səlahiyyətli gömrük orqanına təqdim edən və ya təqdim etməli olan istənilən şəxs.

129-1.4. Bu Məcəllənin 129-1.5-ci maddəsində göstərilən hallar istisna olmaqla, təkrar ixrac bildirişi təqdim edildikdən sonra onu təqdim edən şəxsin müraciəti əsasında həmin bildirişdə düzəlişlərin edilməsinə gömrük orqanları tərəfindən icazə verilir.

129-1.5. Aşağıdakı hallarda təkrar ixrac bildirişində düzəlişlər edilə bilməz:

129-1.5.1. gömrük orqanları təkrar ixrac bildirişini təqdim etmiş şəxsə malları yoxlamaq niyyəti barədə məlumat verdikdən sonra;

129-1.5.2. gömrük orqanları təkrar ixrac bildirişindəki məlumatların düzgün olmadığını və ya natamam olduğunu müəyyənləşdirdikdən sonra;

129-1.5.3. gömrük orqanları tərəfindən malların aparılmasına icazə verildikdən sonra.

129-1.6. Təkrar ixrac bildirişi bəyannaməçinin müraciəti olduqda, habelə bəyan edilmiş mallar 150 (yüz əlli) gün ərzində gömrük ərazisindən aparılmadıqda gömrük orqanları tərəfindən ləğv edilir.

129-1.7. Təkrar ixrac olunan malların və nəqliyyat vasitələrinin eyniləşdirilməsi və təkrar ixrac gömrük proseduru altında yerləşdirilməsi mümkün olmadıqda, həmin mallar gömrük ödənişləri ödənilməklə sərbəst dövriyyə üçün buraxılış gömrük proseduru altında yerləşdirilir, yaxud onlardan dövlətin xeyrinə imtina olunur və ya məhv edilir.

129-1.8. Təkrar ixrac bildirişinin forması və təqdim edilməsi qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunur.";

1.59. 131.1.6-cı maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 131.1.7-ci maddə əlavə edilsin:

"131.1.7. nəqliyyat vasitəsinin qeydiyyat şəhadətnaməsində əks olunanlar.";

1.60. 146.2-ci maddə ləğv edilsin;

1.61. 148.1-ci maddədə "keçirən" sözü "keçirilən" sözü ilə, "gömrük brokeri" sözləri "dolayı gömrük təmsilçisi" sözləri ilə əvəz edilsin;

1.62. 149-cu maddə üzrə:

1.62.1.149.3-cü maddə aşağıdakı redaksiyada verilsin:

"149.3. Gömrük ərazisinə gətirilən mallara dair gömrük bəyannaməsi 15 (on beş) iş günündən gec olmayaraq müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada gömrük orqanına təqdim edilməlidir.";

1.62.2. 149.4-cü maddə üzrə:

1.62.2.1. birinci cümlədə "göstərilən" sözü "nəzərdə tutulan" sözləri ilə əvəz edilsin;

1.62.2.2. ikinci cümlədə "saxlanc xüsusi gömrük proseduru altında" sözləri "saxlancda" sözü ilə əvəz edilsin;

1.63. 150-ci maddə üzrə:

1.63.1. 150.4-cü maddəyə aşağıdakı məzmunda ikinci və üçüncü cümlələr əlavə edilsin:

"Tələb olunan sənədlərin və məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda, həmin sənədlər və məlumatlar bəyannaməçidən tələb edilmir. Belə sənədlərin və məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda, onların təqdim edilməsi bəyannaməçinin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya bəyannaməçi tərəfindən təmin edilir.";

1.63.2. 150.5-ci maddənin birinci cümləsində "Ayrı-ayrı" sözləri "Malların gömrük sərhədindən keçirilməsi üçün "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanunu ilə tələb olunan lisenziya və icazələr istisna olmaqla, digər" sözləri ilə əvəz edilsin;

1.63.3. aşağıdakı məzmunda 150.6-cı maddə əlavə edilsin:

"150.6. Gömrük bəyannaməsinin doldurulması qaydasını müvafiq icra hakimiyyəti orqanı müəyyən edir.";

1.64. aşağıdakı məzmunda 154.6-cı maddə əlavə edilsin:

"154.6. Gömrük orqanlarının elektron informasiya sistemində olan gömrük bəyannaməsi aşağıdakı hərəkətlər 1 (bir) ay ərzində həyata keçirilmədikdə gömrük orqanı tərəfindən ləğv edilir:

154.6.1. bəyan edilmiş mallar gömrük ərazisinə gətirilmədikdə və ya bu ərazidən aparılmadıqda;

154.6.2. düzəliş edilməsi üçün bəyannaməçiyə geri qaytarılmış gömrük bəyannaməsi düzəlişlər edilərək yenidən gömrük orqanına təqdim edilmədikdə;

154.6.3. gömrük orqanına təqdim edilmiş gömrük bəyannaməsi elektron formada bəyannaməçi tərəfindən təsdiq edilmədikdə.";

1.65. 161-ci maddə üzrə:

1.65.1. 161.1-ci və 161.3-cü maddələrə "operatorlar" sözündən sonra "və "Yaşıl dəhliz" buraxılış sisteminin daimi istifadəçiləri" sözləri əlavə edilsin;

1.65.2. aşağıdakı məzmunda 161.5-ci maddə əlavə edilsin:

"161.5. Səlahiyyətli iqtisadi operatorların və "Yaşıl dəhliz" buraxılış sisteminin daimi istifadəçilərinin istifadə etdikləri plomblar və ya digər eyniləşdirmə vasitələri müqayisə oluna bilən fiziki təhlükəsizlik dərəcəsinə, şəxslərin müəyyənləşdirilməsinə imkan verən müvafiq rəqəmli kodlara və işarələrə malik olmalıdır.";

1.66. 162.1-ci maddəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Qida və yem məhsulları, habelə qida məhsulları ilə təmasda olan material və məmulatlar, onların üzərində sərəncam vermək hüququ əldə etmək üçün "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq qida təhlükəsizliyi sahəsində dövlət nəzarəti tədbirlərinə cəlb olunurlar.";

1.67. 163.4-cü maddə üzrə:

1.67.1. birinci cümlə aşağıdakı redaksiyada verilsin:

"Gömrük ödənişləri üzrə güzəştlər verilərək şərti buraxılmış mallar həmin güzəştlərin verilməsi məqsədlərinə uyğun istifadə olunmaqla gömrük rəsmiləşdirilməsi həyata keçirildikdən sonra 5 (beş) il müddətində gömrük nəzarəti altında qalır.";

1.67.2. ikinci cümləyə "mallardan" sözündən sonra "həmin müddət ərzində" sözləri əlavə edilsin;

1.68. 166-cı maddə üzrə:

1.68.1. 166.0.2-ci maddədə "(müvəqqəti saxlanc və gömrük anbarlarında saxlanc)" sözləri "(gömrük anbarı və sərbəst zona)" sözləri ilə əvəz edilsin;

1.68.2. 166.0.3-cü maddə ləğv edilsin;

1.68.3. 166.0.5-ci maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 166.0.6-cı maddə əlavə edilsin:

"166.0.6. rüsumsuz ticarət.";

1.69. 167-ci maddə üzrə:

1.69.1. adından "və lisenziyaların" sözləri çıxarılsın;

1.69.2. 167.2-ci maddə aşağıdakı redaksiyada verilsin:

"167.2. Malların saxlancı gömrük orqanının icazəsi ilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi tələblərə cavab verən anbarlarda və gömrük orqanları ilə razılaşdırılmış digər saxlanc yerlərində həyata keçirilir.";

1.69.3. 167.3-cü maddədən "və 167.2-ci" və "və lisenziya" sözləri çıxarılsın;

1.69.4. 167.3-1-ci maddədə "xüsusi proseduru" sözləri "və son istifadə xüsusi gömrük prosedurları" sözləri ilə əvəz edilsin;

1.69.5. 167.3.3-cü maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 167.3.4-cü və 167.3.5-ci maddələr əlavə edilsin:

"167.3.4. səlahiyyətli iqtisadi operatorlara;

167.3.5. "Yaşıl dəhliz" buraxılış sistemindən daimi istifadə hüququnu əldə edənlərə.";

1.69.6. 167.4.1-ci maddəyə "keçirmək" sözündən sonra "və malları eyniləşdirmək" sözləri əlavə edilsin;

1.69.7. 167.4.2-ci maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 167.4.3 - 167.4.5-ci maddələr əlavə edilsin:

"167.4.3. xüsusi gömrük proseduruna dair tələblər yerinə yetirildikdə;

167.4.4. müraciət edilən tarixdən əvvəlki 3 (üç) il ərzində gömrük orqanları tərəfindən şəxsə verilmiş icazə ləğv edilmədikdə;

167.4.5. eyni növ gömrük əməliyyatı və mallara dair verilmiş icazə müddətinin uzadılması ilə bağlı müraciət istisna olmaqla, iqtisadi şəraitin təhlili tələb olunmadıqda.";

1.70. 168.1-ci maddəyə "əməliyyatlarının" sözündən sonra "yazılı, o cümlədən elektron formada" sözləri əlavə edilsin;

1.71. 169-cu maddə üzrə:

1.71.1. 169.1-ci maddədə "və bu Məcəllənin 195-ci maddəsində" sözləri ", bu Məcəllənin 195-ci və 199-cu maddələrində" sözləri ilə əvəz edilsin;

1.71.2. 169.2-ci maddədə "başa çatır" sözləri "gömrük orqanları tərəfindən başa çatdırılır" sözləri ilə əvəz edilsin;

1.72. 172-ci maddədən "onların qorunması, xarici görünüşünün və keyfiyyətinin yaxşılaşdırılması, satış və daşınma üçün hazırlanması məqsədi ilə" sözləri çıxarılsın;

1.73. 173-cü maddə üzrə:

1.73.1. 173.4-cü maddə aşağıdakı redaksiyada verilsin:

"173.4. Gömrük orqanları gömrük prosedurunun, o cümlədən gömrük nəzarətinin düzgün həyata keçirilməsini təmin etmək şərtilə şəxsin müraciəti əsasında aşağıdakılara icazə verirlər:

173.4.1. saxlanc, xüsusi istifadə və emal xüsusi gömrük prosedurlarında ekvivalent mallardan istifadə edilməsinə;

173.4.2. daxildə emal xüsusi gömrük proseduru zamanı ekvivalent mallardan əldə olunmuş emal məhsullarının əvəz edilmiş malların idxalından əvvəl ixrac edilməsinə;

173.4.3. xaricdə emal xüsusi gömrük proseduru zamanı ekvivalent mallardan əldə edilmiş emal məhsullarının əvəz edilmiş malların ixracından əvvəl idxal edilməsinə.";

1.73.2. aşağıdakı məzmunda 173.4-1-ci maddə əlavə edilsin:

"173.4-1. Aşağıdakı hallarda ekvivalent mallardan istifadəyə icazə verilmir:

173.4-1.1. daxildə emal xüsusi gömrük proseduru altında yerləşdirilmiş mallarla adi işləmə formaları həyata keçirildikdə;

173.4-1.2. əsassız olaraq gömrük rüsumlarından və vergilərdən azad olunma məqsədləri aşkar edildikdə.";

1.74. 174-cü maddə üzrə:

1.74.1. 174.1-ci maddədə "bir yerdən başqa yerə" sözləri "gömrük ərazisinin bir yerindən başqa yerinə" sözləri ilə əvəz edilsin;

1.74.2. 174.2-ci maddə aşağıdakı redaksiyada verilsin:

"174.2. Bu Məcəllənin 174.1-ci maddəsində qeyd edilən daşınma aşağıda göstərilənlər əsasında həyata keçirilir:

174.2.1. beynəlxalq tranzit xüsusi gömrük proseduru;

174.2.2. malların daşınmasının gömrük ərazisindən kənarda başlaması və yaxud başa çatması, o cümlədən malların daşınmasının gömrük ərazisinin iki məntəqəsi arasında gömrük ərazisindən kənar ərazidən keçməklə baş verməsi şərtilə beynəlxalq tranzit üzrə beynəlxalq müqavilələr;

174.2.3. mallar Ümumdünya Poçt İttifaqının Aktları əsasında hüquqlara malik olan və öhdəliklər daşıyan subyektlər (poçt rabitəsi operatorları) tərəfindən və ya onlar üçün beynəlxalq poçt göndərişlərinin daşınmasında vasitəçilik edən şəxslər tərəfindən daşındığı halda, bu aktlara müvafiq olaraq beynəlxalq poçt göndərişlərinin mübadiləsi sistemi.";

1.74.3. 174.3-cü maddə ləğv edilsin;

1.74.4. 174.4-cü maddə aşağıdakı redaksiyada verilsin:

"174.4. Malların beynəlxalq tranzit xüsusi gömrük proseduru altında yerləşdirilərək daşınması qaydalarını müvafiq icra hakimiyyəti orqanı müəyyən edir.";

1.74.5. 174.6-cı maddə ləğv edilsin;

1.75. 175-ci maddənin mətni aşağıdakı redaksiyada verilsin:

"175.1. Daxili tranzit xüsusi gömrük proseduru daxili malların statusunu dəyişmədən gömrüknəzarəti altında gömrük ərazisinin bir yerindən başqa yerinə (o cümlədən xarici ölkənin ərazisindən keçməklə) daşınmasıdır.

175.2. Bu Məcəllənin 175.1-ci maddəsində qeyd edilən daşınma aşağıdakılar əsasında həyata keçirilir:

175.2.1. beynəlxalq müqavilələrdə nəzərdə tutulduqda daxili tranzit xüsusi gömrük proseduru;

175.2.2. beynəlxalq gömrük tranziti üzrə beynəlxalq müqavilələr;

175.2.3. mallar Ümumdünya Poçt İttifaqının Aktları əsasında hüquqlara malik olan və öhdəliklər daşıyan subyektlər (poçt rabitəsi operatorları) tərəfindən və ya onlar üçün poçt göndərişlərinin daşınmasında vasitəçilik edən şəxslər tərəfindən daşındığı halda, bu aktlara müvafiq olaraq poçt göndərişlərinin mübadiləsi sistemi.

175.3. Malların daxili tranzit xüsusi gömrük prosedurları altında yerləşdirilərək daşınması qaydalarını müvafiq icra hakimiyyəti orqanı müəyyən edir.";

1.76. aşağıdakı məzmunda 175-1-ci maddə əlavə edilsin:

"Maddə 175-1. **Tranzit xüsusi gömrük proseduru üzrə öhdəliklər**

175-1.1. Tranzit xüsusi gömrük prosedurunun sahibi aşağıdakılara görə məsuliyyət daşıyır:

175-1.1.1. hər hansı başqa dəyişikliyə məruz qalmadan malları, mallara dair məlumatları müəyyən edilmiş müddət ərzində və malların eyniləşdirilməsinə imkan verən şəkildə təyinat gömrük orqanına təqdim etmək;

175-1.1.2. prosedurla bağlı gömrük qanunvericiliyinin tələblərinə riayət etmək;

175-1.1.3. müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş hallarda yarana biləcək gömrük borcuna görə təminat vermək.

175-1.2. Bu Məcəllənin 175-1.1-ci maddəsində nəzərdə tutulmuş tələblərə tam əməl edildiyi andan prosedur sahibinin öhdəlikləri yerinə yetirilmiş hesab olunur.

175-1.3. Tranzit xüsusi gömrük proseduru altında yerləşdirilmiş malların daşıyıcısı və ya onları qəbul edən şəxs də bu Məcəllənin 175-1.1.1-ci maddəsində nəzərdə tutulmuş tələblərin yerinə yetirilməsinə görə məsuliyyət daşıyırlar.

175-1.4. Prosedur sahibinin əsaslandırılmış müraciətinə əsasən tranzit xüsusi gömrük proseduru ilə bağlı aşağıdakı sadələşdirmə tədbirlərindən istifadə olunur:

175-1.4.1. səlahiyyətli mal göndərən statusu;

175-1.4.2. səlahiyyətli mal alan statusu;

175-1.4.3. malların daşındığı nəqliyyat vasitələrinə gömrük eyniləşdirmə vasitələrinin müstəqil qaydada vurulması və nəqliyyat vasitələrindən çıxarılması;

175-1.4.4.mallar üzərində gömrük nəzarətini həyata keçirmək və tranzit xüsusi gömrük prosedurunu bitirmək üçün gömrük bəyannaməsində göstərilən məlumatların əks olunduğu elektron nəqliyyat sənədinin gömrük bəyannaməsi kimi istifadə edilməsi.

175-1.5. Tranzit xüsusi gömrük proseduru ilə bağlı sadələşdirmə tədbirləri çərçivəsində səlahiyyətli mal alan və səlahiyyətli mal göndərən statusundan irəli gələrək beynəlxalq tranzit xüsusi gömrük prosedurunu başlatma və başa çatdırma əməliyyatları səlahiyyətli iqtisadi operator statusu əldə etmiş şəxslər tərəfindən həyata keçirilir.

175-1.6.Tranzit daşımaları zamanı həm idxal, həm də ixrac əməliyyatlarının aparıldığı eyni gömrük orqanının ərazisində mallar gömrük nəzarəti altında bir nəqliyyat vasitəsindən digər nəqliyyat vasitəsinə yüklənərsə, bu zaman malların gömrük orqanına bəyan edilməsi üçün yalnız bir gömrük bəyannaməsi verilir.

175-1.7. Bu Məcəllənin 175.1.4-cü maddəsində nəzərdə tutulan tranzit xüsusi gömrük proseduru ilə bağlı sadələşdirmə tədbirlərinin tətbiq edilməsi qaydalarını müvafiq icra hakimiyyəti orqanı müəyyən edir.";

1.77. 176-cı maddənin mətni aşağıdakı redaksiyada verilsin:

"176.1. Xarici mallar idxal gömrük rüsumları, idxal üzrə əlavə dəyər vergisi və aksizlər alınmadan, ticarət siyasəti tədbirləri tətbiq olunmadan saxlanc xüsusi gömrük proseduru altında yerləşdirilir.

176.2. Daxili mallar gömrük qanunvericiliyinə uyğun olaraq saxlanc xüsusi gömrük proseduru altında yerləşdirilə bilər.

176.3. Malların saxlanc xüsusi gömrük proseduru altında yerləşdirilməsi qaydalarını müvafiq icra hakimiyyəti orqanı müəyyən edir.

176.4. Müvafiq icra hakimiyyəti orqanı gömrük anbarlarının siyahısını nəşr edir, rəsmi internet informasiya ehtiyatında yerləşdirir və məlumatların daimi yenilənməsini təmin edir.";

1.78. 177-ci maddə aşağıdakı redaksiyada verilsin:

"Maddə 177. **Anbar və prosedur sahibinin öhdəlikləri**

Anbar və prosedur sahibi gömrük anbarı xüsusi gömrük proseduru altında yerləşdirilmiş malların saxlancından irəli gələn öhdəliklərin yerinə yetirilməsinə və bu malların gömrük nəzarətindən yayındırılmasına görə cavabdehdirlər.";

1.79. 178 - 180-ci maddələr ləğv edilsin;

1.80. 181.1-ci maddədə "müvafiq icra hakimiyyəti orqanı tərəfindən verilmiş lisenziyası olan şəxslərin" sözləri "bu Məcəllənin 181.5-ci maddəsinə uyğun olaraq müəyyən edilən tələblərə cavab verən" sözləri ilə əvəz edilsin;

1.81.182-ci və 183.1-ci maddələr aşağıdakı redaksiyada verilsin:

"Maddə 182. **Gömrük anbarlarında malların emalı**

Gömrük orqanlarının razılığı ilə gömrük nəzarətinə xələl gətirməmək və xüsusi gömrük prosedurlarına dair tələblərə əməl etmək şərtilə, malların daxildə emalı və ya son istifadə xüsusi gömrük proseduru altında emalı gömrük anbarında həyata keçirilə bilər. Bu halda mallar gömrük anbarı xüsusi gömrük proseduru altında yerləşdirilmiş hesab edilmir.";

"183.1. Müvafiq icra hakimiyyəti orqanı tərəfindən ayrı-ayrı malların xassələrindən və xüsusiyyətlərindən asılı olaraq daha qısa müddət müəyyən edildiyi hallar istisna olmaqla, mallar gömrük anbarı xüsusi gömrük proseduru altında yerləşdirilərək 3 (üç) il müddətində saxlanıla bilər.";

1.82. "FƏSİL 31 SƏRBƏST ZONA" sözləri çıxarılsın;

1.83. 184.5-ci maddə ləğv edilsin;

1.84. 191-ci maddənin mətni aşağıdakı redaksiyada verilsin:

"Sərbəst zona ləğv edildiyi halda gömrük rəsmiləşdirilməsi ilə əlaqədar hərəkətlərə və əməliyyatlara əməl edilməklə şəxslərə öz seçimlərinə əsasən malların gömrük ərazisində yerləşən digər sərbəst zonaya aparılması və ya başqa gömrük proseduru altında yerləşdirilməsi üçün kifayət qədər vaxt verilməlidir.";

1.85. 192.3.3-cü maddədə "gömrük ərazisindən kənarda təsis edildikdə" sözləri "qeyri-rezident olduqda" sözləri ilə və həmin maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin;

1.86. aşağıdakı məzmunda 192.3.4-cü maddə əlavə edilsin:

"192.3.4. gömrük qanunvericiliyində müəyyən edilmiş gömrük rüsumları və vergilərdən tamamilə və ya qismən azadolunma ilə bağlı tələblər yerinə yetirildikdə.";

1.87. 194-cü maddə üzrə:

1.87.1. 194.1-ci maddə aşağıdakı redaksiyada verilsin:

*Ardı 5-ci səh.*

# Azərbaycan Respublikasının Gömrük Məcəlləsində dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

*Əvvəli 4-cü səh.*

"194.1. Gömrük rüsumlarından və vergilərdən qismən azad edilməklə müvəqqəti idxal xüsusi gömrük proseduru altında yerləşdirilmiş mallara tətbiq olunan gömrük rüsumları və vergilər üzrə hər təqvim ayı üçün ödənişlərin məbləği, onların müvəqqəti idxal xüsusi gömrük proseduru altında yerləşdirildiyi tarixdə sərbəst dövriyyəyə buraxılışı üçün ödənilməli olan gömrük rüsumlarının və vergilərin məbləğinin 3 (üç) faizi miqdarında müəyyən edilir və aylar üzrə ödənişlər tam aylıq ödənişlərin məbləği miqdarında hesablanır.";

1.87.2. aşağıdakı məzmunda 194.4-cü maddə əlavə edilsin:

"194.4. Müvəqqəti idxal xüsusi gömrük proseduru altında yerləşdirilən mallar gömrük nəzarətinə təqdim edilə bilmədikdə, həmin mallar sərbəst dövriyyə üçün buraxılış gömrük proseduru altında yerləşdirilməli və bu Məcəllənin 242.3-cü maddəsində nəzərdə tutulmuş qaydada gömrük rüsumları və vergilər tam ödənilməlidir.";

1.88. 195-ci maddə üzrə:

1.88.1. 195.1-ci maddə aşağıdakı redaksiyada verilsin:

"195.1. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi siyahıya əsasən son istifadə xüsusi gömrük proseduru altında yerləşdirilmiş mallar bu prosedurun məqsədinə uyğun olaraq gömrük rüsumlarından və vergilərdən azad edilməklə sərbəst dövriyyəyə buraxılır. Malların son istifadə xüsusi gömrük proseduru altında yerləşdirilməsi gömrük orqanları tərəfindən icazə verilir və qeyd olunan mallar gömrük nəzarəti altında qalır.";

1.88.2. 195.2.3-cü maddəyə "olunduqda" sözündən sonra ", yaxud gömrük nəzarətinə təqdim edilə bilmədikdə" sözləri əlavə edilsin;

1.88.3. 195.2.4-cü və 195.3-cü maddələr aşağıdakı redaksiyada verilsin:

"195.2.4. son istifadə xüsusi gömrük proseduru üçün müəyyən edilən müddət başa çatdıqda.

195.3. Malların son istifadə xüsusi gömrük proseduru altında qalma müddəti 24 (iyirmi dörd) ay təşkil edir. Göstərilən müddət ərzində son istifadə xüsusi gömrük prosedurunun məqsədinə nail olunmadıqda, gömrük orqanları şəxsin əsaslandırılmış müraciəti əsasında həmin müddəti 12 (on iki) aya qədər uzadır. Malların son istifadə xüsusi gömrük proseduru altında yerləşdirilməsi qaydalarını müvafiq icra hakimiyyəti orqanı müəyyən edir.";

1.88.4. aşağıdakı məzmunda 195.4 - 195.7-ci maddələr əlavə edilsin:

"195.4. Bu Məcəllənin 195.3-cü maddəsində müəyyən edilən müddət başa çatanadək mallar gömrük ərazisindən aparılmalı və ya digər gömrük proseduru altında yerləşdirilmək üçün bəyan edilməlidir.

195.5. Son istifadə xüsusi gömrük proseduru zamanı hasilat norması bu Məcəllənin 196-cı maddəsinə uyğun olaraq müəyyən edilir.

195.6. Son istifadə xüsusi gömrük proseduru üçün müəyyən edilmiş məqsədlərə uyğun olaraq malların istifadəsi və ya emalı nəticəsində yaranan tullantılar, qalıqlar və təbii itkilər son istifadə üçün nəzərdə tutulmuş mallar kimi nəzərə alınır.

195.7. Son istifadə xüsusi gömrük proseduru altında yerləşdirilmiş malların məhv edilməsi nəticəsində yaranan tullantılar və qalıqlar gömrük anbarı xüsusi gömrük proseduru altında yerləşdirilir.";

1.89. 196.2-ci maddə aşağıdakı redaksiyada verilsin:

"196.2. Hasilat norması və ya orta hasilat norması emal əməliyyatları zamanı aşağıdakı qaydada müəyyənləşdirilir:

196.2.1. daxildə emal zamanı həyata keçirilən və ya həyata keçirilməli olan faktiki şərait əsasında;

196.2.2. xaricdə emal zamanı texnoloji proses əsasında.";

1.90. 200-cü maddə üzrə:

1.90.1. 200.2.3-cü maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 200.2.4-cü və 200.2.5-ci maddələr əlavə edilsin:

"200.2.4. gömrük ərazisindən aparılması qadağan edilən, yaxud məhdudlaşdırılan (müvafiq icazə sənədi olmayan) mallar;

200.2.5. eyniləşdirilməsi mümkün olmayan mallar.";

1.90.2. 200.4-cü maddənin dördüncü cümləsinə "müddət" sözündən sonra "başa çatanadək mallar ixrac gömrük proseduru altında yerləşdirilir, yaxud emal müddəti" sözləri əlavə edilsin;

1.91. aşağıdakı məzmunda 33-1-ci fəsil əlavə edilsin:

**"FƏSİL 33-1 RÜSUMSUZ TİCARƏT**

Maddə 203-1. **Rüsumsuz ticarət xüsusi gömrük proseduru və onun əhatə dairəsi**

203-1.1. Rüsumsuz ticarət idxal gömrük rüsumları və vergilər alınmadan, ticarət siyasəti tədbirləri tətbiq edilmədən gömrük ərazisinə gətirilmiş xarici malların gömrük ərazisini tərk edən fiziki şəxslərə şəxsi istifadə (istehlak) üçün pərakəndə qaydada rüsumsuz ticarət mağazalarında satılmasını nəzərdə tutan xüsusi gömrük prosedurudur.

203-1.2. Daxili malların rüsumsuz ticarət xüsusi gömrük proseduru altında yerləşdirilərək satışı gömrük orqanlarının icazəsi ilə həyata keçirilir.

203-1.3. Malların rüsumsuz ticarət xüsusi gömrük proseduru altında yerləşdirilməsi qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunur.

Maddə 203-2. **Rüsumsuz ticarət mağazalarının statusu və gömrük nəzarəti**

203-2.1. Rüsumsuz ticarət mağazalarının yerləşdiyi ərazi gömrük nəzarəti zonası hesab olunur.

203-2.2. Rüsumsuz ticarət xüsusi gömrük proseduru altında malların yerləşdirilməsi və satışı gömrük orqanlarının nəzarəti ilə həyata keçirilir.

Maddə 203-3. **Rüsumsuz ticarət mağazalarının fəaliyyətinin hüquqi tənzimlənməsi**

203-3.1. Rüsumsuz ticarət mağazalarının yaradılmasına icazənin verilməsi, yenidən rəsmiləşdirilməsi, dayandırılması, bərpa edilməsi, ləğvi və şərtlərinə riayət olunmasına nəzarət "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilir.

203-3.2. Müvafiq icra hakimiyyəti orqanı rüsumsuz ticarət mağazalarının reyestrini aparır, onların siyahısını nəşr edir, rəsmi internet informasiya ehtiyatında yerləşdirir və məlumatların daimi yenilənməsini təmin edir.

Maddə 203-4. **Rüsumsuz ticarət xüsusi gömrük prosedurunun başa çatması**

Rüsumsuz ticarət xüsusi gömrük proseduru altında yerləşdirilmiş mallar üzərində gömrük nəzarəti həmin mallar təkrar ixrac və ya digər gömrük proseduru altında yerləşdirildikdə, məhv edildikdə, yaxud onlardan dövlətin xeyrinə imtina olunduqda başa çatır.

Maddə 203-5. **Rüsumsuz ticarət mağazası ləğv edildikdə malların gömrük rəsmiləşdirilməsi**

Rüsumsuz ticarət mağazası ləğv edildikdə rüsumsuz ticarət xüsusi gömrük proseduru altında yerləşdirilmiş xarici mallar təkrar ixrac və ya bütün gömrük ödənişləri ödənilməklə sərbəst dövriyyə üçün buraxılış gömrük proseduru altında, bu mümkün olmadıqda isə müvəqqəti saxlanc və ya gömrük anbarında yerləşdirilməlidir.";

1.92. 204-cü maddə üzrə:

1.92.1. 204.2-ci və 204.5-ci maddələrdə "daşınma proseduru altında yerləşdirilmiş" sözləri "daşınan" sözü ilə əvəz edilsin;

1.92.2. 204.4-cü maddə aşağıdakı redaksiyada verilsin:

"204.4. Kabotaj daşıyan gəminin göyərtəsində bəyan edilməmiş, yaxud gömrük prosedurları altında yerləşdirilmiş mallar olduqda, həmin gəmi yükləmə və boşaltma yerinə gəldikdən sonra gömrük orqanları kabotaj daşınan malların mümkün qədər qısa müddət ərzində yüklənməsinə və boşaldılmasına icazə verirlər.";

1.93. 205.2-ci maddədə "bağlamalara" sözü "nəqliyyat vasitələrinə, onların yük hissəsinə və tutumlarına, o cümlədən bağlamalara, müşayiət olunan və olunmayan baqajlara" sözləri ilə əvəz edilsin;

1.94. 206-cı maddə üzrə:

1.94.1. 206.0-cı maddədə "bağlamalara" sözü "nəqliyyat vasitələrinə, onların yük hissəsinə və tutumlarına, o cümlədən bağlamalara, müşayiət olunan və olunmayan baqajlara" sözləri ilə əvəz edilsin;

1.94.2. 206.0.1-ci maddədə "bağlamada" sözü "nəqliyyat vasitələrinin yük hissəsində və tutumlarında, o cümlədən bağlamalarda, müşayiət olunan və olunmayan baqajlarda" sözləri ilə əvəz edilsin;

1.94.3. 206.0.2-ci maddədə "bağlamalarda" sözü "nəqliyyat vasitələrinin yük hissəsində və tutumlarında, o cümlədən bağlamalarda, müşayiət olunan və olunmayan baqajlarda" sözləri ilə əvəz edilsin;

1.94.4. 206.0.3.1-ci maddədə "bağlamaların içərisində" sözləri "nəqliyyat vasitələrinin yük hissəsində və tutumlarında, o cümlədən bağlamalarda" sözləri ilə əvəz edilsin;

1.94.5. 206.0.3.2-ci maddədə "bağlamaların içərisində" sözləri "bağlamalarda" sözü ilə əvəz edilsin;

1.95. aşağıdakı məzmunda 220.3-cü maddə əlavə edilsin:

"220.3. Malların gömrük dəyəri Azərbaycan Respublikasının milli valyutası ilə bəyan edilir.";

1.96. 221.1-ci maddənin ikinci cümləsində "ən geci 24 saat" sözləri "1 (bir) iş günü" sözləri ilə əvəz edilsin və həmin maddəyə aşağıdakı məzmunda üçüncü cümlə əlavə edilsin:

"Əlavə araşdırma tələb olunduğu halda bəyannaməçiyə bu barədə bildiriş təqdim edilməklə göstərilən müddət 1 (bir) iş günü müddətinə uzadılır.";

1.97. 224.2-ci maddədə ", alınması və hesablara daxil edilməsi" sözləri "və ödənilməsi" sözləri ilə əvəz edilsin;

1.98. 234-cü maddə ləğv edilsin;

1.99. aşağıdakı məzmunda 239-1-ci maddə əlavə edilsin:

"Maddə 239-1. **Ödənilmiş gömrük ödənişlərinin yaranmış gömrük borcu üzrə nəzərə alınması**

Gömrük ərazisində son istifadə ilə əlaqədar gömrük rüsumlarından və vergilərdən qismən azad olunmaqla sərbəst dövriyyəyə buraxılmış, o cümlədən həmin ödənişlərdən qismən azad olunmaqla müvəqqəti idxal xüsusi gömrük proseduru altında yerləşdirilmiş malların sərbəst dövriyyə üçün buraxılış gömrük proseduru altında yerləşdirilməsi, yaxud onların məhv edilməsi nəticəsində yaranan qalıqların və tullantıların gömrük rəsmiləşdirilməsi zamanı gömrük borcu hesablanarkən həmin mallara görə əvvəllər ödənilmiş gömrük rüsumlarının və vergilərin məbləği nəzərə alınır.";

1.100. 242-ci maddə üzrə:

1.100.1. 242.3-cü maddə aşağıdakı redaksiyada verilsin:

"242.3. Gömrük rüsumlarının və yığılması gömrük orqanlarına həvalə edilmiş vergilərin hesablanması, habelə gömrük ödənişləri üzrə güzəşt və azadolmaların tətbiqi idxal olunan mallara münasibətdə gömrük sərhədini keçən gündən, ixrac olunan mallara münasibətdə isə mallara dair bəyannamənin təqdim olunduğu gündən başlanır, həmin gün qüvvədə olan gömrük rüsumları və vergilərin dərəcələri, güzəşt və azadolmalara dair normativ hüquqi aktların müddəaları əsas götürülür.";

1.100.2. aşağıdakı məzmunda 242.3-1-ci maddə əlavə edilsin:

"242.3-1. Daxildə emal xüsusi gömrük proseduru nəticəsində əldə olunan emal məhsulları üzrə gömrük borcu həmin malların daxildə emal xüsusi gömrük proseduru altında yerləşdirilməsinə dair gömrük bəyannaməsi təsdiq olunduğu vaxt malların tarif təsnifatı, gömrük dəyəri, miqdarı, xassələri və mənşəyi əsas götürülməklə müəyyən edilir.";

1.101. 244-cü maddə üzrə:

1.101.1. 244.1-ci maddə aşağıdakı redaksiyada verilsin:

"244.1. Gömrük borcu gömrük orqanına, beynəlxalq poçt göndərişləri ilə göndərilən mallar üçün isə poçt rabitəsinin milli operatoruna nağdsız qaydada ödənilir.";

1.101.2. 244.2-ci maddəyə "ödənişlərin" sözündən sonra "nağdsız qaydada" sözləri əlavə edilsin və həmin maddədə "yaradılmalıdır" sözü "yaradılır, həmçinin ödəniş terminalları quraşdırılır" sözləri ilə əvəz edilsin;

1.101.3. 244.4-cü maddədə "rabitəsi operatorları" sözləri "rabitəsinin milli operatoru" sözləri ilə, "köçürürlər" sözü "köçürür" sözü ilə əvəz edilsin;

1.102. 250-ci maddə üzrə:

1.102.1. aşağıdakı məzmunda 250.2-1-ci maddə əlavə edilsin:

"250.2-1. Tranzit xüsusi gömrük proseduru zamanı təminat, yarana biləcək gömrük borcuna bərabər səviyyədə və ya riskin qiymətləndirilməsi əsasında müəyyən edilən səviyyədə verilir.";

1.102.2. aşağıdakı məzmunda 250.8-1-ci maddə əlavə edilsin:

"250.8-1. Bu Məcəllənin 258.1-ci maddəsində nəzərdə tutulmuş üsullardan istifadə edilməklə verilmiş təminat başa çatmamışdırsa, malların buraxılışından sonra aşkarlanmış gömrük borcunun ödənilməsi həmin təminatdan istifadə olunmaqla təmin edilə bilər.";

1.103. 257-ci maddənin mətni və 258.1.3-cü maddə aşağıdakı redaksiyada verilsin:

"257.1. Gömrük borcu tam məbləğdə ödənildikdə təminat başa çatmış hesab edilir.

257.2. Gömrük borcunun bir qismi ödənildikdə, yaxud gömrük borcu təminat verilən öhdəliyin bir qisminə münasibətdə yarandıqda, şəxsin müraciəti əsasında təminatın müvafiq hissəsi başa çatmış hesab olunur.";

"258.1.3. qarantiya;";

1.104. 259.2-ci maddədə "Mülki Məcəlləsi" sözləri "normativ hüquqi aktları" sözləri ilə əvəz edilsin;

1.105. 261-ci maddə üzrə:

1.105.1. adında "Bank qarantiyası" sözləri "Qarantiya" sözü ilə əvəz edilsin;

1.105.2. 261.4-cü maddədə "yaxud bank qarantiyası" sözləri "lisenziyasında qarantiya verilməsi istisna edilən, yaxud qarantiya ilə təmin olunmuş gömrük borcu" sözləri ilə əvəz edilsin;

1.106. 265-ci maddənin üçüncü cümləsinə "ödənişlərini" sözündən sonra "və dəbbə pulunu" sözləri əlavə edilsin;

1.107. 270.1-ci maddədə "1 (bir)" sözləri "3 (üç)" sözləri ilə əvəz edilsin;

1.108. 271.1.5-ci maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 271.1.6-cı maddə əlavə edilsin:

"271.1.6. bu Məcəllənin 249.1-ci maddəsində nəzərdə tutulan müddətin bitməsi.";

1.109. 279.1-ci maddədə "üzərində və elektron daşıyıcılarda aparır" sözləri "daşıyıcıda və elektron informasiya sistemi vasitəsilə elektron formada aparır, həmçinin reyestrə daxil etdiyi əqli mülkiyyət hüquqlarının obyektləri barədə məlumatları özünün rəsmi internet informasiya ehtiyatında yerləşdirir və məlumatların daimi yenilənməsini təmin edir" sözləri ilə əvəz edilsin;

1.110. 280-ci maddə üzrə:

1.110.1. 280.4-cü maddə aşağıdakı redaksiyada verilsin:

"280.4. Bu Məcəllənin 280.2.5-ci maddəsində nəzərdə tutulmuş öhdəliyin icrasının təmin edilməsi üçün ərizəçi, bu Məcəllənin 258.1-ci maddəsində göstərilən təminatlardan birini zərər və xərc yaranan zaman gömrük orqanına təqdim etməlidir. Həmin təminatın məbləğinin hesablanması qaydasını müvafiq icra hakimiyyəti orqanı müəyyən edir.";

1.110.2. aşağıdakı məzmunda 280.10 - 280.12-ci maddələr əlavə edilsin:

"280.10. Müvafiq icra hakimiyyəti orqanı tərkibində əqli mülkiyyət hüquqlarının obyektləri olan mallara dair reyestrə daxil edilməsi üçün təqdim edilmiş məlumatların düzgünlüyünün yoxlanılması məqsədilə digər səlahiyyətli dövlət orqanları (qurumları) ilə məlumat mübadiləsini həyata keçirir.

280.11. Əqli mülkiyyət hüquqlarının qorunması və tərkibində əqli mülkiyyət hüquqlarının obyektləri olan mallara dair məlumatların reyestrə daxil edilməsi, həmçinin əqli mülkiyyət hüquqlarının qorunması müddətinin uzadılması barədə müraciət edilərkən şəxslər tərəfindən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi məbləğdə gömrük yığımı ödənilir.

280.12. Tərkibində əqli mülkiyyət hüquqlarının obyektləri olan mallara dair məlumatlar reyestrdən çıxarılarkən ödənilmiş gömrük yığımı qaytarılmır.";

1.111. 283-cü maddə üzrə:

1.111.1. 283.1-ci maddənin birinci cümləsinə "ilə" sözündən sonra "bu Məcəllənin 283.1-1-ci maddəsində nəzərdə tutulmuş hallar istisna olmaqla," sözləri əlavə edilsin;

1.111.2. aşağıdakı məzmunda 283.1-1-ci maddə əlavə edilsin:

"283.1-1. Barəsindəki məlumatlar reyestrə daxil edilmiş tez xarab olan malların gömrük nəzarəti və gömrük rəsmiləşdirilməsi zamanı onların pirat və ya kontrafakt olması əlamətləri aşkar edilərsə, belə malların buraxılışı gömrük rəsmiləşdirilməsini həyata keçirən gömrük orqanının rəhbəri və ya onu əvəz edən şəxsin qərarı ilə 3 (üç) iş günü müddətinə dayandırılır. Müraciət edən şəxsin əsaslandırılmış müraciəti olduqda göstərilən müddət daha 3 (üç) iş gününədək uzadılır.";

1.111.3. 283.2-ci maddənin birinci cümləsinə "yazılı" sözündən sonra ", o cümlədən elektron" sözləri əlavə edilsin;

1.112. aşağıdakı məzmunda 284.3-cü maddə əlavə edilsin:

"284.3. Tərkibində əqli mülkiyyət hüquqlarının obyektləri olan, lakin barəsindəki məlumatlar reyestrə daxil edilməmiş, habelə ərizəçinin müraciətində göstərilməmiş malların pirat və ya kontrafakt olması əlamətlərini gömrük orqanları aşkar etdikdə, buraxılışının dayandırılması nəticəsində gömrük orqanlarının çəkdiyi xərclərin əvəzi bu Məcəllənin 284.2-ci maddəsində nəzərdə tutulan qaydada ödənilir.";

1.113. 286-cı maddə üzrə:

1.113.1. 286.1-ci maddədə və 286.4-cü maddənin birinci abzasında "maddəsində" sözü "və 283.1-1-ci maddələrində" sözləri ilə əvəz edilsin;

1.113.2. 286.2-ci maddəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Malların buraxılışının dayandırılması məhkəmə qərarı qanuni qüvvəyə mindikdə başa çatır.";

1.114. 287-ci maddə üzrə:

1.114.1. 287.1-ci maddədə "maddəsində" sözü "və 283.1-1-ci maddələrində" sözləri ilə əvəz edilsin;

1.114.2. aşağıdakı məzmunda 287.3 - 287.5-ci maddələr əlavə edilsin:

"287.3. Gömrük sərhədindən keçirilən malların pirat və ya kontrafakt hesab edilməsi barədə qərar qəbul edildikdə, həmin mallar şəxs tərəfindən öz seçimi ilə dərhal gömrük ərazisindən geri aparılır və ya məhv edilir, yaxud onlardan dövlətin xeyrinə imtina olunur.

287.4. Gömrük orqanları gömrük sərhədindən keçirilən və tərkibində əqli mülkiyyət hüquqlarının obyektləri olan mallar üzərində gömrük nəzarətinin həyata keçirilməsini, o cümlədən əqli mülkiyyət hüquqlarının qorunmasını təmin etmək məqsədilə digər dövlətlərin səlahiyyətli orqanları və qurumları ilə beynəlxalq müqavilələrə uyğun olaraq əməkdaşlıq edirlər.

287.5. Əqli mülkiyyət obyektləri üzərində hüquqların qorunması məqsədilə aşağıdakı məlumatlar mübadilə olunur:

287.5.1. əqli mülkiyyət sahəsində normativ hüquqi aktların pozulması yolu ilə daşınmasına şübhə doğuran mallar barədə;

287.5.2. bu Məcəllənin 287.4-cü maddəsində nəzərdə tutulan dövlətlərlə qarşılıqlı ticarətdə malların əqli mülkiyyət hüquqlarının pozulmasına dair aşkar edilmiş faktlar barədə.";

1.115. 288-ci maddənin mətni aşağıdakı redaksiyada verilsin:

"Bu Məcəllənin 49-cu fəsli fiziki şəxslər tərəfindən gömrük sərhədindən şəxsi istifadə miqdarında keçirilən, yaxud beynəlxalq poçt göndərişləri ilə göndərilən istehsal və ya digər kommersiya fəaliyyəti üçün nəzərdə tutulmayan mallara, o cümlədən hüquq sahibinin qanuni əsaslarla gömrük ərazisinə gətirdiyi, onun razılığı ilə sərbəst dövriyyəyə buraxılmış və ya tranzit xüsusi gömrük proseduru altında yerləşdirilməklə gömrük sərhədindən keçirilən mallara münasibətdə tətbiq edilmir.";

1.116. XVI bölmənin və 50-ci fəslin adlarında "VASİTƏSİ" sözü "VASİTƏSİLƏ VƏ SÜRƏTLİ (EKSPRES) DAŞINMA YOLU" sözləri ilə əvəz edilsin;

1.117. aşağıdakı məzmunda 291.4-cü və 292-1 - 292-3-cü maddələr əlavə edilsin:

"291.4. Beynəlxalq poçt göndərişləri ilə göndərilən malların gömrük rəsmiləşdirilməsinin sürətləndirilməsi məqsədilə bu Məcəllənin 289.1.3 - 289.1.6-cı maddələrində nəzərdə tutulan beynəlxalq poçt göndərişlərinə dair məlumatlar gömrük orqanlarının elektron informasiya sistemi vasitəsilə göndərilməlidir.";

"Maddə 292-1. **Malların sürətli (ekspres) daşınması**

292-1.1. İnformasiya sistemlərindən istifadə edilməklə elektron ticarət yolu ilə alınan mallar müvafiq qaimə əsasında istənilən nəqliyyat vasitəsilə daşınaraq alıcıya çatdırılır.

292-1.2. Sürətli (ekspres) daşınma yolu ilə daşınan mallar gömrük nəzarəti və gömrük rəsmiləşdirilməsi başa çatanadək və onların buraxılışına icazə verilənədək gömrük nəzarəti altında olurlar.

Maddə 292-2. **Sürətli (ekspres) daşınan malların gömrük sərhədindən keçirilməsinin xüsusiyyətləri**

292-2.1. Aşağıdakı malların sürətli (ekspres) daşınma yolu ilə gömrük sərhədindən keçirilməsinə icazə verilmir:

292-2.1.1. mülki dövriyyədə olmasına yol verilməyən (mülki dövriyyədən çıxarılmış) əşyalar;

292-2.1.2. müvafiq icazə sənədləri olmayan mülki dövriyyəsi məhdudlaşdırılmış əşyalar.

292-2.2. Bu Məcəllənin 292-2.1-ci maddəsində nəzərdə tutulmuş mallar sürətli (ekspres) daşınma yolu ilə gömrük sərhədindən keçirilərkən gömrük orqanları tərəfindən bu Məcəlləyə və gömrük işi üzrə digər normativ hüquqi aktlara uyğun olaraq götürülür.

Maddə 292-3. **Sürətli (ekspres) daşınan malların bəyan olunması və gömrük rəsmiləşdirilməsi**

292-3.1. Sürətli (ekspres) daşınma yolu ilə gömrük sərhədindən keçirilən mallar əvvəlcədən gömrük orqanlarına bəyan olunur və onların daşınmasını həyata keçirən şəxslər tərəfindən gömrük orqanlarına təqdim edilir.

292-3.2. Sürətli (ekspres) daşınma yolu ilə gömrük ərazisinə gətirilən və ya bu ərazidən aparılan istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan malların bəyan edilməsi və gömrük rəsmiləşdirilməsi müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş güzəştli və sadələşdirilmiş qaydada həyata keçirilir.

292-3.3. Sürətli (ekspres) daşınma yolu ilə gömrük sərhədindən istehsal, yaxud kommersiya məqsədləri üçün keçirilən mallar müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada gömrük bəyannaməsi təqdim olunmaqla gömrük orqanlarına bəyan edilir.

292-3.4. Gömrük ərazisinə gətirilməsinə və bu ərazidən aparılmasınamüvafiq icazə əsasında yol verilən mülki dövriyyəsi məhdudlaşdırılmış əşyaların gömrük rəsmiləşdirilməsi zamanı onları alan və göndərən şəxslər (həmin şəxslərin səlahiyyətli nümayəndələri) gömrük orqanlarına müvafiq icazə sənədini təqdim edirlər.";

1.118. 293.4-cü maddənin birinci cümləsindən ", müvəqqəti saxlanc xüsusi gömrük proseduru altında yerləşdirilməməsi şərti ilə," sözləri çıxarılsın;

1.119. 299.4-cü maddə ləğv edilsin;

1.120. 301.1-ci maddə aşağıdakı redaksiyada verilsin:

"301.1. Fiziki şəxslər gömrük sərhədindən keçirdikləri yazılı formada bəyan edilən mallara dair gömrük ödənişlərini yalnız nağdsız qaydada ödəyirlər.";

1.121. aşağıdakı məzmunda 306-1-ci maddə əlavə edilsin:

"Maddə 306-1. **Fiziki şəxslər tərəfindən gömrük sərhədindən keçirilən malların müvəqqəti saxlanca verilməsi**

306-1.1. Malların müvəqqəti saxlanc anbarında yerləşdirilməsi fiziki şəxslər tərəfindən təqdim edilən sadələşdirilmiş bəyannamə və gömrük orqanları tərəfindən tərtib olunan akt əsasında həyata keçirilir.

306-1.2. Malların müvəqqəti saxlanc anbarlarında qalma müddəti onların xüsusiyyətləri nəzərə alınmaqla gömrük orqanları tərəfindən 1 (bir) aydan çox olmayan müddətdə müəyyən edilir.

306-1.3. Fiziki şəxslər tərəfindən gömrük ərazisinə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi həddən artıq gətirilən və təyinatı istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan qida məhsullarının müvəqqəti saxlanc anbarında yerləşdirilməsinə yol verilmir. Bu halda mallar şəxsin seçimi əsasında gömrük ərazisindən geri qaytarılmalı, yaxud gömrük orqanının vəzifəli şəxsinin iştirakı ilə məhv edilməlidir.

306-1.4. Gömrük ərazisinə gətirilməsi qadağan edilən malları gömrük ərazisindən dərhal çıxarmaq mümkün olmadıqda, həmin malların müvəqqəti saxlanc anbarında saxlanc müddətinin son həddi 3 (üç) sutkadır.

306-1.5. Malların müvəqqəti saxlanc anbarında qalma müddətində fiziki şəxslər aşağıdakı hüquqlara malikdirlər:

306-1.5.1. tələb olunan gömrük ödənişlərini ödəməklə, həmçinin "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulduqda müvafiq lisenziya və ya icazə sənədini təqdim etməklə malları götürmək;

306-1.5.2. malları gömrük ərazisindən geri qaytarmaq;

306-1.5.3. mallardan dövlətin xeyrinə imtina etmək.

306-1.6. Malların müvəqqəti saxlanc anbarında saxlancına görə müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş məbləğdə gömrük yığımı ödənilir.

306-1.7. Bu Məcəllənin 306-1.2-ci və 306-1.4-cü maddələrində nəzərdə tutulmuş saxlanc müddətinin son həddi keçmiş mallar barəsində sərəncam verilməsi bu Məcəllənin 57-ci fəsli ilə tənzimlənir.

306-1.8. Malların müvəqqəti saxlanc anbarında yerləşdirilməsi barədə aktın forması müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunur.";

1.122. 53-cü fəslin adında **"NÜMAYƏNDƏLİKLƏRİ VƏ ONLARIN ƏMƏKDAŞLARI, HABELƏ"** sözləri **"AZƏRBAYCAN RESPUBLİKASINDAKI DİPLOMATİK NÜMAYƏNDƏLİKLƏRİ VƏ KONSULLUQLARI, BEYNƏLXALQ TƏŞKİLATLAR VƏ ONLARIN NÜMAYƏNDƏLİKLƏRİ, HABELƏ BU QURUMLARIN ƏMƏKDAŞLARI VƏ"** sözləri ilə əvəz edilsin;

1.123. 307-ci maddənin adına "dövlətlərin" sözündən sonra "Azərbaycan Respublikasındakı" sözləri əlavə edilsin.

1.124. 308-ci maddə üzrə:

1.124.1. adında və 308.1-ci maddədə "diplomatik nümayəndəliklərinin başçıları və diplomatik heyətinin" sözləri "Azərbaycan Respublikasındakı diplomatik nümayəndəliklərinin başçıları və digər diplomatik heyət" sözləri ilə əvəz edilsin;

1.124.2. 308.2-ci maddə ləğv edilsin;

1.124.3. 308.3-cü maddədə "diplomatik nümayəndəliklərinin başçılarının, diplomatik heyətinin" sözləri "Azərbaycan Respublikasındakı diplomatik nümayəndəliklərinin başçılarının və digər diplomatik heyət" sözləri ilə əvəz edilsin;

1.125. 309-cu maddənin adına və 309.1-ci maddəyə "dövlətlərin" sözündən sonra "Azərbaycan Respublikasındakı" sözləri əlavə edilsin;

1.126. 310-cu maddənin adına və mətninə "dövlətlərin" sözündən sonra "Azərbaycan Respublikasındakı diplomatik" sözləri əlavə edilsin;

1.127. 311-ci maddə üzrə:

1.127.1. adında "konsulluq nümayəndəlikləri" sözləri "Azərbaycan Respublikasındakı konsulluqları" sözləri ilə əvəz edilsin;

1.127.2. 311.1-ci maddə aşağıdakı redaksiyada verilsin:

"311.1. Xarici dövlətlərin Azərbaycan Respublikasındakı konsulluqlarına, onların başçılarına, digər vəzifəli şəxslərinə və inzibati-texniki işləri həyata keçirən əməkdaşlarına, habelə göstərilən şəxslərin ailə üzvlərinə (həmin əməkdaşlar və onların ailə üzvləri Azərbaycan Respublikasının vətəndaşı deyilsə və ya Azərbaycan Respublikasında daimi yaşamırlarsa) xarici dövlətlərin Azərbaycan Respublikasındakı diplomatik nümayəndəlikləri və ya diplomatik nümayəndəliyin müvafiq heyəti üçün bu Məcəllədə nəzərdə tutulmuş qaydada gömrük ödənişlərinə dair güzəştlər tətbiq edilir.";

1.127.3. 311.2-ci maddəyə "dövlətlərin" sözündən sonra "Azərbaycan Respublikasındakı diplomatik" sözləri əlavə edilsin və "konsulluq nümayəndəliklərinin" sözləri "xarici dövlətlərin Azərbaycan Respublikasındakı konsulluqlarının" sözləri ilə əvəz edilsin;

1.128. 316-cı maddə üzrə:

1.128.1. adında "nəzdindəki xarici dövlət" sözləri "Azərbaycan Respublikasındakı" sözləri ilə əvəz edilsin;

1.128.2. mətnində "nəzdindəki xarici dövlət" sözləri Azərbaycan Respublikasındakı" sözləri ilə, "müvafiq" sözü "bu Məcəllə, "Diplomatik xidmət haqqında" Azərbaycan Respublikasının Qanunu və" sözləri ilə əvəz edilsin;

1.129. 319-cu maddə üzrə:

1.129.1. 319.1-ci maddədə "qrupunu, mövqeyini, yardımçı mövqeyini, alt yardımçı mövqeyini" sözləri "bölmələrini, qrupunu, onların mövqeyini, yarımmövqeyini, alt yarımmövqeyini" sözləri ilə əvəz edilsin;

1.129.2. 319.2-ci maddəyə birinci halda "nomenklaturasının" sözündən sonra "əsas" sözü əlavə edilsin və həmin maddədə "mövqelərə" sözü "bölmələrə, qruplara və mal mövqelərinə" sözləri ilə əvəz edilsin;

1.129.3. aşağıdakı məzmunda 319.4-1-ci maddə əlavə edilsin:

"319.4-1. Malların sinifləşdirilməsi zamanı bölmələrə, mal qruplarına, onların mövqelərinə, yarımmövqelərinə və alt yarımmövqeyinə dair ətraflı məlumatların əldə edilməsi məqsədilə bu Məcəllənin 319.4-cü maddəsində nəzərdə tutulmuş beynəlxalq müqavilələrin rəsmi və ayrılmaz hissəsi olan Harmonik Sistemin İzahnaməsindən istifadə edilir.";

1.130. 321.4-cü maddənin ikinci cümləsində "rəylər" sözü "sınaq nəticələri, habelə malların tərkibi və digər göstəricilərini özündə əks etdirən sənəd və materiallar" sözləri ilə əvəz edilsin və həmin maddəyə aşağıdakı məzmunda üçüncü cümlə əlavə edilsin:

"Malların xarici iqtisadi fəaliyyətin mal nomenklaturası üzrə koduna dair Azərbaycan Respublikası gömrük ekspertizası qurumunun rəyi digər ölkələrin və qurumların ekspertiza aktları, arayışları və rəylərindən, həmçinin digər ölkələrin ixrac bəyannamələrində malların təsnifatına dair göstərilən məlumatlardan üstün hesab edilir.";

1.131. 322-ci maddə üzrə:

1.131.1. aşağıdakı məzmunda 322.1.1-1 - 322.1.1-4-cü maddələr əlavə edilsin:

"322.1.1-1. avtonəqliyyat vasitələrinin ekoloji sinfinin və texniki uyğunluğunun müəyyən edilməsi;

322.1.1-2. gömrük ərazisinə gətirilməsi və ya bu ərazidən aparılması qadağan edilmiş, yaxud məhdudlaşdırılmış malların müəyyən edilməsi;

322.1.1-3. kimyəvi silahların, habelə onların hazırlanması, istehsalı və artırılmasında (yığılmasında) istifadə olunan kimyəvi maddələrin müəyyən edilməsi;

322.1.1-4. tərkibində əqli mülkiyyət hüquqlarının obyektləri olan mallara dair sahiblik hüququnun müəyyən edilməsi;";

1.131.2. 322.1.6-cı maddədə "ekoloji baxımdan təhlükəli, tərkibində ozondağıdıcı maddələr olan malların və" sözləri "sərhədlərarası daşınmasına icazə əsasında yol verilən və ya qadağan olunmuş təhlükəli" sözləri ilə əvəz edilsin;

1.131.3. 322.1.8-ci maddə ləğv edilsin;

1.131.4. 322.9-cu maddənin birinci cümləsinə və 322.12-ci maddənin ikinci cümləsinə "yazılı" sözündən sonra ", o cümlədən elektron" sözləri əlavə edilsin;

1.131.5. 322.14-cü maddədə "ekspertizası aparılarkən" sözləri "ekspertizasının məqsədləri üçün" sözləri ilə əvəz edilsin;

1.132. 323-cü maddə üzrə:

1.132.1. aşağıdakı məzmunda 323.2.1-1-ci maddə əlavə edilsin:

"323.2.1-1. prob və nümunələrin götürülməsi zaman xüsusi biliklərə malik olan ekspertin iştirakına zərurət yarandıqda, elmi dəstəyin verilməsi məqsədilə müşahidəçi qismində prob və nümunələrin götürülməsində iştirak etmək;";

1.132.2. 323.2.3-cü maddəyə "yazılı" sözündən sonra ", o cümlədən elektron formada" sözləri əlavə edilsin;

1.132.3. 323.2-1-ci maddədə "qədər olmadıqda," sözləri "etmədikdə, habelə ekspertizanın aparılması elmi və ya texniki səbəblərdən mümkün olmadıqda" sözləri ilə əvəz edilsin;

1.133. 324.2-ci maddənin ikinci cümləsinə "yazılı" sözündən sonra ", o cümlədən elektron formada" sözləri əlavə edilsin;

1.134. 325.1-ci maddəyə "yazılı" sözündən sonra ", o cümlədən elektron" sözləri əlavə edilsin;

1.135. 326.1-ci maddəyə "yarandıqda," sözündən sonra "həmçinin tədqiqat obyektinə dair əlavə məlumatlar təqdim edildikdə" sözləri əlavə edilsin;

1.136. 327.1-ci maddəyə "habelə" sözündən sonra "gömrük sərhədini keçdiyi gündən 6 (altı) ay müddətində rəsmiləşdirilməmiş və ya rəsmiləşdirilməsi başa çatmamış, eləcə də" sözləri əlavə edilsin.

**Maddə 2.** Bu Qanun dərc edildiyi gündən 30 (otuz) gün sonra qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 iyun 2026-cı il*

## N.E.Cahidzadənin Naxçıvan Muxtar Respublikası Culfa Rayon İcra Hakimiyyətinin başçısı təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 141-ci maddəsini rəhbər tutaraq **qərara alıram:**

Naim Etibar oğlu Cahidzadə Naxçıvan Muxtar Respublikası Culfa Rayon İcra Hakimiyyətinin başçısı təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 avqust 2026-cı il*

## N.E.Cahidzadənin Naxçıvan Muxtar Respublikası Sədərək Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 141-ci maddəsini rəhbər tutaraq **qərara alıram:**

Naim Etibar oğlu Cahidzadə Naxçıvan Muxtar Respublikası Sədərək Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 avqust 2026-cı il*

## R.Z.Rəhimlinin Naxçıvan Muxtar Respublikası Ordubad Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 141-ci maddəsini rəhbər tutaraq **qərara alıram:**

Rəcəb Zakir oğlu Rəhimli Naxçıvan Muxtar Respublikası Ordubad Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 avqust 2026-cı il*

## N.R.Hacıyevin Naxçıvan Muxtar Respublikası Ordubad Rayon İcra Hakimiyyətinin başçısı təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 141-ci maddəsini rəhbər tutaraq **qərara alıram:**

Nurlan Rauf oğlu Hacıyev Naxçıvan Muxtar Respublikası Ordubad Rayon İcra Hakimiyyətinin başçısı təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 avqust 2026-cı il*

## A.M.Babayevin Naxçıvan Muxtar Respublikası Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 141-ci maddəsini rəhbər tutaraq **qərara alıram:**

Anar Mehti oğlu Babayev Naxçıvan Muxtar Respublikası Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 avqust 2026-cı il*

## "Azərbaycan Respublikasının Gömrük Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2026-cı il 19 iyun tarixli 424-VIIQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikası Gömrük Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 15 sentyabr tarixli 499 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Gömrük Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2026-cı il 19 iyun tarixli 424-VIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. Azərbaycan Respublikası Gömrük Məcəlləsinin 7.3-cü (ikinci halda - Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyasına münasibətdə), 7.4-cü (ikinci halda - Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyasına münasibətdə), 31.6-cı maddələrində və 54.2-ci maddəsinin üçüncü cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Məcəllənin 1.1.10-cu, 1.1.30-cu, 1.1.36-cı, 1.1.44-cü, 8.0.21-1-ci, 25.5-ci (ikinci halda), 27-ci maddələrində, 92.8-ci maddəsinin birinci cümləsində, 98.2-ci maddəsinin ikinci cümləsində, 98-7.3-cü, 111.4-cü, 124.2-ci, 124-1.2-ci maddələrində, 124-2.1-ci maddəsinin birinci cümləsində, 124-2.6-cı, 124-2.9-cu, 124-3.1-ci, 129-1.8-ci, 149.3-cü, 167.2-ci, 174.4-cü, 175.3-cü, 175-1.1.3-cü, 175-1.7-ci, 176.3-cü, 183.1-ci maddələrində, 195.1-ci maddəsinin birinci cümləsində, 195.3-cü maddəsinin üçüncü cümləsində, 203-1.3-cü maddəsində, 280.4-cü maddəsinin ikinci cümləsində, 280.11-ci, 292-3.2-ci, 292-3.3-cü maddələrində, 306-1.3-cü maddəsinin birinci cümləsində, 306-1.6-cı və 306-1.8-ci maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;

1.3. həmin Məcəllənin 1.1.19-cu, 1.1.23-cü, 5.1-ci, 6.2-ci, 7.1-ci, 7.3-cü (birinci halda və ikinci halda - Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyası istisna olmaqla), 7.4-cü (birinci halda və ikinci halda - Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyası istisna olmaqla), 10.3-cü maddələrində, 22.5-ci maddəsinin birinci cümləsində, 25.5-ci (birinci halda), 28.4-cü, 31.3-cü maddələrində, 91.4-cü maddənin ikinci cümləsində, 92.7-ci, 93.1-ci (hər iki halda) maddələrində, 98-4.2-ci, 98-5.4-cü və 98-5.5-ci maddələrinin birinci cümlələrində, 124-2.8-ci, 150.6-cı, 176.4-cü, 203-3.2-ci və 280.10-cu maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi həyata keçirir.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. altı ay müddətində aşağıdakılar barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin:

2.1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikasının Gömrük Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2026-cı il 19 iyun tarixli 424-VIIQD nömrəli Qanununa uyğunlaşdırılması;

2.1.2. Azərbaycan Respublikası Gömrük Məcəlləsinin 31.6-cı maddəsinə uyğun olaraq, səlahiyyətli iqtisadi operator statusunun verilməsinə dair şərtlərin, onun fəaliyyətinin yoxlanılması və qiymətləndirilməsi qaydasının layihəsi;

2.1.3. həmin Məcəllənin 54.2-ci maddəsinin üçüncü cümləsinə uyğun olaraq, "Dövlət maliyyəsinin səmərəli idarə edilməsinin təşkili ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 25 avqust tarixli 489 nömrəli Fərmanının 3.7-ci bəndi nəzərə alınmaqla, gömrük orqanlarının vəzifəli şəxslərinin maddi və sosial təminatı ilə bağlı əlavə haqların, kompensasiyaların, müavinətlərin və başqa ödənişlərin məbləğləri və təyin edilmə qaydası;

2.2. yeddi ay müddətində aşağıdakı normativ hüquqi aktları müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin:

2.2.1. həmin Məcəllənin 92.8-ci maddəsinin birinci cümləsinə uyğun olaraq, gömrük nəzarəti formalarının həyata keçirilməsi qaydasını;

2.2.2. həmin Məcəllənin 98.2-ci maddəsinin ikinci cümləsinə uyğun olaraq, gömrük auditinin aparılması qaydasını;

2.2.3. həmin Məcəllənin 98-7.3-cü maddəsinə uyğun olaraq, tələbnamənin formasını;

2.2.4. həmin Məcəllənin 111.4-cü maddəsinə uyğun olaraq, döyüş təyinatlı hərbi silah-sursatın, müdafiə və milli təhlükəsizlik ehtiyacları üçün satın alınan malların, canlı heyvanların, tez xarab olan malların, radioaktiv maddələrin, media (audiovizual, çap, onlayn media, informasiya agentlikləri) məqsədləri üçün materialların, Azərbaycan Respublikasının qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının, Azərbaycan Respublikası Mərkəzi Bankının ünvanlarına göndərilən və bu qəbildən olan başqa malların gömrük rəsmiləşdirilməsinin sadələşdirilmiş qaydalarını və pandemiya, yoluxucu xəstəliklər, təbii fəlakətlər, digər fövqəladə hallar və sosial xarakterli fövqəladə mühit zamanı zəruri olan malların və nəqliyyat vasitələrinin gömrük nəzarəti və rəsmiləşdirilməsinin güzəştli və sadələşdirilmiş qaydalarını;

2.2.5. həmin Məcəllənin 195.1-ci maddəsinin birinci cümləsinə uyğun olaraq, son istifadə xüsusi gömrük proseduru altında yerləşdirilən malların siyahısını;

2.2.6. həmin Məcəllənin 203-1.3-cü maddəsinə uyğun olaraq, malların rüsumsuz ticarət xüsusi gömrük proseduru altında yerləşdirilməsi qaydalarını;

2.3. "Azərbaycan Respublikasının Gömrük Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2026-cı il 19 iyun tarixli 424-VIIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi:

3.1. beş ay müddətində aşağıdakı normativ hüquqi aktları müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin:

3.1.1. Azərbaycan Respublikası Gömrük Məcəlləsinin 91.4-cü maddəsinin ikinci cümləsinə, 98-4.2-ci, 98-5.4-cü və 98-5.5-ci maddələrinin birinci cümlələrinə uyğun olaraq, aktların formasını;

3.1.2. həmin Məcəllənin 92.7-ci maddəsinə uyğun olaraq, bildirişin formasını;

3.1.3. həmin Məcəllənin 150.6-cı maddəsinə uyğun olaraq, gömrük bəyannaməsinin doldurulması qaydasını;

3.2. "Azərbaycan Respublikasının Gömrük Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2026-cı il 19 iyun tarixli 424-VIIQD nömrəli Qanunundan irəli gələn digər məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

4. "Azərbaycan Respublikası Gömrük Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 15 sentyabr tarixli 499 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 9, maddə 793 (Cild I); 2025, № 11, maddə 1018; 2026, № 2, maddə 123, № 3, maddə 226, № 3, maddə 228) aşağıdakı dəyişikliklər edilsin:

4.1. 28.1-ci bəndə "7.2-ci (ikinci halda)," sözlərindən sonra "7.3-cü (ikinci halda - Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyasına münasibətdə), 7.4-cü (ikinci halda - Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyasına münasibətdə)," sözləri, "13.1-ci," sözlərindən sonra "13-1.2-ci," sözləri, "29-cu" sözlərindən sonra ", 31.6-cı" sözləri və "ikinci cümləsində (birinci halda)," sözlərindən sonra "54.2-ci maddəsinin üçüncü cümləsində," sözləri əlavə edilsin;

4.2. 28.5-ci və 28.7-ci bəndlər aşağıdakı redaksiyada verilsin:

"28.5. həmin Məcəllənin 1.1.10-cu, 1.1.30-cu, 1.1.36-cı, 1.1.44-cü, 8.0.21-1-ci, 8.0.27-ci, 13.2-ci, 21.3-cü, 25.4-cü, 25.5-ci (ikinci halda), 26-cı, 27-ci, 33.1-ci, 36.2-ci, 37.1-ci, 40.2-ci, 40.3-cü, 42.2-ci, 43-cü, 44.1-ci (birinci halda) maddələrində, 53.5-ci maddəsinin ikinci cümləsində (ikinci halda), 58.1.2-ci, 64.3-cü maddələrində, 65.6-cı maddəsinin üçüncü cümləsində, 79.4-cü, 80.5-ci, 85.1-ci, 86.2-ci, 92.6.1-ci maddələrində, 92.8-ci maddəsinin birinci cümləsində, 94.2-ci maddəsində, 98.2-ci maddəsinin ikinci cümləsində, 98-7.3-cü, 102.4-cü, 105.2-ci,111.4-cü maddələrində, 113.1-ci maddəsinin üçüncü cümləsində, 113.3-cü, 124.2-ci, 124-1.2-ci maddələrində, 124-2.1-ci maddəsinin birinci cümləsində, 124-2.6-cı, 124-2.9-cu, 124-3.1-ci, 125.6-cı, 128.3-cü, 128.4-cü, 129.2-ci, 129-1.8-ci maddələrində, 130.2-ci maddəsinin birinci cümləsində, 131.1-ci, 131.5-ci, 135.1-ci, 135.3-cü, 140.1-ci, 140.2-ci, 141-ci, 146.3-cü, 149.3-cü, 150.3-cü, 151.1.4-cü, 152.2-ci, 153.2.3-cü, 154.4-cü, 155.1-ci, 155.4-cü, 156.3-cü maddələrində, 156.4-cü maddəsinin ikinci cümləsində, 156.5-ci maddəsində, 158.5-ci maddəsinin ikinci cümləsində, 158.8-ci, 158.9-cu, 163.5-ci, 164.4-cü, 165.6-cı, 167.1-ci, 167.2-ci maddələrində, 167.5-ci maddəsinin ikinci cümləsində, 168.1-ci, 170-ci, 173.5-ci, 174.4-cü, 174.5-ci, 175.3-cü, 175-1.1.3-cü, 175-1.7-ci, 176.3-cü, 181.5-ci, 183.1-ci, 183.3-cü, 187.2-ci maddələrində, 192.4-cü maddəsinin birinci cümləsində, 193.2-ci maddəsinin ikinci cümləsində, 193.3-cü, 194.3-cü maddələrində, 195.1-ci maddəsinin birinci cümləsində, 195.3-cü maddəsinin üçüncü cümləsində, 196.1-ci, 197.5-ci, 198.3-cü maddələrində, 200.1-ci və 200.3-cü maddələrinin ikinci cümlələrində, 200.4-cü maddəsinin üçüncü cümləsində, 200.5-ci maddəsində, 203.1-ci maddəsinin birinci cümləsində, 203-1.3-cü, 204.1-ci, 205.1-ci maddələrində, 208.2-ci maddəsinin birinci cümləsində, 210.2-ci, 210.4-cü, 213-cü, 214.1.4-cü, 215.1-ci, 217-ci, 222.5-ci, 223.4-cü, 224.3-cü, 224.3-1-ci, 224.4-cü maddələrində, 225.2-ci maddəsinin birinci cümləsində, 225.3-cü, 231.2-ci, 232.1-ci, 233-cü, 233-1-ci, 237.3-cü, 242.5-ci, 246.1-ci, 250.7-ci, 250.9-cu, 258.3-cü maddələrində, 261.2-ci maddəsinin ikinci cümləsində, 261.3-cü, 262.2-ci, 266.1-ci, 267.2-ci maddələrində, 279.2-ci maddəsinin birinci cümləsində, 280.4-cü maddəsinin ikinci cümləsində, 280.11-ci, 283.3-cü, 293.6-cı, 292-3.2-ci, 292-3.3-cü maddələrində, 295.5-ci maddəsinin birinci cümləsində, 299.1-ci, 300.5-ci maddələrində, 305.3-cü maddəsinin ikinci cümləsində, 306-cı maddəsində, 306-1.3-cü maddəsinin birinci cümləsində, 306-1.6-cı, 306-1.8-ci, 317.5-ci (ikinci halda), 319.5-ci, 322.10-cu, 322.15-ci, 327.2-ci maddələrində, 328.2-ci maddəsinin birinci cümləsində, 328.5-ci, 330.1-ci, 330.2-ci, 331.1-ci və 332.2-ci maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;";

"28.7. həmin Məcəllənin 1.1.19-cu, 1.1.23-cü, 2.4-cü, 4.5-ci maddələrində, 5-ci maddəsinin adında, 5.1-ci, 5.2-ci, 5.3-cü, 6.2-ci, 7.1-ci, 7.2-ci (birinci halda), 7.3-cü (birinci halda və ikinci halda - Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyası istisna olmaqla), 7.4-cü (birinci halda və ikinci halda - Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyası istisna olmaqla) maddələrində, 10-cu maddəsinin adında, 10.1-ci, 10.2-ci, 10.3-cü, 14.2-ci (birinci halda) maddələrində, 22.5-ci maddəsinin birinci cümləsində, 25.1-ci, 25.5-ci (birinci halda), 28.4-cü, 31.3-cü, 36.4-cü, 41.7-ci, 41.8-ci, 42.1-ci, 44.1-ci (ikinci halda), 44.2-ci, 44.3-cü, 44.4-cü, 45.1-ci maddələrində, 45.2-ci maddəsinin birinci cümləsində, 45.2.2-ci, 45.3-cü, 46.1-ci, 46.2-ci, 46.3-cü, 53.3-cü maddələrində, 53.5-ci maddəsinin ikinci cümləsində (üçüncü halda), 53.6-cı, 53.9-cu, 56.4-cü, 64.8-ci maddələrində, 91.4-cü maddəsinin ikinci cümləsində, 92.6.2-ci, 92.6.3-cü, 92.6.4-cü, 92.7-ci, 93.1-ci (hər iki halda), 93.2-ci maddələrində, 98-4.2-ci, 98-5.4-cü və 98-5.5-ci maddələrinin birinci cümlələrində, 99.1-ci maddəsinin üçüncü cümləsində, 100.2-ci, 101.2-ci, 101.3-cü, 101.5-ci, 106.2-ci, 106.4-cü, 124-2.8-ci, 146.4-cü, 150.6-cı, 176.4-cü, 203-3.2-ci, 216.3-cü (hər iki halda), 231.1.5-ci, 249.4-cü, 261.1-ci maddələrində, 261.2-ci maddəsinin birinci cümləsində, 261.4-cü, 279.1-ci, 280.1-ci, 280.6-cı maddələrində, 280.7-ci maddəsinin birinci cümləsində, 280.8-ci maddəsində, 280.9-cu maddəsinin birinci və ikinci cümlələrində, 280.10-cu maddəsində, 281.1-ci maddəsinin birinci və ikinci cümlələrində, 317.4-cü, 317.5-ci (birinci halda), 318.2-ci, 320.0-cı, 328.4-cü, 334.1.2-ci və 334.1.3-cü maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi həyata keçirir;".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 avqust 2026-cı il*

# Azərbaycan və İsveçrə XİN rəhbərləri ikitərəfli əməkdaşlığı və regional gündəliyi müzakirə ediblər

**Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ölkəmizdə səfərdə olan İsveçrənin Federal Şurasının üzvü və Federal Xarici İşlər Departamentinin rəhbəri, ATƏT-in fəaliyyətdə olan sədri İqnasio Kassis ilə geniş tərkibdə görüş keçirib.**

AZƏRTAC xəbər verir ki, nazirlər Azərbaycan-İsveçrə ikitərəfli gündəliyini, İsveçrənin ATƏT-ə sədrliyinin prioritetlərini, Azərbaycan-ATƏT əməkdaşlığının mövcud vəziyyətini və gələcək perspektivlərini, habelə regiondakı münaqişədən sonrakı vəziyyəti və Azərbaycan-Ermənistan normallaşma prosesini müzakirə ediblər.

Nazirlərin görüşündə vurğulanıb ki, gələn il Azərbaycan və İsveçrə diplomatik münasibətlərin qurulmasının 35 illiyini qeyd edəcək və bu mühüm yubileyi keçən müddət ərzində inkişaf etdirilmiş tərəfdaşlığa nəzər salmaq üçün bir fürsət kimi dəyərləndiriblər.

Tərəflər Xarici İşlər nazirlikləri arasında yüksəksəviyyəli təmasların və müntəzəm siyasi məsləhətləşmələrin davam etdirilməsinin vacibliyini vurğulayıblar. Bu baxımdan cari ilin aprel ayında Bakıda keçirilmiş siyasi məsləhətləşmələrin sonuncu raundunun əhəmiyyətini qeyd edərək, bu mexanizmin müntəzəm əsasda davam etdirilməsinin vacibliyini bildiriblər.

Müzakirələr Ticarət və İqtisadi Əməkdaşlıq üzrə Birgə Komissiyanın fəaliyyəti də daxil olmaqla, iqtisadi əməkdaşlığın genişləndirilməsinə yönəlib.

Enerji sektorunun ikitərəfli iqtisadi münasibətlərin əsas sütunlarından biri olduğu vurğulanıb. Bu çərçivədə SOCAR Energy şirkətinin İsveçrədə uğurlu fəaliyyəti qarşılıqlı faydalı əməkdaşlığın mühüm nümunəsi kimi qeyd olunub.



Nazirlər həmçinin humanitar əlaqələrin daha da möhkəmləndirilməsi məqsədilə mədəniyyət, təhsil və elm sahələrində əməkdaşlığın genişləndirilməsinin vacibliyini vurğulayıblar.

ATƏT-in fəaliyyətdə olan sədri kimi İsveçrənin prioritetlərinə xüsusi diqqət yetirilib. Azərbaycan sədrliyin elm və diplomatiya, innovativ texnologiyalar, su ehtiyatlarının idarə olunması, enerji təhlükəsizliyi və rəqəmsal təhlükəsizlik sahələrinə diqqətini alqışlayaraq, bu istiqamətlərin müasir çağırışların həllində mühüm əhəmiyyət kəsb etdiyini vurğulayıb.

Nazir Ceyhun Bayramov bildirib ki, ATƏT məkanında təhlükəsizlik mühitinin getdikcə daha mürəkkəb xarakter aldığı bir şəraitdə, təşkilat öz aktuallığını və regional təhlükəsizlik məsələlərinin həllində rolunu qorumaq üçün hərtərəfli təhlükəsizlik konsepsiyasından və geniş coğrafi üzvlüyündən tam istifadə etməlidir. O, iştirakçı dövlətlərin suveren bərabərliyi, qarşılıqlı hörmət, inklüziv dialoq və konsensus prinsiplərinə əsaslanan səmərəli çoxtərəfliliyə Azərbaycanın dəstəyini bir daha təsdiqləyib.

Azərbaycan-Ermənistan normallaşma prosesinə toxunan nazir Ceyhun Bayramov həmkarını sülh prosesinin hazırkı mərhələsi, iki ölkə arasında de-fakto bərqərar olmuş sülh və həyata keçirilən etimad quruculuğu tədbirləri barədə məlumatlandırıb. O vurğulayıb ki, ikitərəfli format çərçivəsində əldə olunan irəliləyiş bu yanaşmanın səmərəliliyini bir daha nümayiş etdirir.

ATƏT ilə əməkdaşlığa dair nazir Ceyhun Bayramov Azərbaycanın təşkilatın müvafiq təcrübəyə malik olduğu və əlavə dəyər təqdim edə biləcəyi qarşılıqlı maraq doğuran sahələrdə praktik əməkdaşlığı davam etdirməyə hazır olduğunu bir daha bəyan edib.

Nazir həmçinin Azərbaycanın ərazilərinin minalar və müharibənin digər partlayıcı qalıqları ilə genişmiqyaslı çirklənməsinə diqqət çəkərək, bunu ölkənin qarşısında duran ən ciddi humanitar problemlərdən biri kimi qiymətləndirib. O, bu məsələnin həllində ATƏT-in öz mandatı və imkanları çərçivəsində praktiki dəstəyinin vacibliyini vurğulayıb.

Görüş zamanı Ukrayna ətrafındakı vəziyyət, Yaxın Şərqdə baş verən hadisələr, eləcə də digər regional və beynəlxalq təhlükəsizlik məsələləri üzrə fikir mübadiləsi aparılıb.

Yekunda mətbuat konfransı keçirilib. Mətbuat konfransında bəyanatlarla çıxış edən nazirlər media nümayəndələrinin suallarını cavablandırıblar.

## 2029-cu ildə Azərbaycan Respublikasında əhalinin siyahıyaalınmasına hazırlıq və onun keçirilməsi ilə bağlı tədbirlər planı haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 248**

**Bakı şəhəri, 31 iyul 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "2029-cu ildə Azərbaycan Respublikasında əhalinin siyahıyaalınmasının keçirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 7 iyul tarixli 714 nömrəli Fərmanının 3-cü hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. 2029-cu ildə Azərbaycan Respublikasında əhalinin siyahıyaalınmasına hazırlıq və onun keçirilməsi ilə bağlı Əhalinin Siyahıyaalınmasına Yardım üzrə Mərkəzi Komissiya yaradılsın.

2. Əhalinin Siyahıyaalınmasına Yardım üzrə Mərkəzi Komissiyanın tərkibi təsdiq edilsin (1 nömrəli əlavə).

3. Əhalinin Siyahıyaalınmasına Yardım üzrə Mərkəzi Komissiya:

3.1. bu Qərarın icrası ilə bağlı dövlət orqanlarının (qurumlarının) fəaliyyətini əlaqələndirsin, onların qarşılıqlı fəaliyyətinin təmin edilməsi və yaranan problemlərin operativ həlli üçün zəruri tədbirlər görsün;

3.2. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin təqdimatı əsasında bu Qərarın 3 nömrəli əlavəsində nəzərdə tutulmuş siyahıyaalma qrupunun işçilərinin aylıq vəzifə maaşlarının və siyahıyaalma məntəqələrinə cəlb ediləcək şəxslərin xidmət haqlarının məbləğlərinin müəyyən edilməsi barədə təkliflərini iki ay müddətində Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin;

3.3. əhalinin siyahıyaalınmasına hazırlıq və onun keçirilməsi üzrə tədbirlərin icra vəziyyətini mütəmadi nəzərdən keçirsin və bu Qərarın icrasının gedişi barədə hər 6 (altı) aydan bir Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat təqdim etsin.

4. Azərbaycan Respublikasında əhalinin siyahıyaalınması 2029-cu il oktyabrın 1-i saat 00:00 vəziyyətinə keçirilsin.

5. Əhalinin siyahıyaalınmasına hazırlıq vəziyyətinin qiymətləndirilməsi məqsədilə 2028-ci il oktyabrın 1-dən 31-dək Xaçmaz rayonunda əhalinin sınaq siyahıyaalınması keçirilsin.

6. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi:

6.1. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsində əhalinin siyahıyaalınmasına hazırlıq işlərinin görülməsini, onun keçirilməsini, yekunlarının işlənilməsini və nəticələrinin dərc edilərək yayılmasını təmin etmək məqsədilə bu Qərarın 3 nömrəli əlavəsində göstərilən vəzifələr üzrə işçilərdən ibarət siyahıyaalma qrupu yaratsın, qrupun işçi sayını hər il üçün həmin əlavə ilə müəyyən edilmiş həddə uyğun formalaşdırsın və işçilərin müddətli əmək müqaviləsi əsasında işə qəbulunu təmin etsin;

6.2. əhalinin siyahıyaalınmasının, o cümlədən sınaq siyahıyaalınmasının başlanmasına 1 (bir) ay qalmış şəhər, qəsəbə və kəndlərdə orta hesabla 20 min nəfər əhalini əhatə edən siyahıyaalma məntəqələri yaratsın və həmin məntəqələri aşağıdakı işçilərlə komplektləşdirsin:

6.2.1. təlimatçı-nəzarətçilər (orta hesabla 5 sayıcıya bir təlimatçı-nəzarətçi hesabı ilə);

6.2.2. sayıcılar (orta hesabla hər 400 nəfər əhaliyə bir əsas və 20 min nəfər əhaliyə bir ehtiyat sayıcı hesabı ilə);

6.3. siyahıyaalma məntəqələrinin işçilərlə komplektləşdirilməsini rayon (şəhər) məşğulluq orqanlarında işaxtaran və işsiz kimi qeydiyyata alınmış şəxsləri, iş yerlərində əməkhaqları saxlanılmaqla yerli icra hakimiyyəti orqanlarının, bələdiyyələrin, idarələrin, müəssisələrin və təşkilatların işçilərini, müəllim və tələbələri, uçot sahəsində səriştəsi olan digər şəxsləri mülki-hüquqi müqavilələr üzrə cəlb etməklə həyata keçirsin;

6.4. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumat bazasına Elektron Hökumət İnformasiya Sistemi (bundan sonra - EHİS) vasitəsilə inteqrasiya olunacaq aidiyyəti dövlət orqanlarının (qurumlarının) dövlət informasiya ehtiyatlarında, dövlət reyestrlərində, informasiya sistemlərində, elektron məlumat bazalarında və digər informasiya resurslarında saxlanılan, əhalinin siyahıyaalınması məqsədləri üçün istifadəsi mümkün olan inzibati məlumatların siyahısını 2026-cı il sentyabrın 1-dək müəyyən etsin;

6.5. aidiyyəti dövlət orqanları (qurumları) ilə razılaşdırmaqla, bu Qərarın 6.6-cı bəndinə uyğun olaraq müəyyən edilmiş inzibati məlumatların Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumat bazasına EHİS vasitəsilə inteqrasiyasının təmin edilməsi ilə bağlı müvafiq normativ hüquqi aktlarda zəruri dəyişikliklərə dair təkliflərini hazırlayıb 2026-cı il noyabrın 1-dək Əhalinin Siyahıyaalınmasına Yardım üzrə Mərkəzi Komissiyaya təqdim etsin;

6.6. dövlət orqanlarının (qurumlarının) dövlət informasiya ehtiyatlarında, dövlət reyestrlərində, informasiya sistemlərində, elektron məlumat bazalarında və digər informasiya resurslarında olan müvafiq məlumatların Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumat bazasına EHİS vasitəsilə inteqrasiyası ilə bağlı aidiyyəti qurumlarla birlikdə müvafiq tədbirlərin həyata keçirilməsini təmin etsin;

6.7. 2029-cu ildə Azərbaycan Respublikasında əhalinin siyahıyaalınmasının hazırlanıb keçirilməsi üzrə təqvim planını 2027-ci il fevralın 1-dək təsdiq etsin;

6.8. əhalinin siyahıyaalınması, o cümlədən sınaq siyahıyaalınması ilə bağlı hazırlıq işlərinin görülməsini, onların keçirilməsini, yekunlarının işlənilməsini və nəticələrinin dərc edilərək yayılmasını təmin etmək məqsədilə siyahıyaalmaya cəlb ediləcək şəxslərin əməkhaqqının və xidmət haqlarının ödənilməsi, planşet tipli kompüterlərin, proqram təminatlarının, serverlərin və digər informasiya-kommunikasiya texnologiyaları avadanlıqlarının, eləcə də zəruri digər malların, işlərin və xidmətlərin satın alınması üçün 2027-2030-cu illər üzrə hər növbəti il üçün maliyyə vəsaitinə olan tələbatı müəyyənləşdirib müvafiq büdcə layihəsini hər il iyulun 1-dək Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə təqdim etsin;

6.9. Əhalinin Statistik Reyestrinin yaradılmasına dair təkliflərini 2027-ci il iyulun 1-dək Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin;

6.10. Azərbaycan Respublikasının müvafiq dövlət orqanlarının (qurumlarının) və elm təşkilatlarının iştirakı ilə əhalinin siyahıyaalınmasının keçirilməsi üzrə siyahıyaalma və sorğu vərəqələrinin layihələrini 2027-ci ilin sonunadək hazırlayıb təsdiq etsin, habelə siyahıyaalma məlumatlarının emalı və yekun nəticələrinin əldə edilməsi üçün zəruri proqram təminatlarının Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin texniki və səmərəlilik baxımından məqsədəuyğunluğuna dair rəyi alınmaqla hazırlanmasını təmin etsin;

6.11. 2029-cu ildə Azərbaycan Respublikasında əhalinin siyahıyaalınmasının keçirilməsinə dair metodiki sənədləri hazırlayıb təsdiq etsin, əhalinin siyahıyaalınmasının, o cümlədən sınaq siyahıyaalınmasının başlanmasına azı 6 (altı) ay qalmış həmin metodiki sənədlərin və digər materialların, habelə əhalinin məlumatlandırılması üçün nəzərdə tutulmuş əyani vəsaitlərin çapını, reklam çarxlarının hazırlanmasını təmin etsin;

6.12. əhalinin siyahıyaalınmasının əhəmiyyəti, onun mütəşəkkil keçirilməsində vətəndaşların rolu, köməyi və digər məsələlər haqqında media subyektlərində xüsusi maarifləndirici materialların və reklam çarxlarının yayımlanması ilə bağlı zəruri tədbirlər görsün;

6.13. 2028-ci ilin sonunadək əhalinin siyahıyaalınması ilə bağlı şəhər, rayon və şəhər rayonları üzrə təşkilati planların tərtib olunmasını təmin etsin;

6.14. əhalinin siyahıyaalınmasına, o cümlədən sınaq siyahıyaalınmasına cəlb ediləcək təlimatçı-nəzarətçilərin və sayıcıların seçilib təlimatlandırılmasını müvafiq olaraq 2029-cu və 2028-ci illərin avqust-sentyabr aylarında təmin etsin;

6.15. əhalinin siyahıyaalınmasına hazırlıq və onun keçirilməsi ilə əlaqədar bu Qərarla tənzimlənməyən məsələlərə dair Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarının qəbul edilməsi tələb olunduqda müvafiq təkliflərini təqdim etsin;

6.16. Əhalinin Siyahıyaalınmasına Yardım üzrə Mərkəzi Komissiyanın katibliyinin funksiyalarını həyata keçirsin.

7. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti, Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəlikləri və Azərbaycan Respublikasının şəhər, rayon və şəhər rayonlarının icra hakimiyyəti orqanları:

7.1. siyahıyaalma ilə əlaqədar hazırlıq və onun keçirilməsi üzrə nəzərdə tutulmuş tədbirlərin vaxtında və mütəşəkkil yerinə yetirilməsini, habelə bu prosesdə yaranan çətinliklərin operativ surətdə aradan qaldırılmasını təmin etmək məqsədilə 2026-cı ilin sonunadək Naxçıvan Muxtar Respublikası Baş nazirinin müavininin, Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndələrinin müavinlərinin, şəhər, rayon və şəhər rayonlarının icra hakimiyyəti başçılarının müavinlərinin sədrliyi ilə əhalinin siyahıyaalınmasına yardım komissiyaları yaratsınlar;

7.2. 2028-ci il oktyabrın 1-dək yaşayış məntəqələrinin adlarının və inzibati sərhədlərinin dəqiqləşdirilməsini, küçələrin adlarının, məhəllələrin, evlərin və mənzillərin nömrələrinin qaydaya salınmasını, şəhər, qəsəbə, kənd və sahə inzibati ərazi dairələri üzrə təsərrüfatbaşına uçot sənədləri əsasında Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin təsdiq etdiyi formalar üzrə məlumatların yerli statistika orqanlarına təhvil verilməsini təmin etsinlər, 2028-ci ilin oktyabr ayından 2029-cu ilin sonunadək inzibati ərazi bölgülərinin və yaşayış məntəqələrinin adlarının və onlardakı ünvanların dəyişdirilməsi barədə təklif verilməsini dayandırsınlar;

7.3. 2029-cu il avqustun 1-dək əhalinin siyahıyaalınmasına hazırlıq və onun keçirilməsi üçün siyahıyaalma məntəqələrinin yerləşdirilməsi məqsədilə telefon və internet rabitəsi, habelə digər zəruri avadanlıqla təchiz olunmuş sahələr ayırsınlar.

8. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi əhalinin siyahıyaalınması, o cümlədən sınaq siyahıyaalınması ilə bağlı hazırlıq işlərinin görülməsini, onların keçirilməsini, yekunlarının işlənilməsini və nəticələrinin dərc edilərək yayılmasını təmin etmək məqsədilə siyahıyaalmaya cəlb ediləcək şəxslərin əməkhaqqının və xidmət haqlarının ödənilməsi, planşet tipli kompüterlərin, proqram təminatlarının, serverlərin və digər informasiya-kommunikasiya texnologiyaları avadanlıqlarının, eləcə də zəruri digər malların, işlərin və xidmətlərin satın alınması üçün Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi tərəfindən təqdim edilmiş maliyyə tələbatı nəzərə alınmaqla 2027-2030-cu illərin dövlət büdcəsinin layihələrində hər il müvafiq məbləğdə vəsaitin nəzərdə tutulmasını təmin etsin.

9. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi və "Azərişıq" Açıq Səhmdar Cəmiyyəti sahibi və (və ya) operatoru olduqları dövlət informasiya ehtiyatlarından, dövlət reyestrlərindən, informasiya sistemlərindən, elektron məlumat bazalarından və digər informasiya resurslarından bu Qərarın 6.6-cı bəndinə uyğun olaraq müəyyən edilmiş inzibati məlumatların Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumat bazasına EHİS vasitəsilə inteqrasiyasını və həmin məlumatların mütəmadi yenilənməsini təmin etsinlər.

10. Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi, Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi və Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi tərəfindən müəyyən edilmiş qaydada və təyin olunmuş müddətdə tabeliklərindəki rejimli obyektlərdə olan şəxslərin siyahıyaalınmasını və siyahıyaalma materiallarının Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinə təqdim olunmasını təmin etsinlər.

11. Bu Qərarın 2 nömrəli əlavəsində göstərilən dövlət orqanları (qurumları) Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi tərəfindən müəyyən edilmiş qaydada və təyin olunmuş müddətdə tabeliklərindəki rejimli obyektlərdə olan şəxslərin siyahıyaalınmasını və siyahıyaalma materiallarının Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinə təqdim olunmasını təmin etsinlər.

12. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi tərəfindən müəyyən edilmiş qaydada və təyin olunmuş müddətdə xarici ölkələrdə yaşayan Azərbaycan Respublikası vətəndaşlarının siyahıyaalınmasını və siyahıyaalma materiallarının Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinə təqdim olunmasını təmin etsin.

13. Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəlikləri, şəhər, rayon və şəhər rayonlarının icra hakimiyyəti orqanları Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi tərəfindən müəyyən edilmiş qaydada və təyin olunmuş müddətdə mehmanxanalarda, qatarlarda, gəmilərdə, hava və dəniz limanlarında, vağzallarda və stansiyalarda hərəkətdə olan əhalinin siyahıyaalınmasının aparılması üçün zəruri tədbirlərin görülməsini təmin etsinlər.

14. Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi:

14.1. bu Qərarın 6.6-cı bəndinə uyğun olaraq müəyyən edilmiş məlumatların Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumat bazasına EHİS vasitəsilə inteqrasiyasını, habelə məlumat mübadiləsinin fasiləsizliyini, dayanıqlılığını və təhlükəsizliyini təmin etmək üçün zəruri texniki tədbirlər görsün;

14.2. əhalinin siyahıyaalınması dövründə telekommunikasiya şəbəkələrinin işinin dayanıqlılığını təmin etmək üçün zəruri tədbirlər görsün;

14.3. aidiyyəti dövlət orqanları (qurumları) ilə birlikdə bu Qərarın 6.6-cı bəndinə uyğun olaraq müəyyən edilmiş və Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumat bazasına EHİS vasitəsilə inteqrasiya ediləcək inzibati məlumatların keyfiyyətinin artırılması üzrə zəruri tədbirlərin görülməsini təmin etsin.

15. Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi və Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi dövlət informasiya ehtiyatlarından, dövlət reyestrlərindən, informasiya sistemlərindən, elektron məlumat bazalarından və digər informasiya resurslarından Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumat bazasına EHİS vasitəsilə inteqrasiya edilən, habelə əhalinin siyahıyaalınmasında əldə olunan fərdi məlumatların işlənilməsinə və mühafizəsinə dair normativ hüquqi aktların tələblərinin təmin olunması ilə bağlı tədbirlər görsünlər.

16. Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti və Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumat bazasının kibertəhlükəsizliyinin təmin edilməsi üçün zəruri tədbirlər görsünlər.

17. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi siyahıyaalma kadrlarına olan tələbatın ödənilməsi məqsədilə rayon (şəhər) məşğulluq orqanlarında işaxtaran və işsiz kimi qeydiyyata alınmış, uçot sahəsində səriştəsi olan şəxslərin əhalinin siyahıyaalınmasının keçirilməsinə cəlb edilməsində Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinə kömək göstərsin.

18. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi şəhər, rayon və şəhər rayonlarının yaşayış məntəqələri üzrə rəqəmsal kartoqrafiya materiallarını və müvafiq sxematik planları 2028-ci il sentyabrın 1-dək (Xaçmaz rayonu üzrə 2027-ci il sentyabrın 1-dək) Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinə təqdim etsin.

19. Xaçmaz Rayon İcra Hakimiyyəti əhalinin sınaq siyahıyaalınmasının keçirilməsini təmin etmək məqsədilə bu Qərarın 7.2-ci və 7.3-cü bəndlərində nəzərdə tutulan hazırlıq işlərinin Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi tərəfindən təsdiq edilmiş təqvim planında nəzərdə tutulmuş müddətdə yerinə yetirilməsini təmin etsin.

20. "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti Azərbaycan Respublikasında əhalinin siyahıyaalınmasına hazırlıq və onun keçirilməsi ilə bağlı radioda və televiziyada müntəzəm olaraq xüsusi verilişlər təşkil etsin və bununla bağlı həyata keçirilən tədbirlərin geniş işıqlandırılmasını təmin etsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

## Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində yerləşən su obyektinin bərpaolunan enerji mənbələrinin ərazisi kimi müəyyən edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 251**

**Bakı şəhəri, 31 iyul 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Elektrik enerjisi istehsalında bərpaolunan enerji mənbələrindən istifadə haqqında" Azərbaycan Respublikasının 2021-ci il 31 may tarixli 339-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 12 iyul tarixli 1387 nömrəli Fərmanının 2.4-cü bəndinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Elektrik enerjisi istehsalında bərpaolunan enerji mənbələri potensialından daha səmərəli istifadənin təmin edilməsi məqsədilə dənizdə külək-elektrik stansiyalarının tikintisi ilə əlaqədar Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində yerləşən ümumi sahəsi 711,4 kvadratkilometr təşkil edən su obyekti bərpaolunan enerji mənbələrinin ərazisi kimi müəyyən edilsin (su obyektinin yerləşdiyi yeri, ölçülərini və sərhədlərini göstərən yerquruluşu xəritəsi əlavə olunur).

2. Azərbaycan Respublikasının Energetika Nazirliyi bu Qərarın 1-ci hissəsi ilə müəyyən edilmiş bərpaolunan enerji mənbələrinin ərazisində elektrik enerjisi istehsalçısının seçilməsi ilə bağlı tədbirləri Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 2 avqust tarixli 2285 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Bərpaolunan enerji mənbələrinin ərazisində elektrik enerjisi istehsalçısının seçilməsi Qaydası"nın tələblərinə uyğun həyata keçirsin.

3. Bu Qərar qüvvəyə mindiyi tarixdən elektrik enerjisinin istehsalı məqsədilə bərpaolunan enerji mənbələrinin ərazisi kimi müəyyən edilmiş 711,4 kvadratkilometr sahəsi olan su obyektində külək-elektrik stansiyalarının tikintisinə icazə "Elektrik enerjisi istehsalında bərpaolunan enerji mənbələrindən istifadə haqqında" Azərbaycan Respublikası Qanununun 6.7-ci maddəsində nəzərdə tutulmuş müddətdə Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinə uyğun olaraq alınır.

4. Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi bu Qərarın 3-cü hissəsinə uyğun olaraq, tikintiyə icazə verildikdə həmin gündən, müəyyən edilmiş müddətdə tikintiyə icazə verilmədikdə isə müddət başa çatdığı gündən 3 (üç) gün müddətində bu barədə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

5. Bu Qərarın icrasına nəzarət Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının Aqrar və ekologiya şöbəsinə həvalə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## "Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 11 sentyabr tarixli 167 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında notariat hərəkətlərinin aparılması qaydaları haqqında Təlimat"da dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 253**

**Bakı şəhəri, 3 avqust 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Notariat haqqında" və "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 30 dekabr tarixli 336-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 9 fevral tarixli 596 nömrəli Fərmanının 2-ci hissəsinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 11 sentyabr tarixli 167 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 9, maddə 693 (Cild I); 2024, № 1, maddələr 110, 111, № 3, maddə 359, № 5 (II kitab), maddələr 597, 606, № 9, maddə 1067; 2025, № 2, maddə 193, № 7, maddə 698; 2026, № 3, maddələr 285, 289, № 4, maddə 387; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2026-cı il 6 may tarixli 132 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında notariat hərəkətlərinin aparılması qaydaları haqqında Təlimat"ın 7-ci hissəsinə aşağıdakı məzmunda otuz ikinci abzas əlavə edilsin:

"Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq kommersiya hüquqi şəxsləri üzrə nizamnamə kapitalındakı payın özgəninkiləşdirilməsi ilə bağlı müqavilələr, nizamnamə kapitalındakı payın vərəsəlik qaydasında digər şəxsə keçməsi, nizamnamə kapitalındakı payın yüklü edilməsi, təsisçisi və qanuni təmsilçisi eyni şəxs olan kommersiya hüquqi şəxsin təsisçisi öldükdə notariat orqanı tərəfindən mirasın qorunması üçün tədbirlər çərçivəsində əmlak idarəçisinin təyin olunması ilə əlaqədar məlumatlar Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə real vaxt rejimində İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinə ötürülür.".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## "Sığortalıların təqdim etdiyi məlumatlar əsasında sığorta olunanların və sığortalıların sığortaçıda uçotu Qaydası"nın, "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında" Azərbaycan Respublikası Qanununun 2-1.1-ci maddəsində nəzərdə tutulan sığorta olunanlara münasibətdə sığorta məbləğinin müəyyənləşdirilməsi Qaydası"nın, "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında" Azərbaycan Respublikası Qanununun 2-1.1-ci maddəsində nəzərdə tutulan sığorta olunanların icbari sığortası üzrə sığorta ödənişinin məbləği və verilməsi Qaydası"nın və "Sığorta vəsaitindən, o cümlədən sığorta ehtiyatı fondundan istifadə Qaydası"nın təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 256**

**Bakı şəhəri, 3 avqust 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının Vergi Məcəlləsində, "Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında", "Sosial sığorta haqqında", "Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında", "Məhkəmə və hüquq mühafizə orqanları işçilərinin dövlət icbari şəxsi sığortası haqqında", "Tibbi sığorta haqqında", "Dövlət rüsumu haqqında", "Şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında", "Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərində və konsulluqlarında xidmət keçən diplomatik xidmət orqanı əməkdaşlarının dövlət icbari şəxsi sığortası haqqında", "Hemofiliya və talassemiya irsi qan xəstəliklərinə düçar olmuş şəxslərə dövlət qayğısı haqqında", "Sığorta fəaliyyəti haqqında", "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında", "Dağınıq skleroz xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında", "Uşaqların icbari dispanserizasiyası haqqında", "Gömrük tarifi haqqında", "Nağdsız hesablaşmalar haqqında" və "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 9 dekabr tarixli 297-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və Sərəncamında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 29 dekabr tarixli 563 nömrəli Fərmanının 2.2.1-2.2.4-cü yarımbəndlərinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Sığortalıların təqdim etdiyi məlumatlar əsasında sığorta olunanların və sığortalıların sığortaçıda uçotu Qaydası" təsdiq edilsin *(əlavə olunur)*.

2. "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında" Azərbaycan Respublikası Qanununun 2-1.1-ci maddəsində nəzərdə tutulan sığorta olunanlara münasibətdə sığorta məbləğinin müəyyənləşdirilməsi Qaydası" təsdiq edilsin *(əlavə olunur)*.

3. "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında" Azərbaycan Respublikası Qanununun 2-1.1-ci maddəsində nəzərdə tutulan sığorta olunanların icbari sığortası üzrə sığorta ödənişinin məbləği və verilməsi Qaydası" təsdiq edilsin *(əlavə olunur)*.

4. "Sığorta vəsaitindən, o cümlədən sığorta ehtiyatı fondundan istifadə Qaydası" təsdiq edilsin (əlavə olunur).

5. Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti, Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidməti, Azərbaycan Respublikasının Dövlət Mühafizə Xidməti və Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti bu Qərar qüvvəyə mindiyi tarixdən 15 (on beş) iş günü müddətində barələrində məlumatların məxfiləşdirilməsi nəzərdə tutulan sığorta olunanlara unikal kodun verilməsi üçün Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fonduna müraciət etsinlər.

6. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi:

6.1. Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin, Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin, Azərbaycan Respublikası Xarici Kəşfiyyat Xidmətinin, Azərbaycan Respublikası Dövlət Mühafizə Xidmətinin və Azərbaycan Respublikası Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin bu Qərarın 5-ci hissəsinə uyğun olaraq edilən müraciətləri daxil olduğu tarixdən 1 (bir) ay müddətində barələrində məlumatların məxfiləşdirilməsi nəzərdə tutulan hər bir sığorta olunana tabeliyində Dövlət Sosial Müdafiə Fondu tərəfindən unikal kodun verilməsini təmin etsin;

6.2. bu Qərardan irəli gələn digər məsələləri həll etsin.

7. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə"nin 3.5-ci bəndinə uyğun edilə bilər.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

# Gömrük Komitəsinin sədri Qusarda vətəndaşların müraciətlərini dinləyib

**Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşlarla görüş keçirir, onların müxtəlif məsələlərlə bağlı müraciətlərinin, ərizə və şikayətlərinin müsbət həlli üçün müvafiq tədbirlər görürlər.**



Avqustun 4-də Dövlət Gömrük Komitəsinin (DGK) sədri, gömrük xidməti general-polkovniki Şahin Bağırov Qusar şəhərində - Qusar, Quba, Xaçmaz və Şabran rayonlarından olan vətəndaşlarla görüşüb.

Komitə sədri görüşdən öncə Qusar şəhərinin mərkəzində Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edərək önünə gül dəstəsi qoyub.

Komitənin müvafiq strukturlarının rəhbərlərinin iştirakı ilə keçirilən görüşdə Qusar, Quba, Xaçmaz və Şabran rayonlarının sakinlərinin müraciətləri dinlənilib. Vətəndaşların müraciətləri əsasən işə qəbul və digər gömrük məsələləri ilə bağlı olub.

Görüş zamanı hər bir vətəndaşın müraciəti diqqətlə dinlənilib və qaldırılan məsələlərin bir qismi yerindəcə həllini tapıb, araşdırılması tələb olunan bəzi müraciətlərlə bağlı müvafiq tədbirlər görülməsi üçün aidiyyəti strukturların rəhbərlərinə tapşırıqlar verilib.

*"Azərbaycan"*

# Baş prokuror paytaxtın Nəsimi rayonunda vətəndaşları qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırıqlarına uyğun olaraq prokurorluq orqanları tərəfindən vətəndaşların qəbulu daim diqqətdə saxlanılmaqla onların ərizə və şikayətlərinin yerində dinlənilərək həll olunması üçün müvafiq tədbirlər görülür.**



Avqustun 4-də baş prokuror Kamran Əliyev Bakı şəhəri Nəsimi Rayon Prokurorluğunun inzibati binasında Nəsimi rayonundan olan vətəndaşları qəbul edib.

Baş prokuror qəbuldan əvvəl Ümummilli Lider Heydər Əliyevin Nəsimi rayonu ərazisində yerləşən abidəsini ziyarət edərək dahi şəxsiyyətin əziz xatirəsini ehtiramla yad edib.

Qəbulda iştirak edən 40 nəfər vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı, törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları və məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsinə dair məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.

*"Azərbaycan"*

# Daha bir mərhələ keçildi

## "Yeni Səngəçal" yarımstansiyası "Şəfəq" GES-i ölkənin enerji sisteminə inteqrasiya edəcək

**Xəbər verildiyi kimi, bu günlərdə "Azərenerji" ASC-nin 220/110/10 kV-luq "Yeni Səngəçal" yarımstansiyası açılıb. Açılışda Prezident İlham Əliyevin iştirak etməsi hadisənin önəminə bir daha diqqət çəkir.**

Bu, irimiqyaslı bir "yaşıl enerji" layihəsidir və Cəbrayıl rayonundakı 240 meqavat gücündə "Şəfəq" Günəş-Elektrik Stansiyasının Azərbaycanın enerji sisteminə inteqrasiyasını və Səngəçal terminalının ölkənin vahid enerji sistemi vasitəsilə elektrik enerjisi ilə təmin olunmasını nəzərdə tutur. Layihə "Azərenerji" ASC ilə BP şirkəti arasında imzalanmış əməkdaşlıq müqaviləsi çərçivəsində icra olunub.

Xatırladaq ki, keçən ilin iyun ayında təsdiqlənmiş 200 milyon dollar dəyərində "Şəfəq" layihəsi çərçivəsində işğaldan azad olunmuş Cəbrayıl rayonunda eyniadlı yeni günəş-elektrik stansiyası tikilir. Stansiyanın təməli 2024-cü ilin noyabrında COP29-un keçirildiyi günlərdə qoyulub. Layihə 2021-ci ilin iyununda Energetika Nazirliyi ilə BP arasında imzalanmış İcra Müqaviləsi əsasında həyata keçirilir.

"Şəfəq" layihəsi Səngəçal terminalının elektrikləşdirilməsi (STEL) layihəsi ilə "virtual enerji ötürmə mexanizmi" adlanan yeni kommersiya modeli vasitəsilə sıx əlaqəlidir. Bu mexanizmə əsasən, Səngəçal terminalı "Azərenerji" ASC-nin idarə etdiyi dövlət elektrik şəbəkəsinə qoşulacaq.

Bunun üçün terminal ərazisinin həm daxilində, həm də ondan kənarda yeni obyektlər tikilməsi nəzərdə tutulmuşdu ki, onlardan biri də açılışı edilən 220/110 kV-luq elektrik yarımstansiyasıdır.

Qeyd edək ki, ilkin mərhələdə "Azərenerji" tərəfindən Cəbrayıl rayonunda tikilən 330 kV-luq yarımstansiyanın açılışı dövlətimizin başçısının iştirakı ilə bu ilin mayında olub. Həmin yarımstansiyanı ölkənin enerji şəbəkəsinə qoşmaq üçün "Cəbrayıl" Enerji Qovşağına 7,5 kilometr uzunluğunda 330 kV-luq ikidövrəli yüksəkgərginlikli ötürmə xətti çəkilib. Bu infrastruktur "yaşıl enerji"nin ölkə üzrə hərəkətini təmin edən strateji bir körpüdür.

Yarımstansiya müasir rəqəmsal sistemlər, açıq və qapalı, həmçinin idarəetmə qurğuları, Rəqəmsal İdarəetmə Mərkəzi ilə təchiz edilib. Rəqəmsal İdarəetmə Mərkəzində məsafədən idarəetməni təmin edən mikro-SCADA dispetçer sistemi qurulub, mərkəzi SCADA sisteminə inteqrasiya olunub.



"Şəfəq" Günəş-Elektrik Stansiyasının enerji sisteminə inteqrasiyası üçün həyata keçirilən layihənin əsas məqsədi dövlət və özəl sektor əməkdaşlığını gücləndirmək, karbon emissiyalarını azaltmaq, təbii qaza qənaət etmək, "yaşıl enerji"nin payını artırmaq və enerji təhlükəsizliyini daha da möhkəmləndirməkdir.

"Yeni Səngəçal" yarımstansiyasının açılışı isə layihənin növbəti mərhələsidir. Bu obyekt Səngəçal terminalının bərpaolunan enerji ilə təchizatı üçün tikilib. Bununla da terminalda fəaliyyət göstərən qazla işləyən elektrik stansiyasının dayandırılması mümkün olacaq. Yaxın gələcəkdə Cəbrayılda istehsal edilən günəş elektrik enerjisi ölkənin enerji sistemi vasitəsilə Səngəçal terminalına çatdırılacaq.

Layihənin icrası nəticəsində terminalın illik təxminən 500 milyon kVt-saat elektrik enerjisi tələbatı bərpaolunan enerji hesabına qarşılanacaq, hər il 120-150 milyon kubmetr təbii qaza qənaət ediləcək, karbon emissiyaları isə 260-330 min ton azalacaq.

"Yeni Səngəçal"ın ümumi sahəsi 6,5 hektardır. Yarımstansiya 111 kilometrlik dörd yeni 220 kV-luq elektrik verilişi xətti ilə ölkənin enerji sisteminə qoşulub. Bu obyektin enerji təchizatı 785 MVt gücündə "Cənub" və 385 MVt gücündə "Qobu" elektrik stansiyaları və 500 kV-luq "Abşeron" yarımstansiyası olmaqla üç müstəqil mənbədən təmin edilir.

Buradan Səngəçal terminalına qədər ümumi uzunluğu 25 kilometr olan 110 kV-luq beş hava-kabel xətti də çəkilib. Daha iki bu cür hava-kabel xəttinin çəkilməsi nəzərdə tutulur.

BP-nin Səngəçal terminalının 80 meqavatlıq və "Şahdəniz" Kompressor Stansiyasının 85 meqavatlıq elektrik enerjisi təchizatı da bu yarımstansiya vasitəsilə təmin ediləcək. Beləliklə, hər iki strateji obyektin illik 1 milyard kVt-saatdan çox enerji tələbatı ölkənin vahid enerjisistemi üzərindən qarşılanacaq.

Bir vacib məqam da odur ki, müasir texnologiyaların və rəqəmsal həllərin tətbiqi yarımstansiyanın etibarlılığını və dayanıqlılığını yüksək səviyyəyə qaldırıb. Burada qabaqcıl rəqəmsal idarəetmə panelləri, zəruri avadanlıq quraşdırılıb, SCADA sisteminə inteqrasiya təmin edilib, İdarəetmə Mərkəzi tikilib.

Deyilənlərə onu da əlavə edək ki, "Şəfəq" stansiyasının özünün də tikintisi qrafikə uyğun davam edir. Bir neçə ay əvvəl burada artıq günəş panellərinin quraşdırılmasına başlanıb.

***Flora SADIQLI,***
*"Azərbaycan"*




# BP və tərəfdaşları Azərbaycan gənclərinə təhsildə dəstəyi davam etdirirlər

**BP "Azəri-Çıraq-Günəşli" (AÇG), Bakı-Tbilisi-Ceyhan (BTC), "Şahdəniz" və Cənubi Qafqaz Boru Kəməri (CQBK) layihələrindəki tərəfdaşları adından Azərbaycan üçün yüksək-ixtisaslı yerli kadrların yetişdirilməsinə dəstək məqsədi daşıyan növbəti təhsilyönümlü sosial layihənin uğurla başa çatdığını elan edib.**

Bu təşəbbüs BP-nin və tərəfdaşları - SOCAR, TPAO, LUKOIL, SGC, NICO, MOL, INPEX, "ExxonMobil", "ONGC Videsh", "Eni", MVM, "TotalEnergies" və ITOCHU-nun dünya səviyyəli bilik və bacarıqların formalaşdırılmasına töhfə verməklə ölkənin dayanıqlı gələcəyinin qurulmasına dəstək olmaq öhdəliyinin bir hissəsidir.

Layihə çərçivəsində aztəminatlı ailələrdən seçilmiş 30 istedadlı Azərbaycan gəncinə beynəlxalq universitetlərə qəbul prosesinin bütün mərhələlərini əhatə edən hərtərəfli dəstək göstərilib. Proqramın iştirakçıları öz akademik göstəriciləri, ingilis dili bilikləri və xaricdə ali təhsil almaq potensialları əsasında seçiliblər.

Proqram çərçivəsində tələbələrə 50-dən çox qrup və fərdi dərslərdən ibarət hazırlıq kursları təklif olunub. Bu kurslar onların IELTS, SAT, TOEFL, Duolingo, GRE və GMAT daxil olmaqla, dünyanın aparıcı universitetlərinə qəbul üçün tələb olunan imtahanlara hazırlaşmasına kömək edib. İştirakçılara həmçinin universitet seçimi, qəbul üçün müraciət sənədlərinin hazırlanması, motivasiya və tövsiyə məktublarının yazılması, eləcə də təqaüd imkanlarının müəyyənləşdirilməsi ilə bağlı məsləhət və istiqamətləndirmə xidmətləri göstərilib.

Hazırda yekun nəticələr tam məlum olmasa da, layihə iştirakçılarının hamısı artıq ən azı bir xarici universitetdən qəbul təklifi alıb. Onlardan 15-i bakalavr, digər 15-i isə magistr pilləsi üzrə müraciət edib. Ümumilikdə isə hələlik iştirakçılar dünyanın 17 ölkəsində yerləşən 52 universitetdən təxminən 120 qəbul təklifi alıblar. Bu universitetlər sırasında "University College London", "National University of Singapore" və "University of California, Berkeley" kimi nüfuzlu beynəlxalq ali təhsil müəssisələri də var. Əldə olunan bu yüksək nəticələr həm tələbələrin akademik potensialının, həm də layihə çərçivəsində onlara göstərilən dəstəyin keyfiyyətinin göstəricisidir.

Layihənin uğurla yekunlaşması və iştirakçıların nailiyyətlərini qeyd etmək məqsədilə keçirilən tədbirdə tələbələrə proqramı başa çatdırmalarına dair sertifikatlar təqdim olunub və onlar öz gələcək təhsil planları və hədəfləri barədə fikirlərini bölüşüblər.

BP-nin Xəzər, Mərkəzi Asiya və Türkiyə regionu üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli layihə barədə belə deyib: "Dörd ildir qürurla dəstəklədiyimiz bu təşəbbüsün davamlı uğurlarını görməkdən çox məmnunuq. Burada əsas məqsəd istedadlı azərbaycanlı gənclər üçün onların gələcəklərini formalaşdıracaq və dünyagörüşlərini genişləndirəcək beynəlxalq təhsilə çıxış imkanları yaratmaqdır. İndiyədək əldə olunan nəticələr göstərir ki, uğurun yolu istedad, zəhmət və əzmkarlığın lazımi dəstək və imkanlarla birləşdirilməsindədir. Bu gün milli kadr potensialının inkişafına sərmayə qoymaqla, yeni nəsil mütəxəssislərin Azərbaycanın dayanıqlı gələcəyinə layiqli töhfə verməsi üçün onların zəruri bilik və bacarıqlara yiyələnməsinə, eyni zamanda qlobal baxışlarını genişləndirməsinə dəstək veririk".

Bir il davam edən bu layihə BP və tərəfdaşlarının 150 min manat məbləğində maliyyə dəstəyi ilə həyata keçirilib.

Layihə yerli "ROOF Academic Training" təşkilatı tərəfindən icra olunub.

Qeyd edək ki, BP-nin sosial sərmayələri yerli potensialın yaradılması, təhsil, icmaların inkişafı, yerli sahibkarlıq, ətraf mühit, idman potensialının artırılması, habelə ölkənin zəngin mədəni irsinin tədqiqi və təbliği kimi sahələrə yönəlib. Fəaliyyətə başladığı vaxtdan indiyədək şirkət özü və onun əməliyyatçısı olduğu birgə layihələrdəki tərəfdaşları ölkədəki sosial sərmayə layihələrinə ümumilikdə 115 milyon dollardan çox vəsait xərcləyib.

***F.SADIQLI,***
*"Azərbaycan"*

# Avtomobil nəqliyyatı ilə tranzit yükdaşımaların həcmi 34 faiz artıb

**Hazırda dünya ticarətinin əsas hissəsi dənizlər üzərindən həyata keçirilir. İkinci yerdə isə avtomobil nəqliyyatıdır. Avtomobillərlə daşımalar da qlobal ticarətdə yüksək çəkiyə malikdir.**

Azərbaycanın apardığı logistika siyasətində ölkəmiz üzərindən avtomobil daşımalarının həcminin artmasına xüsusi diqqət yetirilir. Son vaxtlar avtomobillə tranzit yüklərin daşınması üçün bir çox tədbir görülür. Məsələn, elektron "İcazə" blanklarının tətbiqi ilə bu növ nəqliyyatla yükdaşımaların həcminin xeyli artmasına nail olunub. "Azərbaycan Beynəlxalq Avtomobil Daşıyıcıları Assosiasiyası"nın (ABADA) baş katibi Kənan Qurbanov bildirmişdir ki, ABADA İctimai Birliyinin və tərəfdaş qurumların həyata keçirdiyi layihələr nəticəsində bu ilin yanvar-iyun aylarında ölkədə beynəlxalq yükdaşımaların (BYD) həcmi ötən ilin eyni dövrü ilə müqayisədə 34 faiz artıb. O, həmçinin vurğulamışdır ki, artıq Türkiyə, Ukrayna, Qırğızıstan və Qazaxıstan ilə elektron "İcazə" blanklarının tətbiqinə başlanılıb: "Tezliklə Rusiya və Gürcüstan da bu sistemə qoşulacaq. Həmçinin Türkmənistan ilə birgə "e-TIR", eləcə də Dövlət Gömrük Komitəsi və Beynəlxalq Avtomobil Nəqliyyatı İttifaqı (IRU) ilə e-CMR tətbiqi layihələri icra olunur. Bundan başqa, Qara Dəniz İqtisadi Əməkdaşlıq Bölgəsində Avtomobil Nəqliyyatı Assosiasiyaları İttifaqı (BSEQ-URTA) və Türk Regionunda Beynəlxalq Avtomobil Daşımaları Assosiasiyaları İttifaqı (TDT-URTA) çərçivəsində əlaqələr genişləndirilib. Azərbaycanın Qazaxıstan, Monqolustan, Çin və Gürcüstan ilə Qarışıq Komissiyalarının işində aktiv iştirak etmişik".

Azərbaycan Orta dəhlizdə dəmir yolu ilə yanaşı, avtomobillə də yükdaşımaların həcminin artırılması üçün tədbirlər görür. İşğaldan azad olunmuş ərazilərdə beynəlxalq standartlara cavab verən avtomobil yollarının tikilməsi həm də qlobal tranzit yüklərin daşınmasına əlavə imkanlar yaradacaq. Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyindən verilən məlumata görə, 19,2 kilometrlik Füzuli-Xocavənd avtomobil yolunda tikinti işləri davam edir. Bildirilir ki, hazırda yolun müxtəlif hissələrində torpaq işləri, drenaj sistemlərinin qurulması və suötürücü qurğuların inşası həyata keçirilir. Layihə üzrə ümumi icranın səviyyəsi 33,5 faizə çatıb.

Həmin məlumatda bildirilir ki, Füzuli və Xocavənd rayonlarını birləşdirən bu strateji yol nəqliyyat əlçatanlığını artırmaqla yanaşı, azad olunmuş ərazilərdə bərpa və yenidənqurma prosesinə, təhlükəsiz yük və sərnişin daşımalarına, eləcə də Qarabağın sosial-iqtisadi və turizm potensialının inkişafına mühüm töhfə verəcək. Sözsüz ki, bu yolun istifadəyə verilməsi həmçinin ölkəmizin beynəlxalq avtomobillə yükdaşımaları imkanlarını artıracaq.

Onu da vurğulayaq ki, işğaldan azad olunmuş ərazilərdə tikilən bütün avtomobil yolları Zəngəzur dəhlizinə (TRIPP) çıxmağı asanlaşdırır. Məqsəd gələcəkdə bu dəhlizlə dəmir yolu ilə yanaşı, avtomobil yolları ilə də tranzit yüklərin daşınmasının həcmini artırmaqdır.

Prezidentin Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında xüsusi nümayəndəsi Vahid Hacıyevin sözlərinə görə, Horadiz-Ağbənd avtomobil yolunun tikintisi artıq yekunlaşmaq üzrədir, dəmir yolu xəttinin inşası da son mərhələyə çatıb: "Burada inşaat işlərinin bitməsi ilə bir çox şirkət bölgədə anbar kompleksləri və logistika mərkəzləri yaratmaq, yükdaşıma və saxlama imkanlarını genişləndirmək üçün maraq göstərir. Bütün bunlar regionun iqtisadi inkişafına və beynəlxalq nəqliyyat qovşağına çevrilməsinə ciddi təkan verəcək".

***Rüstəm KAMAL,***
*"Azərbaycan"*





**Azərbaycanın çoxəsrlik dövlətçilik və siyasi tarixində elə dönüş məqamları var ki, onlar bütöv bir xalqın taleyini, gələcək inkişaf yollarını kökündən dəyişir. XX əsr tariximizə nəzər saldıqda belə həlledici nöqtələrdən birinin, bəlkə də ən birincisinin məhz 1969-cu ilin yayına təsadüf etdiyini görürük.**

# 57 il əvvəl Azərbaycanın tarixində yeni dövr başladı

## 1969-cu ilin avqust plenumundakı məruzəsi ilə Heydər Əliyev respublikanın gələcək inkişaf yolunu müəyyən etdi

Həmin il iyulun 14-də Ümummilli Lider Heydər Əliyevin Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçilməsi ilə respublikamızın ictimai-siyasi, iqtisadi və mədəni həyatında tamamilə yeni bir dövr başladı. O dövrün Azərbaycanı sovet imperiyasının tərkibində dərin sistem böhranı keçirən, iqtisadiyyatı durğunluğa uğramış, rüşvətxorluq və idarəetmə pozuntularının girdabında boğulan geridə qalmış aqrar respublika idi. Xalqın mənəvi ruhunda bir süstlük, gələcəyə inamsızlıq hökm sürürdü. Belə bir ağır şəraitdə respublika rəhbərliyinə gələn gənc və uzaqgörən liderin ilk böyük addımı sovet cəmiyyətinin mövcud stereotiplərini dağıtmaq oldu. Heydər Əliyev hakimiyyətə gəlişindən cəmi bir neçə həftə sonra - 1969-cu il avqustun 5-də keçirilən Azərbaycan KP MK-nın plenumunda etdiyi tarixi məruzə ilə respublikanı bürümüş ətalət buzunu qırdı. Bu çıxış, sadəcə, növbəti bir partiya iclasının hesabatı deyildi, Azərbaycanın tənəzzüldən tərəqqiyə doğru irəliləyişinin rəsmi proqramı idi.

### Cəsarətli tənqid və real mənzərə

Müdriklərin söylədiyi kimi, ən böyük məsafələr bir addımdan başlanır. Bu, tarixdə də belədir. Xalqların həyatını dəyişmiş böyük proseslər bəzən öz başlanğıcını bir yenilikdən, təqvimdəki hansısa gündən götürür və o tarix sonralar həmin xalqların taleyinə çevrilir.

1969-cu il avqustun 5-də Bakıda Azərbaycan KP MK-nin növbəti plenumu keçirilir. Bu plenum respublikanın yeni rəhbərinin rəsmi dövlət siyasəti səviyyəsində ortaya çıxması, yeni strateji dövrdə Azərbaycanın qarşısında duran əsas hədəflərin müəyyənləşdirilməsi, onlara çatmaq üçün yerinə yetirilən vəzifələrin konkretləşdirilərək təqdim edilməsi idi. Tarixin ən qüdrətli Azərbaycanına doğru yol öz başlanğıcını o günlərdən götürür. Həmin siyasətin başlıca məramı güclü dövlət, güclü iqtisadiyyat yaratmaq, sağlam milli kadrlar yetişdirmək idi.

Ulu Öndər çıxışında çox açıq və sərt şəkildə kadrların seçilməsində ciddi qüsurlara yol verildiyini qeyd etdi, iqtisadiyyatda hərc-mərcliyin, özbaşınalığın hökm sürdüyünü bildirdi. Ümummilli Liderin plenumdakı nitqi kadr seçiminə necə böyük məsuliyyətlə yanaşdığını bir daha təsdiqlədi. "Biz ayrı-ayrı vəzifəli şəxslərin davranışında özünü büruzə verən nalayiq hallara, pozğunluq təzahürlərinə göz yuma bilmərik. Mənəviyyat, əxlaq bütün işimizə nüfuz etməlidir. Kadrları açıq-aşkar, kütlələrin gözü qabağında seçmək, onlar haqqında kollektivin, adamların, iş yoldaşlarının rəyini nəzərə almaq lazımdır. Yalnız belə olduqda kadrların seçilməsi və yerləşdirilməsindəki bir çox səhvlərin qarşısını almaq, həmin sahədə işimizin səviyyəsini xeyli yüksəltmək olar" deyən Heydər Əliyev bütün sahələrdə mövcud olan nöqsanlar barədə fikrini bildirdi və bu, o vaxt çoxlarında təəccüb doğurdu. Belə bir münasibətin, yəni təəccübün əsas səbəbi Heydər Əliyevin nümayiş etdirdiyi görünməmiş siyasi cəsarət idi. O dövrün sovet idarəçilik ənənəsinə görə, rəsmi kürsülərdən yalnız "böyük uğurlar", "plana artıqlaması ilə əməl edilməsi" barədə pafoslu nitqlər söylənməli, nöqsanlar isə ört-basdır edilməli idi. Lakin Heydər Əliyev bu yazılmamış qanunları darmadağın etdi. Ulu Öndər çıxışında respublikadakı acınacaqlı vəziyyəti, iqtisadiyyatın müxtəlif sahələrindəki geriliyi rəqəmlərlə, faktlarla ortaya qoydu. O, dövlət əmlakının mənimsənilməsini, rüşvətxorluğu, vəzifəli şəxslərin özbaşınalığını və xalqa qarşı laqeydliyini açıq şəkildə ifşa etdi. Bu, Moskva rəhbərliyinin gözü qarşısında sovet sisteminin daxili pozuntularının bir lider tərəfindən bu dərəcədə dəqiq və qorxmadan dilə gətirildiyi ilk və unikal hadisə idi.

Respublika rəhbəri kadr məsələsinə xüsusi diqqət yetirdi. Ona görə ki, həmin dövrdə Azərbaycanda mövcud olan problemlərin mühüm bir qismi insan amilindən irəli gəlirdi. Digər tərəfdən isə Heydər Əliyev Azərbaycanı qısa müddətdə irəli aparmaq üçün qarşısına çox böyük vəzifələr qoymuşdu və bu vəzifələri lazımi şəkildə yerinə yetirmək üçün fərqli templə çalışmağa qabil, yüksək əzmkarlığa, peşəkar, mənəvi keyfiyyətlərə malik kadrlara ehtiyac vardı.

Onu da qeyd edək ki, respublikanın rəhbəri kimi vəzifəsinin icrasına yeni başlamış Heydər Əliyevin hər bir sahədə mövcud nöqsanlarla bağlı fikirlərini açıq bildirməsi o dövrdə rejimin mahiyyəti ilə bilavasitə bağlı olduğundan ehtiyatsız addım sayılırdı. Digər tərəfdən, bu çatışmazlıqları, nöqsanları məhz Heydər Əliyevin dilə gətirməsi isə xüsusilə riskli görünürdü. Çünki bu çıxışı uzun illər xüsusi xidmət orqanlarında çalışmış ali rütbəli məmur - ölkədə və ümumən idarəetmə sistemindəki vəziyyət haqqında ən dolğun məlumatlara malik şəxs edirdi. Əsas məsələlərdən biri isə Azərbaycana rəhbərliyə yenicə başlamış dövlət xadiminin bu cəsarətli nitqinin ölkə hüdudlarından kənarda da böyük ictimai diqqət, reaksiyalar doğuracağı əvvəlcədən bəlli idi.

Gözlənildiyi kimi də oldu. Yeni rəhbərin o vaxta qədər misli görünməyən cəsarətli, kəskin mövqeyindən, bəzi sovet gerçəkliyinə ciddi, tənqidi, realist münasibətindən nəinki Azərbaycanda və keçmiş ittifaq respublikalarında, hətta xarici radiostansiyalarda, dünyanın mötəbər qəzet və jurnallarında da söhbət açıldı. Hətta SSRİ-nin ali rəhbəri, Sov.İKP MK-nın Baş katibi L.İ.Brejnev də bununla bağlı narahatlığını Heydər Əliyevin diqqətinə çatdırmışdı. Amma Ümummilli Lider dediyi sözlərin, tutduğu mövqenin, ən əsası isə Azərbaycanın taleyi ilə bağlı onun üzərinə düşən tarixi missiyanın fərqində idi və bilirdi ki, problemlərin tam həlli hər bir reallığı çəkinmədən öz adı ilə çağırmaqdan başlanır.

### Zamanı qabaqlayan islahatlar

Ümummilli Lider 5 avqust plenumundan sonrakı illərdə də, təbii ki, dövrün müəyyən qaydaları çərçivəsindən kənara çıxmayaraq öz siyasi xəttini yeridir, çəkinmədən sözünü deyir, fikirlərini sərbəst açıqlayır, mövcud problemlərin aradan qaldırılması, zəruri vəzifələrin yerinə yetirilməsi üçün qətiyyətli addımlar atırdı. Ulu Öndər 1981-ci il noyabrın 18-də "Literaturnaya qazeta"ya məşhur "Qoy ədalət zəfər çalsın!" başlıqlı müsahibəsini verdi. O dövrdə bu müsahibə güclü bir rezonans doğurdu. Azərbaycanın rəhbəri orada respublikanın həyatı ilə bağlı ən müxtəlif məsələlərə toxunaraq demişdi: "Kommunist Partiyası MK-sının avqust plenumundan, respublikanın həyatındakı ciddi nöqsanları Azərbaycan zəhmətkeşlərinə düzgün və açıq bildirən bu plenumdan düz on gün sonra burjua mətbuatı hay-küy qaldırmış və cinayət xarakterli sensasiyaların sorağında dayanmışdı. Qeyd etmək istəyirəm ki, biz "qanunçuluq" deyəndə Cinayət Məcəlləsindən çox cəmiyyətimizin əxlaq kodeksini nəzərdə tuturuq. Özü də bu baxımdan hüquq pozuntuları, onların profilaktikası bizim üçün təkcə hüquqa aid məsələ deyildir. Bu, sosial və mənəvi məsələdir, çünki söhbət ən əvvəl insan uğrunda mübarizədən, sovet adamının hüquqlarına hörmətdən, ləyaqət və şərəfinin qorunmasından, onda ən yaxşı vətəndaşlıq keyfiyyətləri, yüksək əxlaqi prinsiplərin tərbiyə edilməsindən gedir. Azərbaycan partiya təşkilatının işi məhz belə bir mövqeyə əsaslanır və məhz bu mövqe böyük əksəriyyət, həyatda, əməkdə yüksək əxlaq prinsiplərini rəhbər tutan zəhmətkeşlər tərəfindən qızğın surətdə bəyənilmişdir... Biz xalqa kömək edib onda haqqa-ədalətə inam oyatmalı idik... Ağır, çətin proses idi. Mən "idi" sözünü heç də ona görə demirəm ki, indi vəziyyət idealdır, ona görə deyirəm ki, bu prosesin pozulmazlığı real həqiqətə çevrilmişdir".

Məhz belə prinsipial, qətiyyətli mövqe sayəsində Heydər Əliyev çox qısa zaman ərzində Azərbaycanın ictimai-siyasi həyatında ciddi dönüş yaratmağa nail oldu. Avqust plenumundakı çıxış, sadəcə, mövcud neqativ halların tənqidi ilə məhdudlaşmırdı. Bu məruzə həm də Azərbaycanı düşdüyü ağır vəziyyətdən çıxarmaq üçün hazırlanmış mükəmməl bir strateji inkişaf planı idi. Çıxışda respublikanın gələcək onilliklərini əhatə edəcək əsas hədəflər bəyan olundu. İlk növbədə iqtisadiyyatın modernləşdirilməsi irəli sürüldü: Azərbaycanı birtərəfli aqrar asılılıqdan qurtararaq, güclü sənaye, maşınqayırma və yüksək texnologiyalar mərkəzinə çevirmək xətti götürüldü. Eyni zamanda sağlam kadr siyasətinə ciddi diqqət yetirildi. Vəzifələrə, idarəetməyə savadlı, təmiz, milli ruhlu və gənc mütəxəssislərin gətirilməsi tələbi qoyuldu. Bununla kadrların düzgün seçimi, onlara qarşı tələbkarlığın artırılması işin effektivliyini yüksəltdi.

Ümummilli Liderin gərgin zəhməti, fədakarlığı, eyni zamanda şəxsi nüfuzu sayəsində bir-birinin ardınca qəbul edilən inkişaf proqramları sayəsində Azərbaycan böyük bir quruculuq meydanına çevrildi. Respublikada iri müasir maşınqayırma, kimya, neft kimyası və elektron sənayesi, əlvan və qara metallurgiya, yüngül, yeyinti və emal sənayesi müəssisələri tikildi, habelə elektroenergetika, nəqliyyat kompleksi inkişaf etməyə başladı. 1980-ci ilin göstəricilərinə görə, sənayenin əsas istehsal fondlarının dəyəri 1969-cu illə müqayisədə iki dəfə artdı. Bu illər ərzində 15 yeni iri maşınqayırma müəssisəsi istifadəyə verildi, 12 müəssisədə istehsal gücü nəzərəçarpacaq dərəcədə yüksək səviyyəyə çatdı, neft maşınqayırması zavodları modernləşdirildi. Azərbaycanda sənaye istehsalı yuksəldi. 1976-cı ildən etibarən respublika sənaye istehsalının artım sürətinə görə ittifaq üzrə ön sıralara çıxdı. Beləliklə, Azərbaycan geri qalmış aqrar respublikadan qabaqcıl sənaye ölkəsi mövqeyində qərarlaşdı.

Milli özünüdərkin gücləndirilməsinə gəldikdə iqtisadi yüksəliş platforması üzərində Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin, dilinin və mədəniyyətinin dirçəldilməsi strategiyasının əsası qoyuldu.

### 1969-1982-ci illər - milli inkişaf dövrü

Ötən əsrin 70-80-ci illəri sovet Azərbaycanının intibah dövrüdür. Həmin illər Heydər Əliyev respublikada haqq-ədaləti təmin etdi, xalqın milli-mənəvi dəyərlərinə sahib çıxdı, rəsmi tədbirlərdə çıxışlarını Azərbaycan dilində etməyə başladı. Bu, xalqın milli ruhunun ali hakimiyyət kürsüsündə öz ifadəsini tapması idi. Heydər Əliyev ana dilimizə bu münasibəti ilə xalqın tarixi köklərinə qayıdışını, milli-mənəvi dəyərlərimizə bağlılığını bəyan edirdi.

Uzun illər nəzər-diqqətdən kənarda qalmış milli ruhlu ziyalılar məhz Heydər Əliyevin Azərbaycana rəhbərliyi dövründə qayğını ən yüksək səviyyədə hiss etməyə başladılar. Azərbaycanın bir çox görkəmli alimi, şair və yazıçısı, mədəniyyət xadimi o dövrün ali dövlət mükafatları ilə təltif edildilər. Azərbaycan mütəxəssislərinin yeni ixtira və kəşfləri nəinki keçmiş SSRİ-də, eləcə də dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən elmi mərkəzlərdə öz layiqli qiymətini almağa başladı. Faktlar da göstərir ki, Azərbaycanda dünyaya səs salan ən mühüm elmi kəşflər daha çox ötən əsrin 70-ci illərində edilmişdir. Bu, Heydər Əliyevin o illərdə yaratdığı inkişaf mühitinin nəticəsi idi.

Ulu Öndər təhsilin səviyyəsinin yüksəldilməsini xalqın gələcəyi üçün taleyüklü məsələlərdən biri kimi qiymətləndirirdi. Onun rəhbərliyi dövründə Azərbaycanda yeni ali və orta ixtisas təhsili müəssisələri açıldı. Cəmiyyət həyatında təhsilin önəmi artdı. Ulu Öndər xalqımızın istedadlı övladlarının arzularını reallaşdırdı. Məhz Heydər Əliyevin təşəbbüsü ilə hər il minlərlə gənc keçmiş ittifaqın ən nüfuzlu ali məktəblərinə Azərbaycan üçün xüsusilə gərəkli ixtisaslar üzrə təhsil almağa göndərildi.

O illər Heydər Əliyev Azərbaycanı sözün bütün mənalarında yeni inkişaf dövrünə çıxardı. Xalqın milli özünüdərkinin stimullaşdırılmasının əsasını qoydu. Azərbaycanı bütün dünyada tanıtdı. Heydər Əliyevin Azərbaycan qarşısındakı xidmətlərinin tarixi və siyasi əhəmiyyətini araşdırarkən, heç şübhəsiz ki, onun sovet Azərbaycanına rəhbərlik etdiyi illəri xüsusi dövr kimi qiymətləndirmək lazımdır. Respublikanın həmin illərdə qazandığı nailiyyətlər məhz Ümummilli Liderin həyata keçirdiyi yeni strateji inkişaf konsepsiyasının real nəticəsi idi.

Heydər Əliyevin 70-80-ci illərdə formalaşdırdığı milli inkişaf konsepsiyası o qədər güclü idi ki, xalq tarixin ağır sınaqları qarşısına təşkilatlanmış şəkildə çıxmağı bacardı. Bu konsepsiya ötən əsrin 80-ci illərinin sonlarına doğru Azərbaycanın müstəqilliyi uğrunda siyasi dalğanın başlanmasında çox böyük rol oynadı. Heydər Əliyevin 70-ci illərdə yetişdirdiyi gənclik Azərbaycanın müstəqilliyi uğrunda ayağa qalxdı.

* * *

Məsafələr uzaqlaşdıqca, illər keçdikcə 1969-cu ilin 5 avqust plenumunun Azərbaycan tarixindəki nəhəng rolu daha dərindən dərk olunur. Zaman qətiyyətlə sübut etdi ki, Ulu Öndər Heydər Əliyevin o tarixi gündə nümayiş etdirdiyi siyasi cəsarət və sarsılmaz iradə, sadəcə, bir dövrün böhranını həll etmədi, həm də xalqımızın onilliklər sonrakı azadlıq və müstəqillik fəlsəfəsinin təməlini qoydu.

Bu gün regional liderə çevrilən, iqtisadi cəhətdən tam müstəqil və öz ərazi bütövlüyünü bərpa etmiş Azərbaycan dövləti məhz həmin tarixi gündə atılmış strateji addımların, formalaşdırılmış nəhəng milli kadr və sənaye potensialının məntiqi bəhrəsidir. 5 avqust plenumu xalqına arxalanan və onun taleyini hər şeydən uca tutan dahi rəhbərin zamana vurduğu silinməz möhürdür. Bu tarixi dönüş nöqtəsi müstəqil və qüdrətli Azərbaycanın gələcək inkişaf yoluna işıq salan əbədi bir məşəl olaraq qalacaq.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

5 Avqust Azərbaycan Respublikası Hərbi Dəniz Donanması Günüdür

# Mavi sərhədlərimizin ayıq-sayıq keşikçiləri

## Xəzərdə qüdrətli dəniz qüvvələrindən sayılan Azərbaycan Hərbi Donanmasının qurucusu Ali Baş Komandan İlham Əliyevdir

**Xəzər dənizi əsrlər boyu həm strateji, həm iqtisadi, həm də hərbi-siyasi cəhətdən regionun mənzərəsini müəyyən edib. Müasir dövrdə də Xəzərdə milli maraqlarımızı və enerji təhlükəsizliyimizi etibarlı qorumaq strateji vəzifələr sırasındadır. Bu isə güclü, modern və yüksək döyüş hazırlığına malik donanmanın varlığından asılıdır. Bu gün Azərbaycan Respublikasının Hərbi Dəniz Qüvvələri, sadəcə, su sərhədlərimizi mühafizə etmir. Hərbi Donanmamız eyni zamanda dövlətimizin Xəzərdəki iqtisadi suverenliyinin qarantıdır.**

Ümummilli Lider Heydər Əliyevin 1996-cı ildə imzaladığı fərmanla hər il avqustun 5-i ölkəmizdə qeyd olunan Hərbi Dəniz Donanması Gününün tarixi Azərbaycan Xalq Cümhuriyyətinin dövrünə gedib çıxır. 1919-cu ilin avqustunda xarici hərbi kontingentlər, xüsusən Böyük Britaniya qüvvələri ölkəmizi tərk etdikdən sonra müstəqil milli donanmanın təməlləri qurulmağa başladı. Doğrudur, həmin vaxta qədər Xəzərin qərb sahillərində təhlükəsizliyi əsasən ingilis hərbi gəmiləri təmin edirdi. Bakı azad olunarkən Port-Petrovsk (müasir Mahaçqala) limanına aparılmış Xəzər Hərbi donanmasının gəmiləri isə yalnız 1918-ci ilin noyabrında ingilislərin Bakıya gəlişindən sonra geri qaytarılmışdı.



Yeni yaradılan milli donanmada kadr çatışmazlığı ən ciddi problemlərdən biri idi. Ali zabit heyətində yalnız iki azərbaycanlı - "Ərdahan" və "Astrabad" gəmilərində xidmət edən dəniz xidməti kapitanı Həsən Çilingərzadə və 1-ci dərəcəli kapitan Gitançızadə var idi. Hərbi Nazirlikdə donanma üzrə xüsusi şöbə olmadığından dəniz məsələlərinə Nəqliyyat Nazirliyi nəzarət edirdi. Yalnız 1919-cu ilin sonlarında baş qərargahın nəzdində 6 ştat vahidindən ibarət Hərbi dəniz şöbəsi təsis olundu. Həmin dövrdə milli donanmanın arsenalında müxtəlif döyüş və köməkçi vasitələr yer alırdı. 75, 100 və 120 millimetrlik toplarla silahlanmış "Ərdahan" və "Kars" kanoner gəmiləri donanmanın əsas vurucu gücü idi. Bununla yanaşı, dənizdə xidməti və yardımçı tapşırıqları "Astrabad", "Göytəpə", "Araz" və "Nargen" kimi gəmilər icra edirdi. Nəqliyyat təminatı üçün "Oryol", eləcə də silahlandırılmış "Puşkin" gəmisindən və kifayət qədər döyüş katerlərindən istifadə olunurdu.

Kadr hazırlığını təmin etmək üçün Bakı Dəniz Aviasiyası Məktəbinin bazasında Xüsusi Hərbi-Dəniz Aviasiyası Məktəbi və 1919-cu il oktyabrın 14-də dəniz aviasiyası dəstəsi yaradıldı. Hətta Paris Sülh Konfransına təqdim olunan memorandumda 6 sualtı qayıq, müxtəlif döyüş katerləri və dəniz artilleriyası sifariş edilmişdi. Lakin 1920-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin süqutu ilə əlaqədar güclü hərbi donanmanın yaradılması, bu böyük planların reallaşması mümkün olmadı.

Müstəqilliyimizin bərpasından sonra - 1991-ci il oktyabrın 9-da qəbul olunmuş "Azərbaycan Respublikası Silahlı Qüvvələri haqqında" qanun Hərbi Dəniz Qüvvələrinin yenidən qurulmasının hüquqi özülünü qoydu. SSRİ-nin dağılması səbəbindən Xəzəryanı dövlətlər arasında əldə edilən razılığa əsasən, Azərbaycan sabiq Xəzər Hərbi Donanmasının bazalarının tamlığına və hərbi gəmilərin 25 faizinə sahib oldu. 1992-ci il iyulun 26-da "Bakılı" gözətçi gəmisində müstəqil Azərbaycanın dövlət bayrağının qaldırılması ilə Hərbi Dəniz Donanmasının praktiki formalaşması başlandı. İlk mərhələdə 5 divizion və sahil bölmələri yaradıldı, müşahidə postları və mayakların fəaliyyəti bərpa edildi.

Birinci Qarabağ müharibəsinin ağır illərində Hərbi Dəniz Donanmasının şəxsi heyətindən Dəniz Piyadası Taboru formalaşdırıldı. 1994-cü il aprelin 19-da cəbhəyə yollanan bu tabor Ağdam-Tərtər istiqamətində düşmən hücumlarının qarşısını cəsarətlə aldı. 1997-ci ildə "Hərbi Dəniz Bayraqları haqqında" qanunun qəbulu və 2000-ci il avqustun 7-də bütün gəmilərdə Hərbi Dəniz Qüvvələrinin bayrağının qaldırılması ilə hərbi dənizçiliyin rəmzləri tam bərqərar oldu.

Azərbaycan Hərbi Dəniz Donanmasının modernləşdirilməsi və Xəzərdə hərbi-dəniz gücü kimi tanınması Prezident İlham Əliyevin adı ilə bağlıdır. Dövlətimizin başçısının yürütdüyü siyasət sadəcə hərbi gəmilərin alınması ilə məhdudlaşmır, ölkəmizin daxilində müasir gəmiqayırma sənayesinin qurulmasını, yerli istehsal potensialının maksimuma çatdırılmasını və dəniz infrastrukturunun köklü şəkildə yenilənməsini əhatə edir.

Bakı Gəmiqayırma Zavodunun fəaliyyətə başlaması və Dövlət Sərhəd Xidmətinin Sahil Mühafizəsinin Gəmi İnşası və Təmiri Mərkəzinin qurulması Azərbaycanı Xəzər hövzəsində öz gəmilərini sıfırdan inşa edən lider dövlətə çevirib. Prezident İlham Əliyevin diqqəti sayəsində inşa edilən yerli gəmilər yüksək manevr qabiliyyəti, müasir radar və raket sistemləri ilə təchiz olunaraq Hərbi Dəniz Donanması və Sahil Mühafizəsinin arsenalını xeyli zənginləşdirib.

2015-ci ildə Qaradağ rayonunda Ali Baş Komandanın iştirakı ilə istifadəyə verilən yeni Hərbi Dəniz Bazası Hərbi Dəniz Qüvvələrinin müasir infrastruktura olan bütün ehtiyaclarını qarşılayır. Müasir qərargah binası, hərbi şəhərcik, sosial obyektlər və ən əsası, ən müasir standartlara cavab verən yanaşma körpüləri Hərbi Dəniz Donanmasının döyüşə hazırlıq səviyyəsini dəfələrlə artırıb.

Azərbaycan Hərbi Dəniz Qüvvələrinin beynəlxalq arenadakı təcrübəsi ilbəil zənginləşir. Bu çərçivədə bir sıra önəmli tarixi faktları xatırlamaq yerinə düşər. 2000-ci ildə Türkiyə tərəfindən hədiyyə edilən P-223 kateri 5 dəniz, 3 boğaz və 2 çay keçərək 2345 dəniz mili məsafə qət etmiş və Bakıya gətirilmişdir. Beynəlxalq təlimlər çərçivəsində 2022-ci ildə Marmarisdə SAH və SAM xüsusi təyinatlılarının birgə təlimi reallaşdırılmışdır. 2023-cü ildə dənizçilərimiz Aralıq dənizində "Kurtaran - 2023" və Qazaxıstanla birgə "Xəzri-2023" taktiki təlimlərində uğurla iştirak etmişlər. 2024-cü ildə Qazaxıstanda keçirilən "Birləşdik - 2024" beynəlxalq təlimində Hərbi Dəniz Qüvvələrimiz 3 gözətçi və 2 desant gəmisi ilə ölkəmizi yüksək səviyyədə təmsil etmişlər.

2020-ci il sentyabrın 27-də başlayan 44 günlük Vətən müharibəsi ölkəmizin Hərbi Dəniz Donanmasının tarixində ən şərəfli səhifələrdən biridir. 44 günlük savaşda Dəniz Xüsusi Təyinatlıları sudakı bacarıqlarını quru əməliyyatlarında da ən yüksək səviyyədə nümayiş etdirdilər, Zəngilan, Cəbrayıl, Füzuli, Qubadlı rayonlarının və Şuşa şəhərinin azad edilməsi uğrunda gedən döyüşlərdə xüsusi igidlik göstərdilər. Qubadlı şəhərinin düşməndən təmizlənməsi barədə Ali Baş Komandan İlham Əliyevə qürurverici videoməruzəni məhz Hərbi Dəniz Qüvvələrinin Xüsusi Təyinatlılarının komandiri etmişdi. Bu Zəfər yolunda Hərbi Dəniz Donanmasının 9 hərbi qulluqçusu şəhidlik zirvəsinə ucalmış, 50 nəfər yaralanmışdır. Şəhid kiçik miçman Fəqan Amil oğlu Zalov ölümündən sonra, daha iki dənizçimizə isə sağlığında "Vətən Müharibəsi Qəhrəmanı" fəxri adı verilmişdir.

Bu gün Azərbaycan Hərbi Dəniz Donanması Xəzər dənizində əlverişli əməliyyat rejimini inamla qoruyur. Donanma sualtı neft-qaz boru kəmərlərinin və strateji platformaların təhlükəsizliyini etibarlı şəkildə təmin edir. Bütün bunlar Hərbi Dəniz Donanmamızı Xəzərdə yenilməz bir qüvvəyə çevirir. Ali Baş Komandan İlham Əliyevin diqqət və qayğısı sayəsində donanmamız mütəmadi olaraq modernləşir. Əminliklə demək olar ki, hərbi dənizçilərimiz bundan sonra da mavi sərhədlərimizin ayıq-sayıq keşikçisi olacaqlar.

*Təhminə VERDİYEVA,*
*"Azərbaycan"*

**Bu gün Avrasiya məkanında yeni və sarsılmaz bir geostrateji qütb formalaşır. Uzun illər boyunca əsasən etnik mənşə, dil və zəngin mədəni irs müstəvisində inkişaf edən türk dünyası inteqrasiyası, artıq hərbi-siyasi, geoiqtisadi və nəqliyyat-logistika zərurətinə çevrilib. Bu tarixi transformasiyanın ön cərgəsində isə Cənubi Qafqazın lider dövləti olan Azərbaycan ilə Mərkəzi Asiya respublikaları dayanır.**



# Mərkəzi Asiya və Azərbaycan vahid geosiyasi və geoiqtisadi məkana çevrilib

Azərbaycanın yürütdüyü fəal xarici siyasət nəticəsində Cənubi Qafqaz ilə Mərkəzi Asiya arasındakı coğrafi məsafələr öz strateji maneə xarakterini itirib. Bu iki regionun qovuşması təkcə ikitərəfli əlaqələri dərinləşdirmir, həm də Şərqlə Qərbi, Şimalla Cənubu birləşdirən qlobal tranzit dəhlizlərinin təhlükəsizliyini təmin edən, Avrasiyanın nəqliyyat və təhlükəsizlik arxitekturasını köklü şəkildə yenidən şəkilləndirən nəhəng bir ittifaqın doğuluşudur.

Bu günlərdə Azərbaycan və Qırğızıstan arasında imzalanan müttəfiqlik münasibətləri haqqında müqavilə həm də Türk Dövlətləri Təşkilatının (TDT) institusional dayaqlarını daha da möhkəmləndirir, region ölkələrinin qlobal geosiyasi təzyiqlərə qarşı vahid güc mərkəzi kimi çıxış etməsinə imkan yaradır.

Mətbuata bəyanatında dövlətimizin başçısı müttəfiqlik münasibətlərinin üzərlərinə böyük məsuliyyət qoyduğunu və hər iki ölkənin bu məsuliyyətə hazır olduğunu xüsusi qeyd etdi.

Son illərdə Azərbaycanın Mərkəzi Asiya istiqamətində yürütdüyü xarici siyasət, sadəcə, ikitərəfli görüşlərlə məhdudlaşmayıb, regional siyasətin sistemli və təsisatlaşmış əsasını qoyub. Dövlət başçıları səviyyəsində aparılan intensiv diplomatiya bu prosesin əsas mühərrikidir. Təkcə 2023-cü ildən etibarən Prezident İlham Əliyevin Mərkəzi Asiyanın qardaş ölkələrinə 16 dəfə səfər etməsi, region liderlərinin isə Azərbaycana 26 dəfə gəlməsi bu təmasların nə dərəcədə yüksək dinamikaya malik olduğunu nümayiş etdirir. Bu göstərici, sadəcə, quru statistika deyil, Cənubi Qafqaz və Mərkəzi Asiyanın artıq vahid geosiyasi və geoiqtisadi arena kimi hərəkət etdiyinin aydın sübutudur.

Bu strategiyanın mühüm dönüş nöqtəsi 2025-ci ilin noyabrında Daşkənddə keçirilən Mərkəzi Asiya Dövlət Başçılarının 7-ci Məşvərət Görüşü oldu. Azərbaycanın bu platformaya tamhüquqlu üzv kimi qoşulması regionun siyasi xəritəsində yeni bir eranın başlanğıcı oldu. Artıq Azərbaycan Cənubi Qafqazda yerləşməsinə baxmayaraq, Mərkəzi Asiya ailəsinin ayrılmaz parçası və strateji tərəfdaşı kimi qəbul edilir. "Bu qərar münasibətlərimizin dostluq və qardaşlıq xarakterini bir daha təsdiqləyir, həmçinin geniş coğrafi məkanda əməkdaşlığın və qarşılıqlı fəaliyyətin möhkəmlənməsinə xidmət edəcəkdir", - deyə Prezident İlham Əliyev Mərkəzi Asiya Dövlət Başçılarının 7-ci Məşvərət Görüşü zamanı bu qərarın mühüm əhəmiyyətinə vurğu etmişdi.

Mərkəzi Asiya ölkələri ilə ikitərəfli müstəvidə də əlaqələr dinamik inkişaf edir. O cümlədən Azərbaycan-Qırğızıstan əlaqələri keyfiyyətcə yeni zirvəyə yüksəlir. Çolpon-Atada imzalanan və mübadilə edilən genişmiqyaslı sənədlər zərfi iki ölkə arasında əlaqələrin gələcək inkişafı üçün mühüm əhəmiyyət daşıyır. Liderlərin iştirakı ilə imzalanan "Azərbaycan Respublikası və Qırğız Respublikasının Dövlətlərarası Şurasının üçüncü iclasının Qərarı" və "Azərbaycan Respublikası ilə Qırğız Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Müqavilə" ikitərəfli əlaqələrin hüquqi və siyasi təməlini ən yüksək səviyyəyə qaldırdı.

Bu sənədlər tərəflərin həm siyasi, həm də iqtisadiyyat, nəqliyyat-logistika, energetika, investisiya və təhlükəsizlik sahələrində uzunmüddətli, sistemli və dərin inteqrasiyaya əsaslanan əməkdaşlıq modelini həyata keçirməyi nəzərdə tutur. İyulun sonunda Prezident İlham Əliyevin Qırğızıstana dövlət səfəri, Çolpon-Ata şəhərində keçirilən Azərbaycan və Qırğızıstan Dövlətlərarası Şurasının 3-cü iclası, eləcə də baş tutan yüksəksəviyyəli görüşlər ikitərəfli əlaqələr salnaməsində keyfiyyətcə yeni bir başlanğıc oldu.

Çolpon-Ata şəhərində Azərbaycanın və Mərkəzi Asiya ölkələrinin dövlət başçılarının qeyri-rəsmi görüşündə ölkəmizin rəhbəri imzalanan sənədlər arasında müttəfiqlik münasibətləri haqqında Müqaviləni xüsusi qeyd etdi: "Bu, iki qardaş ölkə arasında münasibətləri müttəfiqlik səviyyəsinə qaldıran qarşılıqlı fəaliyyətin ən yüksək dərəcəsidir".

İkitərəfli formatda qurulan bu möhkəm hüquqi baza tərəflərə beynəlxalq platformalarda ortaq mövqedən çıxış etmək və vahid geostrateji iradə nümayiş etdirmək imkanı yaradır. Siyasi səviyyədəki bu yüksək etimad real həyatda özünü iqtisadi göstəricilərin artmasında, qarşılıqlı investisiyalarda və azad olunmuş Qarabağın bərpasına verilən mənəvi-əməli dəstəkdə büruzə verir.

Bu praktiki tərəfdaşlığın ən uğurlu nümunələrindən biri kimi Azərbaycan-Qırğız İnkişaf Fondu çıxış edir. Azərbaycan Respublikası və Qırğız Respublikası Dövlətlərarası Şurasının iclasında fondun nizamnamə kapitalının 100 milyon dollardan 200 milyon dollara çatdırılması iqtisadi münasibətlərə güclü təkan verən strateji addım oldu. Qarşılıqlı kapital axınının digər mühüm istiqamətini isə turizm sektoruna yatırılan sərmayələr təşkil edir. İssık-Kul gölü sahilində Azərbaycan kapitalı hesabına inşa edilən ilk beşulduzlu "Bakı" hotelinin qapılarını qonaqların üzünə açması Azərbaycan investorlarının Qırğızıstanın turizm imkanlarına verdiyi böyük dəyərin və regional infrastruktura töhfəsinin bariz göstəricisidir.

Mərkəzi Asiya ölkələri dövlət başçılarının işğaldan azad olunmuş Qarabağa və Şərqi Zəngəzura ardıcıl səfərləri regional həmrəyliyin ən yüksək siyasi nümayişinə çevrilib. Bu səfərlər təkcə rəmzi xarakter daşımır, eyni zamanda işğaldan zərər çəkmiş ərazilərin dirçəldilməsinə verilən real töhfələrlə tamamlanır. Qırğızıstanın işğaldan azad edilmiş ərazilərə töhfəsi olan Ağdam rayonunda inşa edilən və mənəvi dəyəri böyük olan Manas adını daşıyan məktəb binasının açılışı, eləcə də digər qardaş dövlətlərin Qarabağ və Şərqi Zəngəzurda həyata keçirdiyi infrastruktur və sosial layihələr bu dəstəyin aydın təzahürüdür. Bu addımlar Mərkəzi Asiya liderlərinin Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə verdiyi sarsılmaz siyasi mövqenin, eləcə də xalqlarımız arasındaki dərin mənəvi bağlılığın bariz sübutudur.

Azərbaycan və Mərkəzi Asiya dövlətləri arasında birbaşa coğrafi sərhədlərin olmamasına rəğmən tərəfləri strateji cəhətdən bir-birinə bağlayan ən mühüm amil nəqliyyat, logistika və tranzit dəhlizləridir.

Bu gün Orta dəhliz geostrateji baxımdan qlobal diqqət mərkəzindədir. Müasir geostrateji reallıqlar şəraitində ənənəvi şimal və cənub marşrutlarının riskləri artdıqca Orta dəhlizin təhlükəsizliyi və səmərəliliyi ön plana çıxır və Azərbaycan bu sistemdə Mərkəzi Asiya ölkələrini Avropa və qlobal bazarlarla əlaqələndirən mərkəzi geoiqtisadi qovşaq rolunu oynayır.

Əməkdaşlığın imkanları yalnız ənənəvi nəqliyyat və tranzitlə məhdudlaşmır. Müasir dövrün çağırışları fonunda Azərbaycan və Mərkəzi Asiya dövlətləri rəqəmsallaşma və "yaşıl enerji" marşrutlarının çəkilişində də qüvvələrini birləşdirirlər. Xəzər dənizinin dibi ilə elektrik kabelinin və fiber-optik kommunikasiya xətlərinin çəkilməsi üzrə həyata keçirilən layihələr regionu Avropanın enerji və informasiya təhlükəsizliyinin əsas təminatçılarından birinə çevirir. Eyni zamanda təhsil, mədəniyyət və gənclər siyasəti sahəsindəki fəal təmaslar, Bişkekdə və Bakıda açılan dostluq parkları, görkəmli şəxsiyyətlərin xatirəsinə ucaldılan abidələr göstərir ki, bu geostrateji bina təkcə iqtisadi maraqlar üzərində deyil, sarsılmaz mənəvi və insani köklər üzərində ucalır.

İyulun 31-də Çolpon-Ata şəhərində keçirilən Azərbaycan və Mərkəzi Asiya ölkələrinin Dövlət Başçılarının qeyri-rəsmi Məşvərət Görüşü zamanı qəbul edilmiş Çolpon-Ata Bəyannaməsi Azərbaycan ilə Mərkəzi Asiya dövlətləri arasında hərtərəfli əməkdaşlığın hüquqi yol xəritəsi oldu. Prezident İlham Əliyevin "…Bu gün Mərkəzi Asiya və Azərbaycan artıq vahid geosiyasi və geoiqtisadi məkana çevrilib" bəyanatı bu tarixi yaxınlaşmanın dərin strateji mahiyyətini tam şəkildə özündə ehtiva edir.

Çolpon-Atada atılan imzalar, Daşkənddə qəbul edilən qərarlar və Azərbaycanın Mərkəzi Asiya sammitlərinin tamhüquqlu tərəfdaşına çevrilməsi də təsdiqləyir ki, Bakı və Mərkəzi Asiya paytaxtları gələcək onilliklərin qlobal risklərinə qarşı artıq təkbaşına deyil, çiyin-çiyinə müqavimət göstərəcəklər. Bu isə nəinki regional sabitliyin, həm də türk coğrafiyasının qlobal siyasətdə şərt diktə edən müstəqil güc mərkəzinə çevrilməsinin əsas zəmanətidir.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Azərbaycanın Mərkəzi Asiya dövlətləri ilə münasibətləri strateji müttəfiqlik müstəvisindədir

**"Azərbaycanın öz hərbi-siyasi gücü hesabına ərazi bütövlüyünü və suverenliyini tam bərpa etməsi ölkəmizi regional çərçivələri aşan, beynəlxalq münasibətlər sistemində söz sahibi olan güclü və nüfuzlu dövlətə çevirib. Bu gün rəsmi Bakı Cənubi Qafqazın lideri olmaqla yanaşı, Avrasiya məkanında yeni geosiyasi və geoiqtisadi reallıqlar formalaşdırır. Bu kontekstdə Azərbaycanın Mərkəzi Asiya dövlətləri ilə münasibətlərini keyfiyyətcə yeni, strateji müttəfiqlik müstəvisinə qaldırması da xüsusi diqqət çəkir".**



Bunu qəzetimizə açıqlamasında **Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədr müavini Arzu ABDULLAYEV** deyib. O bildirib ki, Prezident İlham Əliyevin Qırğızıstana dövlət səfəri və yüksəksəviyyəli təmaslar iki ölkə arasında əlaqələrin inkişafında dönüş nöqtəsi olmaqla bərabər, Cənubi Qafqaz-Mərkəzi Asiya əlaqələrinin strateji mahiyyətini daha da gücləndirir: "Prezident İlham Əliyevin Qırğızıstana səfəri çərçivəsində keçirilən mühüm görüşlər, Azərbaycan-Qırğızıstan Dövlətlərarası Şurasının 3-cü iclası, eləcə də imzalanan önəmli sənədlər ikitərəfli əlaqələrin institusional əsaslarını möhkəmləndirir. Səfərin mühüm siyasi yekunu kimi iki ölkə arasında münasibətlərin müttəfiqlik səviyyəsinə yüksəldilməsini qeyd etmək olar. Vurğulandığı kimi, Bakı və Bişkek beynəlxalq platformalarda, iqtisadi və təhlükəsizlik sahələrində bundan sonra da bir-birinə tərəddüdsüz dəstək verəcəklər. Səfər zamanı dövlətimizin başçısının ali dövlət mükafatları ilə təltif olunması yüksək siyasi etimadın və mənəvi-siyasi həmrəyliyin bariz təcəssümüdür".

Arzu Abdullayev qeyd edib ki, Azərbaycanın Mərkəzi Asiya regionu ilə əməkdaşlığı ikitərəfli formatla məhdudlaşmır: "Ölkəmizin Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət Görüşləri platformasında fəal iştirakı rəsmi Bakının bu coğrafiyada artan rolunu təsdiqləyir. Azərbaycan özünün nəqliyyat-logistika imkanları, tarixi-mədəni bağları və uzaqgörən xarici siyasəti sayəsində Mərkəzi Asiyanın ayrılmaz strateji tərəfdaşına çevrilib. Türk Dövlətləri Təşkilatı (TDT) çərçivəsində dərinləşən inteqrasiya və Çolpon-Atada imzalanan müttəfiqlik sazişləri Avrasiya məkanında yeni təhlükəsizlik və əməkdaşlıq arxitekturasını formalaşdırır".

Həmsöhbətimiz vurğulayıb ki, bu strateji müttəfiqlik yalnız nəqliyyat və siyasi dialoqla məhdudlaşmır, həm də iqtisadi-investisiya və humanitar sahələri əhatə edir: "Nizamnamə kapitalı 200 milyon dollara çatdırılan Azərbaycan-Qırğız İnvestisiya Fondu birgə layihələrin reallaşmasına güclü təkan verir. Eyni zamanda Bişkekdə Azərbaycan-Qırğızıstan Dostluq parkının salınması, Ağdamda "Manas" adına məktəbin tikintisi və Bakıda Çingiz Aytmatovun abidəsinin ucaldılması kimi addımlar xalqlarımız arasındakı dərin mənəvi-mədəni bağların və sarsılmaz qardaşlığın bariz təzahürüdür".

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədr müavini onu da diqqətə çatdırıb ki, Bakı ilə Bişkek arasında dərinləşən münasibətlər bütövlükdə türk dünyasının coğrafi və iqtisadi inteqrasiyasına xidmət edir: "İki ölkənin liderlərinin qarşılıqlı etimadı və siyasi iradəsi Cənubi Qafqaz ilə Mərkəzi Asiya arasında strateji bağlılıq yaradır ki, bu da Avrasiya regionunda güc balansını sülhün və dayanıqlı inkişafın lehinə dəyişir".

Müsahibimiz qeyd edib ki, Bakı və Bişkek arasında mövcud olan strateji həmrəylik qlobal müstəvidə də özünü aydın göstərir: "BMT, Türk Dövlətləri Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı və Qoşulmama Hərəkatı kimi nüfuzlu platformalarda ölkələrimizin bir-birinin suverenliyi, ərazi bütövlüyü və milli maraqlarına verdiyi qətiyyətli dəstək xarici siyasətimizin dəyişməz prinsipidir. Dünyada ziddiyyətlərin və geosiyasi risklərin artdığı bir dövrdə Azərbaycan və Qırğızıstanın vahid mövqedən çıxış etməsi Avrasiya regionunda sabitliyin və təhlükəsizliyin təmin olunmasına mühüm töhfə verir".

Tərəfdaşlığın önəmli məqamlarından birinin də enerji təhlükəsizliyi və "yaşıl keçid" sahəsində birgə layihələr olduğunu deyən A.Abdullayev qeyd edib ki, Azərbaycan və Mərkəzi Asiya dövlətləri bərpaolunan enerji potensialının birləşdirilməsi istiqamətində tarixi addımlar atırlar: "Mərkəzi Asiyadan Avropaya uzanacaq "yaşıl dəhliz" qlobal enerji xəritəsində yeni pəncərə açır".

Arzu Abdullayev bildirib ki, Azərbaycan və Mərkəzi Asiya dövlətlərinin inteqrasiyasını sıxlaşdıran mühüm amillərdən biri də Avrasiyanın nəqliyyat xəritəsini yenidən cızan Orta dəhliz (Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu) layihəsidir. Müasir geosiyasi şəraitdə Çindən və Mərkəzi Asiyadan Avropaya yüklərin daşınmasında ən təhlükəsiz, qısa və səmərəli marşrut hesab olunan Orta dəhlizin ötürücülük qabiliyyətinin artırılması həm Bakının, həm də digər türk ölkələrinin prioritetidir".

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədr müavini deyib ki, bu nəqliyyat arteriyasının ən strateji halqasını Zəngəzur dəhlizi (TRIPP) təşkil edir: "Orta dəhliz və Zəngəzur dəhlizi (TRIPP) layihələri yalnız nəqliyyat infrastrukturu kimi qiymətləndirilməməlidir. 15 milyon ton ötürmə potensialı olacaq Zəngəzur dəhlizi (TRIPP) yaxın gələcəkdə Orta dəhlizin mühüm seqmentinə çevrilərək Azərbaycanın geosiyasi mövqeyinin daha da möhkəmlənməsinə xidmət etməklə yanaşı, region dövlətlərinin gəlirlərinin artmasına da imkan yaradacaq. Zəngəzur dəhlizinin (TRIPP) açılması Orta dəhlizin gücünü artırmaqla bərabər, Mərkəzi Asiya ölkələrinin Azərbaycan vasitəsilə Türkiyə və Avropa bazarlarına birbaşa çıxışını təmin edəcək. Eyni zamanda Zəngəzur dəhlizi (TRIPP) Naxçıvan Muxtar Respublikasını ölkənin əsas ərazisi ilə birbaşa quru və dəmir yolu vasitəsilə bağlayacaq. Bu, Naxçıvanı regionun mühüm nəqliyyat-logistika qovşağına çevirəcək. Bu isə öz növbəsində turizm və ticarət əlaqələrinin şaxələnməsinə, yerli sənayenin ixrac imkanlarının genişlənməsinə zəmin yaradacaq. Dəhliz Naxçıvanda istehsal edilən məhsulların dünya bazarlarına çıxışını da asanlaşdıracaq. Bölgənin zəngin təbii ehtiyatlarının səmərəli istismarı və onların xarici ölkələrə ixracı məhz Zəngəzur dəhlizinin (TRIPP) işə düşməsi ilə birbaşa bağlıdır".

Arzu Abdullayev əlavə edib ki, Mərkəzi Asiya ilə qurulan bu möhkəm tərəfdaşlıq platforması, Orta dəhliz və onun aparıcı xətti olan Zəngəzur dəhlizi (TRIPP) kimi nəhəng infrastrukturlar Avrasiya məkanında uzunmüddətli sülhə, sabitliyə və iqtisadi tərəqqiyə xidmət edir: "Azərbaycan özünün milli maraqlarını qorumaqla yanaşı, gələcək onilliklərin regional inteqrasiya modelini uğurla formalaşdırmağa davam edir".

*İsmayıl QOCAYEV,*
*"Azərbaycan"*

# Çolpon-Ata Bəyannaməsi strateji tərəfdaşlığı gücləndirən mühüm yol xəritəsidir

**Azərbaycan və Mərkəzi Asiya dövlətləri arasında münasibətlər tarixi köklərə dayansa da, son illər bu ölkələrin əlaqələrinin bir çox istiqamətdə dinamik inkişafı daha çox müşahidə olunur. Dövlət başçılarının qarşılıqlı səfərləri, tədbirlərdə birgə iştirakı həm çoxtərəfli, həm də ikitərəfli əlaqələrə müsbət impuls verməklə, türk dövlətlərinin birliyini möhkəmləndirir.**

Bu gün Azərbaycan türk dünyasının birliyinə, əlaqələrin möhkəmlənməsinə, münasibətlərin hər məcrada inkişafına xüsusi önəm verir. "Bizim ailəmiz türk dünyasıdır" deyən Prezident İlham Əliyev məhz türk birliyinin möhkəmlənməsi istiqamətində davamlı təşəbbüslərlə çıxış edir. Elə bunun nəticəsidir ki, son dövrlərdə türk dövlətləri arasında dinamik inkişafı görürük. Bu baxımdan iyulun 31-də Qırğızıstanın Çolpon-Ata şəhərində keçirilən Azərbaycan və Mərkəzi Asiya ölkələrinin Dövlət Başçılarının qeyri-rəsmi Məşvərət Görüşü xüsusi əhəmiyyətə malikdir. Görüşün yekunu olaraq imzalanan Çolpon-Ata Bəyannaməsi tərəflərin ortaq siyasi iradəsini əks etdirərək, əməkdaşlığın prioritet istiqamətlərini müəyyənləşdirir və gələcək qarşılıqlı fəaliyyətin əsas prinsiplərini təsbit edir.

Türk dövlətləri üçün mühüm siyasi sənəd olan bu bəyannamə Azərbaycan-Mərkəzi Asiya əməkdaşlığını yeni mərhələyə daşıyır. Sənəddə humanitar, ticarət, nəqliyyat-logistika, biznes, mədəni əlaqələrlə bağlı müddəalar var.

Bəyannamədə tərəflər arasında əsrlər boyu formalaşmış tarixi, mədəni və sivilizasiya bağlarına xüsusi yer ayrılması diqqət çəkir. Sənəddə tərəflərin keçmiş, bugünkü və gələcək əlaqələri, əməkdaşlığın mövcud səviyyəsi göstərilir. Eyni zamanda türk xalqlarını birləşdirən ortaq dilin, adət-ənənələr və mədəni əlaqələrin əməkdaşlığın daha da genişlənməsi üçün möhkəm zəmin yaratdığı çatdırılır.

Bəyannamədə beynəlxalq hüququn əsas prinsiplərinə sadiqliyin bir daha vurğulanması mühüm siyasi mesaj kimi qiymətləndirilə bilər. Sənəddə dövlətlərin suveren bərabərliyi, müstəqilliyinə hörmət, ərazi bütövlüyünün və sərhədlərinin toxunulmazlığının qorunması, eləcə də daxili işlərə qarışmamaq prinsiplərinə sadiqlik təsdiqlənir. Bu yanaşma təkcə ikitərəfli münasibətlərin hüquqi əsaslarını möhkəmləndirmir, həm də regionda sabitliyin, təhlükəsizliyin və qarşılıqlı etimadın gücləndirilməsinə töhfə verir. Xatırladaq ki, regional təhlükəsizlik məsələsi bəyannamədə əsas istiqamətlərdən birini təşkil edir. Belə ki, tərəflər regional əməkdaşlığın uzunmüddətli və dayanıqlı olması üçün təhlükəsizlik sahəsində qarşılıqlı fəaliyyət göstərəcəklər. Eyni zamanda regional təhlükəsizliyə təhdid yaradan çağırışlara qarşı birgə mübarizə aparacaqlar. Bəyannamədə terrorizm, ekstremizm, transmilli mütəşəkkil cinayətkarlıq, narkotik vasitələrin qanunsuz dövriyyəsi və digər təhlükələrə qarşı birgə mübarizənin vacibliyi vurğulanaraq, bunların prioritet istiqamətlər olduğu təsdiqlənir. Bu təhdidlərin qarşısının alınması üçün də birgə və koordinasiyalı fəaliyyət ön plana çəkilir.

Çolpon-Ata Bəyannaməsində Azərbaycan-Mərkəzi Asiya dövlətləri arasında humanitar əməkdaşlığın inkişafına dair müddəalar da yer alır. Sənəddə təhsil, elm, mədəniyyət, gənclər siyasəti və turizm sahələrində əlaqələrin genişləndirilməsinin vacibliyi vurğulanır. Bu istiqamətlər üzrə əməkdaşlıq təkcə dövlətlərarası münasibətləri deyil, xalqlar arasında qarşılıqlı anlaşmanı, dostluğu və etimadı da gücləndirir. Eyni zamanda universitetlər, elmi-tədqiqat institutları və analitik mərkəzlər arasında əlaqələrin genişlənməsi birgə elmi layihələrin həyata keçirilməsinə, təcrübə mübadiləsinə və yüksəkixtisaslı kadrların hazırlanmasına yeni imkanlar açır.

Bəyannamədə mədəni irsin, tarixi ənənələrin və milli-mənəvi dəyərlərin qorunmasına xüsusi önəm verilməsi də diqqətçəkən məqamlardandır. Bu onu göstərir ki, tərəflər milli kimliklərini qoruyaraq, əməkdaşlıq qurmaq, əlaqələrini inkişaf etdirmək istəyirlər. Bu həm də xalqlar arasında qarşılıqlı hörmətin, tolerantlığın və uzunmüddətli tərəfdaşlığın daha da möhkəmlənməsinə xidmət edir.

Sənəddə yer alan əsas istiqamətlərdən biri də günümüzdə inkişafına xüsusi önəm verilən, xalqları, mədəniyyətləri bir-birinə yaxınlaşdıran, birbirləri haqqında təəssürat yaradan turizm sahəsinin inkişafıdır. Bu sahədə əməkdaşlığın inkişaf etdirilməsi region ölkələrinin cəlbediciliyini artırmaqla yanaşı, xalqlar arasında birbaşa əlaqələrin də inkişafına təkan verəcək. Son dövrlər Azərbaycan Hava Yollarının (AZAL) Mərkəzi Asiya şəhərlərinə açdığı birbaşa reyslər də turizm sahəsinə ayrılan diqqəti bir daha təsdiqləyir.

Digər mühüm məqam ölkələr arasında ticarət və nəqliyyat-logistika imkanlarının daha da genişləndirilməsidir. Bu gün Mərkəzi Asiya ölkələri Azərbaycanın Avropa və Asiyanı birləşdirən mühüm tranzit mərkəzi olduğunu qəbul edərək, ölkəmizlə əlaqələrin inkişafına xüsusi önəm verirlər. Bu baxımdan Orta dəhliz (Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu) mühüm əhəmiyyətə malikdir. Bu nəqliyyat marşrutu hazırda təhlükəsiz istiqamət olmaqla yanaşı, yüklərin daha qısa zamanda daşınmasına imkan verir. Bundan əlavə, region ölkələrinin qlobal nəqliyyat şəbəkəsinə inteqrasiyasına şərait yaradır. Bütün bunlar isə ölkələrin logistika imkanlarını genişləndirir. Sənəddə tərəflər ticarət dövriyyəsinin artırılması, qarşılıqlı investisiya yatırımı, ümumilikdə biznes sahəsində əməkdaşlığın genişləndirilməsi niyyətini bəyan edirlər.

Ümumilikdə, Çolpon-Ata Bəyannaməsi türk dövlətləri arasında əməkdaşlığın yeni mərhələyə qədəm qoyduğunu göstərən mühüm siyasi sənəddir. Bəyannamədə əks olunan prinsiplər qarşılıqlı etimadın möhkəmləndirilməsinə, ortaq maraqların qorunmasına və uzunmüddətli tərəfdaşlığın inkişafına xidmət edir. Sənəd siyasi dialoqla yanaşı, iqtisadi, nəqliyyat, enerji, rəqəmsal inkişaf, humanitar və mədəni sahələrdə əlaqələrin genişləndirilməsi üçün mühüm istiqamətlər müəyyənləşdirir. Eyni zamanda üzv dövlətlərin beynəlxalq məsələlərdə koordinasiyalı şəkildə və ortaq mövqedən çıxış etməsinə şərait yaradır. Bəyannamənin müddəalarının ardıcıl şəkildə həyata keçirilməsi əməkdaşlığın daha da dərinləşməsinə və regionda sabitliyin möhkəmlənməsinə töhfə verəcək. Nəticə etibarilə Çolpon-Ata Bəyannaməsi türk birliyinin gələcək inkişafına istiqamət verən və üzv ölkələr arasında strateji tərəfdaşlığı daha da gücləndirən mühüm yol xəritəsi kimi xüsusi əhəmiyyət daşıyır.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

REGİONLAR

# Burada günəşin istisi "yaşıl enerji"yə çevriləcək

## Cənubi Qafqazda ən böyük olacaq Biləsuvar Günəş-Elektrik Stansiyasının tikintisi sürətlə davam edir

**Yer üzündə tək bir enerji var ki, heç vaxt tükənmir və ətraf aləmə ziyan vurmur. Bu, günəş enerjisidir. Bəlkə də o üzdən bütün xalqlar günəşi həyat bilirlər, müqəddəs sanırlar.**







Ölkəmizdə neft və qaz ehtiyatlarının kifayət qədər olmasına baxmayaraq, qarşıya günəş enerjisindən maksimum istifadə etmək vəzifəsi qoyulub. Bu da təsadüfi deyil. Ekoloji cəhətdən təmiz olduğu üçün "yaşıl enerji" sayılan günəş, eləcə də külək, su, bioloji enerji bu gün bəşəriyyətin təbii fəlakətlərdən xilas yollarından biri hesab edilir.

Ələt-Astara magistral şose yolunun Biləsuvar rayonu ərazisinə keçidinin şimalında, təxminən bir kilometr kənarda külli miqdarda ağır texnikaların hərəkəti müşahidə olunur. Bura Biləsuvar Günəş-Elektrik Stansiyasının tikintisinin getdiyi ərazidir. Jurnalist olaraq obyektə baş çəkmək qərarına gəldik. Bunun üçün öncə tikintinin Bakı ofisinin məsul işçilərindən biri - Murad Sadıqovla telefon əlaqəsi saxlayıb fikrimizi bildirdik.

- Lap yaxşı, sabah səhər saat 10-da orada olarsınız. Tapşıracağam, sizi qarşılayıb stansiyanın tikintisinin gedişi barədə ətraflı məlumatlandırsınlar, - dedi.

Elə də oldu. Səhəri gün deyilən vaxtda stansiyanın yoxlama-buraxılış məntəqəsinə gəldik. Adımı, soyadımı öyrənib birinci məntəqədən keçməyimə icazə verdilər. Torpaq yolla təxminən 200 metr gedib 2-ci buraxılış məntəqəsinə çatdıq. İşçilər ofislə əlaqə saxladıqdan sonra obyektə getməyə icazə verdilər.

Yolboyu hər tərəfdə qızğın iş getdiyinin şahidi olduq. Nəhayət, "SOCAR GREEN"in ofisinə çatdıq. Burada bizi şirkətin məsul işçiləri, layihənin icrasının rəhbərləri Kamil Manafov və Alp Ər Tunqa qarşıladılar. Qeyd edək ki, ofisdə təmizlik, səliqə-sahman hökm sürürdü. Hər kəs bomboz Muğan düzündə yüngül konstruksiya ilə qurulmuş birmərtəbəli səyyar binanın otaqlarında öz işi ilə məşğul idi. İclas zalında oturub söhbət etdik. Kamil Manafov müəyyən məlumatlar verib burada çalışan şirkətlərin birgə keçirdikləri iclasda iştirak etməsinin vacibliyini deyərək onu üzrlü hesab etməyimizi istədi və suallarımıza cavab verməyi Alp Ər Tunqaya həvalə etdi.

Alp Ər Tunqanın ata-anası Qərbi Azərbaycandandır. 90-cı illərin məlum hadisələri zamanı qaçqın kimi Azərbaycana pənah gətiriblər. Burada ailə qurublar.

- Mən dünyaya Azərbaycanda göz açmışam. Bu adı da mənə valideynlərim veriblər.

Mühəndislik ixtisasını isə qardaş Türkiyədə almışam.

Onun tikinti barədə dediklərindən öyrəndik ki, Biləsuvar Günəş-Elektrik Stansiyasının (GES) tikintisinə 2025-ci ilin 2-ci yarısında start verilib. Layihənin sifarişçiləri Birləşmiş Ərəb Əmirliyinin "MASDAR" və Azərbaycanın "SOCAR GREEN" şirkətləridir. Baş podratçı Çinin "NWEPOJ" şirkətidir. İşləri icra edən Çin şirkətinin tərkibində 30-a yaxın törəmə təşkilat fəaliyyət göstərir. Onlar stansiyada aparılan tikinti işləri, ağırtonlu maşınlarla obyektə mal-materialların, qum-çınqıl, sement, beton məmulatlarının gətirilməsi, buldozer və ekskavatorlarla ərazidə planlaşdırmanın aparılması, dirəklərin basdırılması, yeraltı kabellər üçün xəndəklərin qazılması, yol çəkilişi, bina tikintisi və digər işlərlə məşğuldurlar. Bunların hamısını idarə edənlər isə 1500 nəfərdən ibarət insanı birləşdirən kollektivdir.

Stansiyada görülən işlərin keyfiyyətinə nəzarət İspaniyanın 20 mühəndisi olan "MAJ" şirkətinin üzərinə düşür. Ümumi ərazisi təxminən 1500 hektar olan stansiyada bir milyon günəş paneli quraşdırılacaq. Stansiyanın ümumi gücü 445 meqavata (MVt) hesablanıb. İl ərzində burada 961 milyon kilovat-saat elektrik enerjisi istehsal ediləcək və o, Cənubi Qafqazda ən böyük GES olacaq.

Hazırda stansiyada günəş panellərinin quraşdırılması, alt konstruksiya sisteminin tikintisi aparılır. Özülü betonla bərkidilmiş günəş panelləri dirəklərinin sayı 138 min olacaq. Dirəklərin 100 mindən çoxu artıq quraşdırılıb.

445 MVt-lıq yarımstansiyada da işlər davam edir və noyabr ayında başa çatdırılacaq. Texnoloji avadanlıqların demək olar hamısı Çin Xalq Respublikasından gətirilir. Günəş panelləri, onların alt konstruksiyaları, 400 MVA-lıq 2 transformator, kabellər və digər avadanlıqların çox hissəsi daşınıb obyektə gətirilib. Yalnız transformatorun biri yoldadır ki, onun da yaxın günlərdə stansiyaya daxil olması gözlənilir. Bu transformatorların hər birinin çəkisi 250 tondur, yağ töküləndən sonra isə 400 tona çatır.

Üç növbədə tikintisi davam edən stansiyada işlərin bu ilin sonunda başa çatdırılması planlaşdırılıb. Həmin vaxt Biləsuvar GES respublikamızın ümumi enerji sisteminə qoşulacaq.

Stansiyada olarkən ölkəmizdə gedən inkişafın bir daha canlı şahidinə çevrildik. Bu inkişafın mühüm bir hissəsi olan Biləsuvar GES əhəmiyyətinə, mahiyyətinə görə misilsizdir. O, qloballaşan dünyamızda "yaşıl enerji" mənbəyi kimi ətraf mühitin qorunması və ekoloji çirklənmənin qarşısının alınmasında, eyni zamanda iqlim dəyişiklikləri -Yer kürəsinin istiləşməsi ilə mübarizədə mühüm rol oynayacaq.

*Seyran CAVADOV,*
*"Azərbaycan"*



# Ağstafalı fermerlərin başları işdən açılmır

**Kənd təsərrüfatı məhsulları istehsalında seçilən ağstafalı fermerlər yeni aqrar inkişaf dövlət proqramından irəli gələn vəzifələrin icrası istiqamətində tədbirlərə start vermişlər. Xüsusilə taxılçılar uğurlu göstəricilərə nail olmuşlar.**

Cari ilin məhsulu üçün rayon üzrə 8187,2 hektarda taxıl səpini aparılmışdı ki, bunun da 4812,3 hektarı buğda, 3374,9 hektarı arpa idi. Səpinə "Aqroservis" MMC-nin və fermerlərin 90-dək şəxsi texnikaları cəlb edilmiş, orta məhsuldarlıq 31,9 sentnerə çatmışdır. Fermerlərdən Elxan Cürənli 130, Köçəsgər kənd sakinləri Gülbəniz Mehdiyeva 70, Elmira İsmayılova 20, Komsomol Məmmədov 18 hektar sahədən nəzərdə tutduqlarından çox taxıl götürmüşlər. Rayonun ən çox taxıl əkən kəndləri arasında Göycəli, Köçəsgər, Eynallı, Dağ Kəsəmən və Qıraq Kəsəmən kəndləri yenə də fərqlənmişlər.

Fermerlər yazlıq əkinləri üçün 207,31 hektarda kartof, 583,11 hektarda yazlıq və yaylıq günəbaxan, 175,83 hektarda yazlıq və yaylıq qarğıdalı bitkisi əkmişlər. Hazırda kartof yığımı gedir.

Əvvəlki illərdə olduğu kimi, Ağstafada meyvə bağlarının salınmasına da diqqətlə yanaşılır. Son məlumata görə, fermerlərin öhdəsində 1619,3 hektar meyvə bağı var. Onlar bağlara üzvi və mineral gübrələr verdikdən sonra ağacların dibini yumşaltmağa, budama və təmir işlərinə başlamışlar.

Rayonda intensiv meyvə bağlarına da maraq artır. Ramiz Nuriyev "Kur Fruit Company" MMC-də 11 adda müxtəlif çeşiddə intensiv meyvə bağı salmışdır. Kolxəlifəli kəndində Səxavət Binnətovun 55, Aşağı Göycəli kəndində Nazim Əhmədovun 6, Zəlimxan kəndində Elfaq Mamayevin də 1,49 hektarda intensiv fındıq bağı var. Fermerlər bağlara yüksək səviyyədə qulluq etməklə 100 faiz bitiş əldə etmişlər.

Ağstafa üzüm istehsalında da fərqlənən rayonlardandır. Hazırda rayon üzrə 508 hektar üzüm bağı var. Keçən il hər hektardan orta hesabla 153 sentner məhsul əldə edən bağbanlar bu il həmin rəqəmi artırmaq istəyirlər. Üzüm istehsalında Poylu kəndindən Səməndər Vəliyev, Qurban Aslanov, Kolxəlifəli kəndindən Yulət Kərimov fərqlənirlər. Hazırda bağlarda xəstəliklərə qarşı mübarizə tədbirləri aparılır.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

# Xaçmazın yeni heyvan satışı bazarı fəaliyyətə başlayıb

**Xaçmazda müasir infrastruktura və sanitar-gigiyenik normalara uyğunlaşdırılmış yeni heyvan satışı bazarı fəaliyyətə başlayıb.**




Bazarda heyvanların müvəqqəti saxlanılması, baytarlıq-sanitariya nəzarətinin təmin olunması, eləcə də alıcı və satıcılar üçün bütün lazımi infrastruktur yaradılıb. Vətəndaşların rahatlığı üçün əlverişli ticarət sıraları təşkil edilib və orada zəruri avadanlıqlar quraşdırılıb.

Yeni bazarın istifadəyə verilməsi əhalinin təhlükəsiz və keyfiyyətli heyvandarlıq məhsulları ilə təminatına, qanunsuz ticarətin qarşısının alınmasına, eləcə də regionda kənd təsərrüfatının və heyvandarlığın inkişafına imkan verəcək.

*Akif ƏLİYEV,*
*"Azərbaycan"*

# Neftçalada yeni layihə reallaşdırılır

**Azərbaycan Mühasiblər və Risk Peşəkarları Assosiasiyası (ARPA) İctimai Birliyi tərəfindən Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi və "BP Azərbaycan"ın maliyyə dəstəyi ilə Neftçalada iqlim risklərinin qiymətləndirilməsi, "yaşıl maliyyə" və ESG (Ətraf Mühit, Sosial və Korporativ İdarəetmə) yanaşmalarının təşviqinə yönəlmiş yeni layihənin icrasına başlanılıb.**

Layihənin əsas məqsədi rayonda iqlim dəyişikliklərinin yaratdığı risklərin qiymətləndirilməsi, bu risklərin sosial-iqtisadi təsirlərinin təhlili, "yaşıl maliyyə" alətlərinin tətbiq imkanlarının təşviqi və yerli səviyyədə iqlimədavamlı idarəetmə yanaşmalarının inkişafına dəstək göstərməkdir.

İqlim dəyişiklikləri bu gün təkcə ekoloji deyil, həm də iqtisadi və sosial inkişaf üçün mühüm çağırışlardan biridir. Xüsusən kənd təsərrüfatı, balıqçılıq və sahilyanı ekosistemlərin üstünlük təşkil etdiyi Neftçala rayonu iqlim dəyişikliklərinin təsirlərinə həssas ərazilərdən hesab olunur. Bu baxımdan risklərin vaxtında müəyyən edilməsi və onların idarə olunması üzrə praktik yanaşmaların formalaşdırılması xüsusi əhəmiyyət kəsb edir.

ARPA İctimai Birliyinin İdarə Heyətinin sədri Günay Şahbazova layihənin əhəmiyyətini vurğulayaraq bildirib: "Ölkəmizdə "yaşıl iqtisadiyyat"a keçid dövlət siyasətinin prioritetidir. Neftçala kimi iqlim dəyişikliyinə həssas regionlarımızda risklərin düzgün idarə olunması və "yaşıl maliyyə" alətlərinin tətbiqi həm yerli sahibkarlığın dayanıqlığı, həm də ekoloji təhlükəsizlik baxımından strateji əhəmiyyət kəsb edir".

Bu cür layihələrin digər bölgələrdə də həyata keçirilməsi nəzərdə tutulur.

*"Azərbaycan"*

# Xızıda kitabsevərlər bir araya gəldilər

**Xızı Rayon İcra Hakimiyyəti, Abşeron-Xızı Regional Gənclər və İdman İdarəsi və Abşeron-Xızı Regional Mədəniyyət İdarəsinin birgə təşkilatçılığı ilə Xızı rayon Heydər Əliyev Parkında "Biliklə gələcəyə" adlı kitab sərgisi keçirilib.**

Açılışda çıxış edənlər bildiriblər ki, belə tədbirlər gənc nəslin kitab oxumağa marağının artmasına, milli-mənəvi dəyərləri əxz etməsinə dəstək verir. Həmçinin mütaliənin cəmiyyətin intellektual yükünün artırılmasında rolu, göz yaddaşının uzun müddət unudulmadığı bir daha vurğulanıb. Diqqətə çatdırılıb ki, milli-mənəvi dəyərlərin qorunub gələcək nəsillərə ötürülməsində və zəkanın inkişafında, onun zamanla ayaqlaşmasında kitabın üstünlüyü çoxdur. İnformasiya bolluğu dövründə insan kitabla dostluğu pozmamalı, səthi bilgilərdən kənar durmalıdır.



Tədbirdə həmçinin qeyd edilib ki, xızılı gənclər ötən tədris ilində istər intellektual oyunlarda, istərsə də qəbul imtahanlarında fərqləniblər. Bu da onların kitaba bağlılığından xəbər verir.

Tədbir çərçivəsində gənclər öz aralarında sual-cavab oyunu keçiriblər. Sonda universitetlərə qəbul zamanı yüksək bal toplayan məzunlara kitab hədiyyə olunub.

*A.ƏLİYEV,*
*"Azərbaycan"*

# Müasir suvarma sistemləri ilə bağlı sahə görüşü keçirilib

**Aqrar Xidmətlər Agentliyi Təlim Mərkəzinin təşkilatçılığı ilə Astaranın Ərçivan qəsəbəsində fermer Fətulla Əliyevin 4 hektarlıq intensiv meyvə bağında "Aqrar sahədə müasir suvarma sistemlərinin təşviqi" mövzusunda maarifləndirici sahə görüşü keçirilib.**



Müasir damcı suvarma sistemi ilə təchiz olunmuş bağda sitrus meyvələri və digər subtropik bitkilər becərilir. Belə bir təsərrüfatın ünvan seçildiyi görüşün əsas məqsədi təlim iştirakçılarının müasir suvarma texnologiyaları ilə bağlı əldə etdikləri nəzəri biliklərin praktiki nümunələr əsasında möhkəmləndirilməsi, habelə innovativ suvarmada texniki imkanların nümayiş etdirilməsi və qabaqcıl təcrübələrin öyrənilməsi idi.

Görüşdə beynəlxalq ekspert də iştirak edib. Türkiyədən dəvət olunmuş beynəlxalq ekspert Dr. Abdullah İlker Esinin iştirakı ilə keçirilən görüşdə praktiki təqdimat zamanı müasir suvarma sistemlərinin layihələndirilməsi, texniki hesablamaların aparılması, quraşdırılma mərhələləri, istismar qaydaları və texniki xidmətin təşkili ilə bağlı mühüm məqamlar iştirakçılara bilavasitə nümayiş olunub. Həmçinin su ehtiyatlarından səmərəli istifadə, su itkilərinin minimuma endirilməsi və aqrar istehsalda dayanıqlı su idarəçiliyinin təmin olunması istiqamətində qabaqcıl təcrübələr iştirakçıların diqqətinə çatdırılıb. Qeyd olunub ki, avadanlıqların düzgün seçilməsi, quraşdırılması və idarə edilməsi mühüm məsələlərdəndir. Eləcə də suvarma proseslərinin avtomatlaşdırılması və "ağıllı idarəetmə texnologiyaları"nın təsərrüfatlarda tətbiqi imkanları nəzərdən keçirilib.

Təlim proqramına həmçinin TOT (Training of Trainers) sessiyaları daxil edilib. Sessiyalar zamanı müasir suvarma sistemləri sahəsində yerli və beynəlxalq təcrübə müzakirə olunub, müxtəlif ölkələrin uğurlu təcrübələrinin yerli şəraitdə tətbiqi tövsiyə edilib.

Aqrar Təlim Mərkəzi tərəfindən müxtəlif bölgələrdə təşkil olunan bu cür təlim proqramları dövlət-özəl sektor əməkdaşlığı, beynəlxalq tərəfdaşlarla birgə həyata keçirilən təşəbbüslər, xarici ekspert və mütəxəssislərin iştirakı, eləcə də qabaqcıl beynəlxalq təcrübənin tətbiqi vasitəsilə aqrar sahədə bilik və bacarıqların inkişafına, innovativ yanaşmaların təşviqinə və fermerlərin peşəkar potensialının gücləndirilməsinə xidmət edir.

Sahə görüşü zamanı iştirakçılara müasir suvarma sistemləri, onların müxtəlif təsərrüfat sahələrində tətbiq xüsusiyyətləri, suvarma proseslərinin düzgün təşkili və onlardan səmərəli istifadə edilməsi ilə bağlı ətraflı məlumat verilib, "ağıllı suvarma sistemləri"nin iş prinsipləri əyani nümayiş olunub.

*S.QUBADOĞLU,*
*"Azərbaycan"*

# Bağban fermerin növbəti arzusu müasir soyuducu anbar tikməkdir

**Tovuzun Torpaqqala kəndində sahibkar Səddam Ələsgərova məxsus meyvəçilik təsərrüfatında nektarin, xurma və alma bağları var. Hazırda təsərrüfatda məhsul yığımı gedir.**

Bu günlər RİH-in başçısı Məmməd Məmmədov təsərrüfatda olmuşdur. Təsərrüfatın rəhbəri ilə görüş zamanı yeni aqrar inkişaf dövlət proqramından irəli gələn vəzifələrin icrası, dövlət dəstəyi mexanizmlərindən səmərəli istifadə, istehsalın genişləndirilməsi, müasir aqrotexniki yanaşmaların tətbiqi və meyvəçilik təsərrüfatının inkişaf perspektivləri ətrafında fikir mübadiləsi aparılmışdır. Təsərrüfatın mövcud potensialının daha da artırılması, məhsuldarlığın yüksəldilməsi və dövlət proqramının təqdim etdiyi imkanlardan maksimum faydalanmaq istiqamətində müvafiq tövsiyələr verilmişdir.

Söhbət zamanı Səddam Ələsgərov gələcək inkişaf planları barədə danışaraq bildirmişdir ki, təsərrüfatın istehsal gücünün artırılması, sahələrin genişləndirilməsi və müasir infrastrukturun yaradılması istiqamətində yeni layihələr nəzərdə tutur. Xüsusən məhsulların uzunmüddətli və keyfiyyətli saxlanılması, satış imkanlarının genişləndirilməsi üçün müasir soyuducu anbarın tikintisinə dövlət dəstəyinin göstərilməsinin vacibliyini diqqətə çatdırmışdır. Bildirmişdir ki, Prezident İlham Əliyevin aqrar sahənin inkişafına göstərdiyi xüsusi diqqət və bu istiqamətdə həyata keçirilən ardıcıl siyasət regionlarda kənd təsərrüfatının, o cümlədən meyvəçilik sahəsinin inkişafına geniş imkanlar yaradır. Dövlət tərəfindən tətbiq olunan subsidiyalar, güzəştli kreditlər və digər dəstək mexanizmləri sahibkarlığın inkişafına, istehsal həcminin artırılmasına və yeni iş yerlərinin yaradılmasına mühüm töhfə verir.



*S.YUNİSOĞLU,*
*"Azərbaycan"*

# Rəqəmsal platforma xəbərləri necə idarə edir?

## Alqoritmlər insanın bir xəbərə ayırdığı diqqəti son 10 ildə 12 saniyədən 8 saniyəyə endirib

**İnformasiya dövründə xəbərin necə istehsal olunması qədər onun geniş auditoriyaya necə çatdırılması da böyük əhəmiyyət kəsb edir. Keçən əsrdə xəbər gündəmini ənənəvi qəzet redaktorları və televiziya rəhbərləri müəyyənləşdirirdi. Hazırda isə bu, böyük ölçüdə rəqəmsal platformaların əlinə keçib.**



Rəsmi statistikalara görə, "Google" və "Facebook" kimi rəqəmsal nəhənglər qlobal onlayn reklam bazarının yarıdan çoxuna, təxminən 63,1 faizinə nəzarət edir. Reuters İnstitutu tərəfindən hər il hazırlanan "Rəqəmsal Xəbər Hesabatı"na əsasən, gənclərin (18-24 yaş arası) 50 faizdən çoxu əsas xəbər mənbəyi kimi artıq saytları yox, məhz "TikTok", "İnstaqram" və "YouTube" kimi sosial platformaları seçir. Bundan əlavə, ABŞ-nin Vaşinqton şəhərində yerləşən, dünyada ən nüfuzlu və müstəqil beyin mərkəzlərindən biri olan Pyu Tədqiqat Mərkəzinin son hesabatına görə, gənclərin (xüsusilə 30 yaşdan aşağı) üçdəbirindən çoxu xəbərləri müntəzəm olaraq "TikTok" vasitəsilə izləyir. Bu göstərici bir neçə il əvvəl 3-4 faiz civarında idi. Milyardlarla insanın informasiya axınını nizamlayan bu platformalar müasir dövrün ən böyük xəbər paylayıcısı kimi çıxış edirlər.

Rəqəmsal şəbəkələrin xəbər gündəmini diktə etmə sisteminin mərkəzində alqoritmlər durur. Alqoritm kompüterə müəyyən bir məqsədə çatması üçün verilən addım-addım təlimatlar toplusudur. Sosial şəbəkə platformalarında bu sistemlər istifadəçilərin klikləmə, bəyənmə, şərh yazma və videolara baxma müddəti kimi rəqəmsal izlərini daim görür. Toplanan məlumatlar əsasında mürəkkəb istifadəçi profilləri formalaşdırılır. Nəticədə alqoritm hər bir şəxs üçün xüsusi xəbər lenti qurur və hansı xəbərin önə çıxacağını, hansının isə kölgədə qalacağını təkbaşına müəyyən edir.

Ənənəvi redaksiya mühitində xəbərin dəyəri onun ictimai əhəmiyyəti, dəqiqliyi və obyektivliyi ilə ölçülürdü. Alqoritmik redaktədə isə əsas meyar "cəlbetmə" göstəricisidir. Sosial media platformalarının biznes modeli istifadəçini mümkün qədər uzun müddət ekrana kilidləmək üzərində qurulub. Bu səbəbdən alqoritmlər çox vaxt emosional, sensasiyalı, mübahisəli və qütbləşdirici xəbərləri daha sürətlə ön plana çıxarır. Sakit analizlər isə avtomatik olaraq aşağı sıralara düşür. Bu sistem iki mənfi rəqəmsal prosesə səbəb olur. Birincisi, məlumat qabarcıqlarıdır, yəni alqoritmlər insana, sadəcə, öz maraqlarına uyğun məzmunlar göstərir və onu fərqli fikirlərdən məhrum edir, ikincisi isə yalan xəbərlərin sürətli yayılmasıdır, sensasiyalı və saxta xəbərlər dərhal reaksiya topladığı üçün alqoritmlər onları önə çıxarır. Məsələn, Massaçusets Texnologiya İnstitutunun apardığı araşdırmadan məlum olur ki, saxta və uydurma xəbərlər doğru xəbərlərə nisbətən 6 dəfə daha sürətlə yayılır və 70 faiz daha çox insana çatır. Həmçinin alqoritmlərin daimi emosional gərginlik və sensasiya yaratması artıq auditoriyanı yormağa başlayıb. Reuters İnstitutunun qlobal araşdırmalarına görə, dünyada auditoriyanın təxminən 39 faizi xəbər oxumaqdan şüurlu şəkildə qaçır. İnsanlar alqoritmlər tərəfindən davamlı olaraq önə çıxarılan neqativ və gərgin kontentlərdən doyduqlarını bildirirlər.

Qeyd edək ki, qlobal medianın mərkəzləşməsi problemi rəqəmsal dövrdə yeni bir səviyyəyə qaldırılıb. Müstəqil xəbər saytları və ənənəvi qəzetlər öz auditoriyalarına çatmaq üçün bu platformalardan asılı olub. Alqoritmin etdiyi kiçik bir dəyişiklik minlərlə media qurumunun oxucu sayı və gəlirlərinin bir anda kəskin şəkildə düşməsinə səbəb ola bilir. Hətta "Facebook" şirkətinin xəbər alqoritmində etdiyi tək bir yeniləmə nəticəsində dünyada yüzlərlə media orqanı oxucularının yarıdan çoxunu itirmiş, bəzi böyük rəqəmsal nəşrlər fəaliyyətini dayandırmaq məcburiyyətində qalmışdı. İnsan faktoru olan peşəkar redaktorların alqoritmlərlə əvəzlənməsi isə ciddi etik kəsirlər yaradır. Bunun ən bariz nümunələrindən biri "Microsoft" şirkətinin MSN ("Microsoft Network") portalında yaşanıb. Şirkət onlarca jurnalist və redaktoru işdən çıxararaq xəbərlərin seçilməsini tam olaraq alqoritmlərə həvalə edib. Lakin redaktor süzgəcinin yoxluğu qısa zamanda özünü göstərib, alqoritmlər dezinformasiya xarakterli, manipulyativ və etik standartlara cavab verməyən yazıları ana səhifəyə çıxarmağa başlayıb.

Sosial media şirkətləri xəbər gündəmini idarə etsələr də, özlərini məsuliyyətli nəşriyyatçı saymır, sadəcə, neytral texnoloji vasitə adlandırırlar. Lakin real mənzərə göstərir ki, alqoritmləri quran bu şirkətlər öz qaydalarını bütün cəmiyyətə diktə edirlər. ABŞ-nin İndiana Universitetinin "Botometer" layihəsi çərçivəsində aparılan araşdırmalardan məlum olur ki, sosial platformalarda gündəmə gələn mövzuların və siyasi xəbərlərin 10-15 faizi avtomatlaşdırılmış bot şəbəkələri tərəfindən süni şəkildə önə çıxarılır. Alqoritm bu süni reaksiyanı real kütlənin marağı kimi qəbul edərək, həmin xəbərləri milyonlarla insana təklif edir. Bu vəziyyət bir sıra hüquqi və etik suallar doğurur. İlk növbədə insanların doğru məlumat almaq hüququ rəqəmsal platformaların qazanc maraqlarına qurban verilməməlidir, ikincisi, redaksiya şəffaflığı tam təmin olunmalı, yəni alqoritmlərin hansı prinsiplərlə işlədiyi və xəbərləri necə sıraladığı açıq bildirilməlidir, üçüncüsü isə gizli məhdudiyyətlər aradan qaldırılmalıdır, çünki qeyri-şəffaf alqoritmlər səbəbindən vacib sosial və siyasi mövzuların süni şəkildə boğulması riski var.

Rəqəmsal platformaların xəbər gündəminə təkbaşına nəzarət etməsi azad müzakirələrə zərər vurur. Bu vəziyyət demokratik dəyərlər üçün də ciddi təhlükə yaradır. Problemi həll etmək üçün sosial media şirkətləri öz məsuliyyətini bilməlidir. Onlar xəbər paylaşarkən jurnalistika etikasına və insan hüquqlarına riayət etməlidirlər. Eyni zamanda dövlətlər və beynəlxalq təşkilatlar bazarda inhisarın qarşısını almalıdırlar. Alqoritmlərin işini şəffaflaşdırmaq üçün isə təsirli və işlək qanunlar qəbul edilməlidir.

Beləliklə, cəmiyyətin rəqəmsal və media savadlılığını artırmaq vacibdir. Oxucular alqoritmlərin təqdim etdiyi hazır xəbər lenti ilə kifayətlənməməlidirlər. Onlar fərqli mənbələrdən istifadə etməyi və faktları yoxlamağı öyrənməlidirlər. Alqoritmlərin birtərəfli təsirini yalnız iki yolla azaltmaq olar. Bu, platformaların məsuliyyətli davranması və insanların tənqidi təfəkkürə yiyələnməsidir.

*Təhminə VERDİYEVA,*
*"Azərbaycan"*

Azercell abunəçilərinin nəzərinə!

"Azercell Telekom" MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar 06.08.2026-cı ildə gecə saatları ərzində bəzi xidmətlərin istifadəsində müvəqqəti çətinliklərin yaranması mümkündür. Təkmilləşdirmə işləri yekunlaşdıqdan sonra xidmətlərdən tam normal əsaslarla istifadə imkanı təmin ediləcəkdir.

# Havanın temperaturu 39 dərəcəyədək yüksələcək



Azərbaycanda avqustun 5-nə gözlənilən hava şəraiti açıqlanıb.

Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, sabah Bakıda və Abşeron yarımadasında hava şəraitinin yağmursuz keçəcəyi proqnozlaşdırılır. Şimal-şərq küləyi axşam mülayim şimal-qərb küləyi ilə əvəzlənəcək. Havanın temperaturu gecə 22-25, gündüz 31-36 dərəcə isti olacaq. Atmosfer təzyiqi 759 millimetr civə sütunu, nisbi rütubət gecə 70-75, gündüz 40-50 faiz təşkil edəcək. Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli az yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Gecə və səhər bəzi dağlıq ərazilərdə arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 21-26, gündüz 34-39, dağlarda gecə 15-20, gündüz 25-30 dərəcə isti olacağı bildirilir.

# Paşinyanın yeni komandası və İrəvanın 5 illik "yol xəritəsi"

## Ermənistanda kadr təyinatları region ölkələri ilə münasibətlərdə sülh və əməkdaşlıq xəttinin davam edəcəyindən xəbər verir

**Ermənistanda keçirilən 7 iyun parlament seçkilərindən sonra ölkənin siyasi səhnəsində yeni idarəçilik mərhələsi rəsmən start götürüb. Baş nazir Nikol Paşinyanın təqdimatı ilə Prezident Vaaqn Xaçaturyan yeni hökumətin tərkibini təsdiqləyən müvafiq fərmanlar imzalayıb.**



İcraedici və qanunverici hakimiyyətdə reallaşan kadr təyinatları İrəvanın regional siyasətində, xüsusilə Azərbaycanla sülh prosesində və Türkiyə ilə münasibətlərin normallaşması istiqamətində götürülən kursun dəyişməz qalacağını, hətta intensivləşəcəyini nümayiş etdirir.

Yeni formalaşdırılan komandada ciddi kadr dəyişikliklərinə getməyən Paşinyan daha çox mövcud xəttin davamlılığına üstünlük verib. Baş nazirin müavinləri vəzifəsinə yenə də Mher Qriqoryan və Tiqran Xaçatryan təyin olunub. Azərbaycanla sərhədlərin delimitasiyası və demarkasiyası üzrə komissiyada Ermənistanı təmsil edən Mher Qriqoryanın postunda qalması rəsmi İrəvanın Bakı ilə praktiki danışıqlar mexanizmini saxlamaq niyyətindən xəbər verir. Eyni zamanda Ararat Mirzoyanın xarici işlər naziri statusunu saxlaması Ermənistanın Qərbə inteqrasiya və Avropa istiqamətli xarici siyasət prioritetlərinin dəyişməz olduğunu göstərir.

Hökumət strukturlarındakı yeganə yeni sima yüksək texnologiyalar sənayesi naziri vəzifəsinə gətirilən Davit Tadevosyan olub. Diqqətçəkən əsas dəyişikliklərdən biri isə Baş nazir administrasiyasında baş verib. Nikol Paşinyan keçmiş müşaviri və Ermənistanın ABŞ-dəki sabiq səfiri Lilit Makuntsu administrasiyanın rəhbəri təyin edib. Makuntsun təqdimatında çıxış edən Paşinyan qarşıdakı 5 illik dövrün Ermənistan dövlətçiliyinin davamlılığı baxımından həlledici olduğunu vurğulayıb. Hökumət başçısı yeni imkanlarla yanaşı, meydana çıxa biləcək çağırışların düzgün idarə olunmasının vacibliyini diqqətə çatdırıb.

Qanunverici hakimiyyətdəki ən mühüm yenilik hakim "Vətəndaş müqaviləsi" partiyasının yeganə namizədi olan Ruben Rubinyanın yekdilliklə parlament sədri seçilməsidir. R.Rubinyanın parlament sədri seçilməsi təsadüfi xarakter daşımır. O, bundan əvvəlki çağırışda vitse-spiker olmaqla yanaşı, İrəvanın Türkiyə ilə münasibətlərinin normallaşdırılması üzrə xüsusi nümayəndəsi missiyasını da icra edib. Rubinyan Ankarada keçirdiyi görüşlər, "Hrant Dink" Fondunun proqramı çərçivəsində türk dili kurslarında iştirakı və Türkiyə mediasına verdiyi pozitiv mesajlarla tanınır. Onun spiker kürsüsünə əyləşməsinin rəsmi İrəvanın Türkiyə ilə münasibətlərin bərpasına və regional inteqrasiya tərəfdarı olan qanadının mövqelərinin daha da güclənməsinə təsir edəcəyi deyilir.

Bununla yanaşı, regionda sülh və Vaşinqton razılaşmalarının tərəfdarlarından sayılan keçmiş spiker Alen Simonyanın gələcəkdə Ermənistan prezidenti vəzifəsinə seçiləcəyi barədə ehtimallar da mövcuddur. Əgər bu ssenari reallaşarsa, hakimiyyətin bütün qanadlarında Qərbə inteqrasiya və qonşularla münasibətlərin normallaşmasını dəstəkləyən komanda tam oturuşmuş olacaq.

Ermənistan parlamentinin yeni tərkibdə işə başlaması müxalifətin sərt etirazı ilə müşayiət olunub. "Ermənistan" və "Çiçəklənən Ermənistan" fraksiyaları spiker səsverməsini boykot ediblər. Bundan başqa, müxalif deputatlar şifahi andiçmədən imtina edərək yalnız mətni imzalamaqla kifayətləniblər. Etirazın əsas səbəbi Ermənistan tarixində ilk dəfə olaraq parlamentin açılış iclasına Erməni Apostol Kilsəsinin katolikosu II Qareginin dəvət olunmaması idi. Paşinyan hökumətinin II Qaregini kənarda saxlaması kilsənin dövlət idarəçiliyinə və siyasi proseslərə təsir imkanlarını sıfırlamaq xəttinin davam etdiriləcəyinə işarədir.

İrəvanın siyasi xəttini yenidən dizayn etməsi Rusiyanın da diqqətindən yayınmır. Yeni hökumətdə istədiyi rıçaqları əldə edə bilməyən Rusiya müxtəlif gedişlərlə regiondakı nüfuz dairəsini qorumağa çalışır. Rəsmilərin dili ilə dolayısı təzyiq cəhdləri də bu məqsədi daşıyır. Lakin artıq Moskva da anlayır ki, regionda tamamilə yeni reallıq yaranıb.

Ümumilikdə Nikol Paşinyanın formalaşdırdığı yeni komandanın Türkiyə və Azərbaycanla dialoq kanallarını açıq saxlayacağı gözlənilir. Parlamentdəki radikal müxalifətin etirazlarına və kilsə ilə yaşanan gərginliyə baxmayaraq, hakim komanda sülh gündəliyini irəli aparmaq üçün daxili siyasi resurslara malikdir. İndi əsas sual Paşinyan hökumətinin qarşıdakı illərdə bu imkanlardan nə dərəcədə səmərəli istifadə edəcəyi, hansı siyasi iradəni ortaya qoyacağı ilə bağlıdır. Əgər İrəvan hökuməti üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməyi bacararsa, həm Ermənistanın təhlükəsizliyi təmin olunar, həm də ölkə regional iqtisadi layihələrin bir hissəsinə çevrilər.

*İsmayıl QOCAYEV,*
*"Azərbaycan"*

# Koreyalılar da istiyə dözmürlər




**Cənubi Koreya Prezidenti Li Ce Myonq yerli hakimiyyət orqanlarını ölkədəki həddindən artıq istidən təsirlənənlərə dəstəyi artırmağa çağırıb. O, anomal istidən 16 nəfərin həlak olduğunu bildirib.**

"Bu ekstremal hava şəraiti normaya çevrildiyi üçün milli böhran idarəetmə sistemini kökündən dəyişmək üçün səy göstərməliyik", - deyə Prezident bildirib. O, həmçinin insanların həyatını qorumaq üçün lazımi tədbirlərin görülməsini və kondisionerlərin istifadəsinin artması ilə yükü artan elektrik şəbəkəsinin yoxlanılmasını tələb edib.

Milli Meteorologiya Agentliyi avqustun 2-də temperaturun 122 illik ən yüksək həddə - 42,5°C-yə çatdığını açıqlayıb. Növbəti gün - avqustun 3-də xidmət Seulun bəzi rayonları üçün anomal istilik xəbərdarlığını edib.

Şimali Koreyanın KCNA Xəbər Agentliyi də həddindən artıq istidən xəbər verib. Pxenyanda bir neçə gündür tropik gecələr keçir, gündüzlər isə temperatur 40°C-yə çatır.

Cənubi Koreyanın "Yonhap" agentliyi xəbər verir ki, KXDR hakim Fəhlə Partiyası özünün "Rodong Sinmun" qəzeti vasitəsilə vətəndaşları gündüz aktiv istirahətdən çəkinməyə, fermerləri isə məhsullarını günəşdən və yüksək rütubətdən qorumağa çağırıb.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*

# Qütb partlayışı Yeni Zelandiyada güclü qar yağmasına səbəb olub

**Qütb partlayışı Yeni Zelandiyada güclü qar yağmasına, məktəblərin bağlanmasına və bərə reyslərinin ləğvinə səbəb olub. Qar və buzlu yollar ölkənin bəzi yerlərində səyahətə mane olur, sərt hava şəraiti isə operatorları birdən çox reysləri ləğv etməyə məcbur edir.**



AZƏRTAC "New Zealand Herald" qəzetinin məlumatına istinadla xəbər verir ki, soyuq hava kütləsi ölkəni bürüdükcə adanın bəzi yerləri qarın əsarətində qalıb. Polis cənubdakı Dunedin şəhərindəki insanları qar və buzlu yol şəraiti səbəbindən mütləq zərurət olmadığı təqdirdə səyahət etməkdən çəkinməyə çağırıb. Bir neçə əsas yol üçün qar uçqunu xəbərdarlığı edilib.

Əlverişsiz hava şəraiti nəticəsində Mosgiel, Port Çalmers və Vaykuaiti bölgələrində bütün məktəblər bağlanıb.

Yeni Zelandiyanın şimal və cənub adalarını ayıran Kuk boğazında vəziyyət güclü küləklər səbəbindən daha da pisləşib. Vellinqton və Pikton arasında dörd gəmi səfəri ləğv edilib, Blyubricdə isə çərşənbə axşamı altı reys təxirə salınıb.

Meteoroloqlar Nqavi bölgəsinin cənub sahilində güclü dalğalarla bağlı xəbərdarlıq ediblər. Dalğaların hündürlüyünün 6 metrə çatacağı proqnozlaşdırılır.

# ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin rəhbərliyi, deputatlar, parlament Aparatının və İşlər İdarəsinin kollektivləri Milli Məclisin deputatı Səyyad Arana qardaşı

**ELÇAY SALAHLININ**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bəxtiyar Sadıqov Azərbaycan Respublikası Vəkillər Kollegiyasının Ağsaqqallar Şurasının sədri, Əməkdar hüquqşünas

**İKRAM KƏRİMOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Baba Rzayev və "Azərenerji" ASC-nin kollektivi Azərbaycan Respublikası Vəkillər Kollegiyasının Ağsaqqallar Şurasının sədri, respublikanın Əməkdar hüquqşünası

**İKRAM KƏRİMOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Təhlükəsizlik Şurasının katibi Ramil Usubov Xalq şairi

**NƏRİMAN HƏSƏNZADƏNİN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Prokurorluğunun rəhbərliyi və kollektivi prokurorluğun veteranı

**QASIM RƏHİMOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Milli Elmlər Akademiyası Gəncə bölməsinin sədri, akademik Fuad Əliyev və bölmənin əməkdaşları Xalq şairi

**NƏRİMAN HƏSƏNZADƏNİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 538-35-55 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32 | | |

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə

az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3268
Sifariş 978

Qiyməti 60 qəpik